# DİNSİZLİYİN SƏTHİ MƏNTİQİ

Onlar hələ cahiliyyə hökmünümü istəyirlər?

Qəti inanan bir camaat üçün hökmü,

Allahdan daha gözəl olan kimdir?

(Maidə surəsi, 50)

HARUN YƏHYA

(ADNAN OKTAR)

# MÜNDƏRİCAT

Giriş

Cahil cəmiyyəti tanımaq

Cahil cəmiyyətin təqdim etdiyi qaranlıq yaşayış tərzi

Cahil cəmiyyətin əxlaqsızlığı

Cahil cəmiyyətin qorxuları və vəsvəsələri

Cahil cəmiyyətin din barəsindəki azğın inancları

Cahil cəmiyyətin əhəmiyyətli bir xüsusiyyəti: Razı salına bilinməmələri

Cahil cəmiyyətin səthi məntiqindən uzaqlaşmaq

Nəticə

# OXUCUYA

• Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin çöküşünə xüsusi bir yer ayrılmasının səbəbi, bu nəzəriyyənin hər cür din əleyhdarı fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və bu səbəbdən Allahın varlığını inkar edən darvinizm, 150 ildir bir çox insanın imanını itirməsinə ya da şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin bir yalan olduğunu gözlər önünə sərmək çox əhəmiyyətli bir imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlarımıza çatdırılması isə zəruridir. Bəzi oxucularımız bəlkə tək bir kitabımızı oxumaq imkanı əldə edə bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa bir bölüm ayrılması uyğun görülmüşdür.

• İfadə edilməli olan bir başqa xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Yazarın bütün kitablarında imani mövzular Quran ayələri istiqamətində izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilir. Allahın ayələri ilə əlaqədar bütün məsələlər, oxuyanın ağlında heç bir şübhə və ya sual işarəsi buraxmayacaq şəkildə açıqlanır.

• Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların kiçikdən böyüyə hər kəs tərəfindən rahat şəkildə başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat sayəsində, kitablar "bir nəfəsdə oxunan kitablar" deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmə mövzusunda qəti bir rəftar sərgiləyən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar edə bilmirlər.

• Bu kitab və yazarın digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna bilinəcəyi kimi, qarşılıqlı bir söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmələri baxımından faydalı olacaq.

• Bununla yanaşı, yalnız Allah rizası üçün yazılmış olan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük bir xidmət olacaq. Çünki yazarın bütün kitablarında isbat və razı edici yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

• Kitabların arxasına yazarın digər əsərlərinin təqdimatlarının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Bunun sayəsində kitabı əlinə alan adam, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha çox əsər olduğunu görəcək. İmani və siyasi mövzularda faydalanacağı zəngin bir qaynaq təcrübəsinin olduğuna şahid olacaq.

• Bu əsərlərdə, digər bəzi əsərlərdə görülən, yazıçının şəxsi qənaətlərinə, şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəbə və hörmətə diqqət etməyən tərzlərə, burxuntu verən ümidsiz, şübhəçi və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# Yazar və əsərlərİ haqqında

Harun Yəhya təxəllüsü adını istifadə yazar Adnan Oktar, 1956-ci ildə Ankarada anadan olub. İlk, orta və lisey təhsilini Ankarada tamamladı. Daha sonra İstanbul Memar Sinan Universiteti Gözəl Sənətlər Fakültəsində və İstanbul Universiteti fəlsəfə fakültəsində təhsil almışdır. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır. Harun Yəhyanın əsərləri təxminən 30.000 şəkilin yer aldığı ümumi 45.000 səhifəlik bir külliyatdır və bu külliyyat 63 fərqli dilə tərcümə edilmişdir.

Yazarın təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə edən iki peyğəmbərin xatirələrinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından yaradılmışdır. Yazar tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün istifadə olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür, Quran-i Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimiz (s.ə.v)-in də hatem-ül ənbiya olmasının rəmzidir. Yazar da, nəşr etdiyi bütün işlərində, Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını tək-tək çürütməyi və dinə qarşı yönəldilən etirazları tam olaraq susduracaq "son söz" ü söyləməyi hədəfləyir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulullahın möhürü, bu son sözü söyləmək niyyətinin bir duası olaraq istifadə edilmişdir.

Yazarın bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqlərini gözlər önünə gətirməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın daha bir çox ölkəsində maraqla oxunur. İngiliscə, fransızca, almanca, italyanca, ispanca, portuqalca, urduca, ərəbcə, albanca, rusca, boşnakca, uyğurca, indoneziyaca, malayca, benqalca, serbcə, bolqarca, çincə, suahili (Tanzaniyada istifadə edilir), Hausa (Afrikada geniş şəkildə istifadə edilir), dhivelhi (Mauritusda istifadə edilir), danimarkaca və isveçcə kimi bir çox dilə tərcümə edilən əsərlər, xaricdə geniş bir oxucu kütləsi tərəfindən təqib edilir.

Dünyanın dörd bir tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, analiz edən hər adam, bu əsərlərdəki hikmətli, köklü, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz olunmayan, çürüdülməzlik kimi xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların, artıq materialist fəlsəfəni,

ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də ancaq emisional bir inadla müdafiə edəcəklər, çünki fikri dayaqları çürümüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya Külliyyatı qarşısında fikri cəhətdən məğlub olmuşlar.

Şübhəsiz ki, bu xüsusiyyətlər, Quranın hikmət və izahat təsirindən qaynaqlanır. Yazarın özü bu əsərlərdən ötəri bir təkəbbür göstərmir, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Həmçinin, bu əsərlərin çapında və nəşr olunmasında hər hansı bir maddi qazanc hədəflənmir.

Bu həqiqətlər nəzərə alındığında, insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmaq əvəzinə, insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri dağıtmada, imanı qurtarmada güclü və kəskin bir təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə, əmək və zaman itkisinə səbəb olacaq. İmanı qurtarma məqsədindən daha çox, müəllifin ədəbi gücünü vurğulamağa istiqamətli əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi çürütmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə görüldüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilinməlidir ki, dünya üzərindəki zülm və qarışıqlıqların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmanın yolu isə, dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının, insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın günbəgün daha çox içinə çəkilmək istəndiyi zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin olduqca sürətli və təsirli bir şəkildə edilməli olduğu açıqdır. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə qabaqcıl rolu boynuna götürmüş olan Harun Yəhya külliyyatı, Allahın izniylə, XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa bir vəsilə olacaq.

# Giriş

Həyatı və ölümü Allah müəyyən bir məqsədlə yaratmış, insanlara doğrunu və yanlışı öyrədən haqq kitablar endirərək bu məqsədi onlara bildirmişdir.

**O, əməl (davranış və hərəkət) baxımından hansınızın daha yaxşı (və gözəl) olacağını sınamaq üçün ölümü və həyatı yaratdı. O, üstün və güclü olandır, çox bağışlayandır. (Mülk surəsi, 2)**

Bu məqsədin özü insanın, hər şeydən əvvəl özünü yaradan Rəbbimizi lazımınca tanıyıb təqdir edə bilməsi, Onun əmrlərini və qoymuş olduğu qadağaları diqqətlə qoruması, dünya həyatının keçici və saxta bir bəzəkdən ibarət olduğunu fərq edə bilməsi, həyatını axirəti hədəf alaraq tənzimləməsidir.

Həyatını, axirəti əsas alaraq təşkil edən bir insan əslində dünyada da olduqca ən gözəl, rahat və hüzurlu həyatı davam etdirəcək. Çünki öz yaradılışına ən uyğun olan həyat tərzi Quranda bildirilmişdir və insan Quranda bildirilən Allahın əmrlərinə tam olaraq uymaqla, bir mənada dünyanı cənnət bənzəri bir məkan halına gətirmiş olacaq.

**Kişi olsun, qadın olsun, bir mömin olaraq kim saleh bir əməldə olarsa, heç şübhəsiz ki, Biz onu gözəl bir həyatla yaşadarıq və onların qarşılığını, etdiklərinin ən gözəliylə mütləq verərik. (Nəhl surəsi, 97)**

Allah, yuxarıdakı ayəsində Qurana uyan möminlərin gözəl bir həyat yaşayacaqlarını müjdələyər. Bu məlumat, əslində insanlara verilmiş olduqca əhəmiyyətli bir sirdir. Nə qədər gözəl, nə qədər zəngin, nə qədər şöhrətli olursa olsun, bir insan Quran əxlaqını yaşamadığı müddətcə dünyada gözəl bir həyat yaşaya bilməz.

Məhz bu kitabda əsas olaraq toxunulmaq istənən mövzu da budur. İslam əxlaqı yaşanmadığında ortaya çıxan həyat formasının hər kadrında nə qədər sıxıntılı və narahat bir mühit meydana gətirdiyini bütün nümunələriylə ortaya qoymaq və buna qarşılıq Qurana uymaqla qazanılan "gözəl həyatı" təsvir etmək ...

Allah, Quranda, Peyğəmbərimiz (s.ə.v)-in göndərilməsindən əvvəlki həyatı "cahillik", yəni "cahillik dövrü" olaraq adlandırır. Ancaq burada istifadə "cahil" sifəti xalq arasında bilinən mənasından olduqca fərqli xüsusiyyətlər daşıyır. Çünki xalq arasındakı cahil sözü, ümumiyyətlə oxuma, yazma bilməyən, yaxşı bir təlim və təhsili olmayan, ədəbdən məhrum insanlara edilən bir bənzətmədir. Quranda ifadə edilən cahillik isə insanın, yaradılış məqsədindən, Yaradıcımızın vəsflərindən, özünə göndərilən İlahi kitabdakı məlumat və hikmətdən, sonsuz həyatını maraqlandıran mövzulardan xəbərsiz olması və bu cəhalətin doğurduğu şüursuz bir həyat formasını mənimsəməsidir. İnsanın, özünü və içində yaşadığı bu mükəmməl sistemi yaradan Rəbbimizin üstün qüdrətini qavraya bilməməsi, dünyada yaşadığı hadisələrin şüurunda olmaması cəhalətinin bir göstəricisidir. Belə bir insanın görünüşdə müasir,

nəcib, mədəni və məlumat sahibi olması, oxuduğu kitabların çoxluğu, onu içərisinə düşdüyü bu dərin cəhalətdən çıxarmağa kifayət etməz.

Bu cür bir cəhalətin və şüursuzluğun hökm sürdüyü cəmiyyətlərə "cahil cəmiyyəti" deyilir. "Cahil cəmiyyəti" anlayışı, yalnız Quran endirilmədən əvvəlki dövrlərdə yaşayan insanları deyil, Quran endirildiyi və içindəkilər təbliğ olunduğu halda Allahın razı olduğu əxlaq və həyat formasından uzaq olan cəmiyyətləri da ehtiva edir.

"Cahil cəmiyyəti" nin əsas məntiqi budur: İnsanların, həyatlarını özlərinin təyin etdiyi bəzi doğrulara və səhvlərə görə davam etdirmələri və həyatlarının ən əhəmiyyətli mövzusu haqqında laqeyd bir rəftar nümayiş etdirmələri. Ancaq bu seçimləri, onları axirətlərindən məhrum etdiyi kimi, onları dünyada da gözəl bir həyat sürməkdən məhrum edər. Çünki cahil cəmiyyətlərində yaşanan sistem, olduqca "səthi bir məntiqə" əsaslanır. Təməldəki məqsəd, hər kəs üçün eynidir: Təxminən 60-70 ili aşmayan məhdud dünya həyatını özünə görə olduqca ən yaxşı şərtlər içərisində yaşamaq. Bir insanın yaxşı və layiqli bir həyat yaşamaq istəməsi son dərəcə qanuni bir tələbdir. Nə var ki, cahil cəmiyyətin dəyər mühakimələrinə görə, guya yaxşı bir həyatı meydana gətirməyə çalışmaq, bu kəslərə həm ümid etdikləri yaxşı həyatı təmin etməz, həm də onları çox böyük bir itkiyə uğradar. Çünki cahillik əxlaqını yaşayan insanların dünyaları son dərəcə kiçikdir və insanı istər-istəməz kiçik düşünməyə, kiçik hesablar etməyə, ötəri və səthi rəftarlar sərgiləməyə təhrik edər. Üstəlik, bu dünyanın içərisində yaradılış məqsədini və ölümdən sonrakı həyatı düşünmək, sonsuz axirət həyatı üçün hazırlıq etmək kimi əhəmiyyətli mövzular yer almaz.

Cahil insanların böyük qisminə görə, dünya həyatı bir rəqabət və mübahisədən ibarətdir. Açıq şəkildə ifadə edilməsə də, müvəffəqiyyətli və güclü olmaq üçün, insanın hər zaman birinci olaraq özünü düşünməsi və eqoist şəkildə hərəkət etməsi əsas prinsipdir. Bu batil əxlaqı mənimsəyən insan nə qədər zəngin olursa olsun, pula və mülkə o qədər çox bağlanar və həmişə daha da çoxunu istəyər. Bu mərhəmətsiz sistemdə nə qədər çox etibar qazansa, o qədər daha çox ön plana çıxmağa çalışar, üstəlik bunu başqalarını əzmək bahasına belə olsa böyük bir həvəslə edər. Bu rəqabətə özünü o qədər qapdırar ki, içinə düşdüyü cəhalətin fərqində belə olmaz.

Bu həyat şəklinin nə cür səthi və yanlış olduğu isə ancaq Quranda bildirilən həyat forması, düşüncə və əxlaq quruluşu ilə düşünüldüyündə anlaşılır.

Bu kitabın məqsədi də, "cahil cəmiyyətləri" nə mənsub olan insanların bir qisminin din əxlaqını yaşamamalarından ötrü nə cür "səthi bir məntiq" içərisinə düşdüklərini göstərir. Həmçinin, bu məntiqin gətirdiyi yanlış əxlaq modelini hər istiqamətiylə ortaya qoymaq və bu qaranlıq quruluşdan xilas olmanın tək həll yolunun da ancaq Allahın insanlar üçün seçib bəyəndiyi həyat şəklinə uymaqla mümkün olduğunu isbat edir.

Allah cahil cəmiyyəti insanlarına belə buyurur:

Onlar hələ cahiliyyə hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha gözəl olan kimdir? (Maidə surəsi, 50)

# CAHİL CƏMİYYƏTİNİ TANIMAQ

Cahil cəmiyyətinin ən diqqətə çarpan xüsusiyyəti, bu cəmiyyəti meydana gətirən insanların böyük əksəriyyətinin Allahı tanımamaları və Allahın razılığından uzaq bir həyat sürmələridir. Bu da onların Qurandan və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsindən tamamilə ayrı bir düşüncə və əxlaq anlayışı inkişaf etdirmələrinə səbəb olur. Halbuki, Quran, bir insanın ömrü boyunca ehtiyac duya biləcəyi bütün məsələlərə cavab verən, həyatının hər sahəsinə həll yolu gətirən İlahi bir kitabdır. Quran Allah Qatından endirildiyi üçün, insanın yaradılışına ən uyğun əxlaq anlayışını və ən gözəl həyat tərzini öyrənəcəyimiz qaynaqdır.

Ancaq bu cür qəti və etibarlı bir rəhbər varkən, onu tərk edib öz doğrularını və səhvlərini öz yanlış ölçülərinə görə təyin edən, özünə xas səhv dəyər mühakimələri inkişaf etdirən bir cəmiyyətin məntiqi "cahilcə" qalar. Necə ki, cahil cəmiyyətin seçdiyi həyat tərzinin, sonrakı hissələrdə çox daha təfərrüatlı olaraq araşdırıldığında, nə dərəcə səthi olduğunu, gündəlik həyatın axışında da görmək mümkün olacaq. Cahil cəmiyyətinin həyat tərzinə və əxlaq anlayışına toxunmazdan əvvəl, bu cəmiyyətin ümumi xüsusiyyətləri haqqında qısaca fikir sahibi olmaqda fayda vardır.

## Hər dövrdə bir cahil cəmiyyət vardır

Günümüzə qədər yaşamış bir çox cəmiyyətdə, cahillik sistemi içində olan və bu sistemi mənimsəyərək Allahın razılığını axtaran insanlardan ibarət iki ayrı dəstə olmuşdur. Allahın Quranda təyin etdiyi sərhədlərin xaricində yaşayan bütün insanlar, cahil cəmiyyəti meydana gətirərlər. Bu kəslərin öz aralarında fərqli həyat şərtləri, görüş və düşüncə ayrılıqları olsa belə, əsasən ortaq bir məntiq yanlışlığı üzərində hərəkət edərlər. Bu yanlış məntiq də, Allahın Quranda bildirdiyi və məmnun olduğu əxlaqın xaricində yaşamaqdır. Hər nə qədər bunu şifahi olaraq açıq şəkildə ifadə etməsələr də bu kəslərin, Allahın bildirdiyi hökmlərdən güzəştə getmələri, dünyəvi istəklər üzərinə qurulmuş bir həyatı seçmiş olmaları, öz nəfslərini məmnun etmək üçün bir çox əxlaqi dəyəri gözardı etmələri cahillik sisteminin bir fərdi olduqlarını göstərir. Cahil cəmiyyətin yalnız dünya həyatı ilə məhdud olan dünya görüşü Quranda belə bildirilir:

**Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı olanlar və bununla təmin olanlar və Bizim ayələrimizdən xəbərsiz olanlar ... (Yunis surəsi, 7)**

**Həqiqət budur ki, bunlar, keçici olan (dünyan)ı sevirlər. Önlərində olan ağır bir günü unudurlar. (İnsan surəsi, 27)**

Dünya həyatının nemətlərindən istifadə etmək əlbəttə ki, yanlış bir şey deyil. Çünki Allah dünyadakı nemətlərin hamısını insanların faydalanmaları üçün yaratmışdır. Ancaq cahil cəmiyyətin düşdüyü yanılma budur: Cahil insanlar dünya

nemətlərini istifadə etməklə kifayətlənməz; bunlara ehtirasla bir bağlılıq göstərər və ayədə də ifadə edildiyi kimi "dünya həyatına aldanırlar". Daha da əhəmiyyətlisi, bunları özlərinə verənin Allah olduğunu unudub, Ona lazım olduğu kimi şükür etməzlər.

Bu səbəblə, günümüzə qədər gələn nəsillərin həyat tərzləri, zənginlikləri, mədəniyyətləri, mədəniyyət quruluşları, irqləri, rəngləri, dilləri bir-birlərindən hər nə qədər fərqli olsa da, təməl məntiq və zehniyyət baxımından cahil cəmiyyətləri bir-birlərinin eynisi olmuşlar. İstər tarixin ən ibtidai qəbilələrinə, istər ən ehtişamlı mədəniyyətlərinə, istərsə də müasir cəmiyyətlərimizdən birinə baxaq, cahil inancını yaşayan hər cəmiyyətin arxasıyca qaçdığı şey yenə yalnız dünya həyatının bəzəkləri olmuşdur.

## Cahillik əxlaqı nəsildən-nəsilə ötürülən batil bir "inanc sistemi" dir

Cahil cəmiyyətlərin bir başqa xüsusiyyəti də insanların həyata dair məlumatları, özlərini yaradan Rəbbimizdən endirilən haqq kitablardan öyrənmək əvəzinə, atalarından öyrəndikləri batil inanclar və səhv tətbiqlərdən almalarıdır.

Nəsildən-nəsilə miras olaraq ötürülən bu batil sistem, heç bir zaman sorğulanmaz. Hər cür məlumat qəti bir həqiqət olaraq qəbul edilir. Bütün dəyər mühakimələri, doğrular, səhvlər yeni nəslə hazır olaraq verilir. Bu səbəblə də, cahil cəmiyyətin bir hissəsi, həyatları boyunca doğruları axtarmaq kimi bir ideal içərisinə girməzlər.

Quranda, cahil cəmiyyətində yaşayan kimi insanların atalarından miras aldıqları bu batil sistemə necə sorğu-sualsız sahib çıxdıqları və düşünməyə ehtiyac hiss etmədən haqq dindən necə üz çevirdikləri belə xəbər verilir:

**Onlara: “Allahın nazil etdiyinə tabe olun!” - deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!” - deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

## Sayca çox olmaları, yaşadıqları həyatın doğruluğunu göstərməz

Cahil cəmiyyətlərlə bağlı olaraq Qurandan öyrəndiyimiz çox əhəmiyyətli bir məlumat da, bu birliklərin əksərən inanan insanların yaratdığı birliklərdən sayca çox olduqlarıdır. Quranda iman edənlərin sayının az olacağı bildirilir:

**Sən şiddətlə arzu etsən belə, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)**

**Beləcə onlar, az bir hissəsi istisna olmaqla, iman gətirməzlər. (Nisa surəsi, 46)**

**... Xeyr, onların əksəriyyəti iman gətirməzlər. (Bəqərə surəsi, 100)**

**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir. (Yusif surəsi, 106)**

Bununla yanaşı bu mövzu, inanmayanlar üçün də olduqca əhəmiyyətli bir sınaq mövzusudur. İnsanların böyük bir qismi, çoxluğun arxasından getməyi adət halına gətirmişdir və doğru olanın çoxluğun etdiyi hərəkət olduğunu zənn edər. Çoxluğun fikri hər zaman mütləq doğru və azlığın fikri də yanlış qəbul edilir. Bu səbəblə də, bəzi insanlar haqqa dəvət edildiklərində bəhanə olaraq bu səhv məntiqi irəli sürürlər.

Şübhəsiz ki, bu fərqlilik, Allahın əhəmiyyətli hikmətlərlə yaratdığı bir vəziyyətdir. İman edənlərin sayca az olması, onların gözəl əxlaqlarını qiymətli edər və axirətdə alacaqları qarşılığı artırır. Çünki dünya həyatı insanların sınanması üçün çox müxtəlif bəzəklərlə təchiz edilmişdir. Bütün bunlara baxmayaraq, axirət üçün yaşayan bir insan, bu bəzəklərə aldanan çoxluqdan çox daha üstündür.

Halbuki, cahil cəmiyyətin müdafiə etdiyi bu dəyər doğru deyil və cahil cəmiyyətin səthi məntiqinin yanlış bir yanaşmadır. Cahil cəmiyyətin sayca çox olması, bu insanların haqlı olduqlarını göstərməz; əksinə bu vəziyyət dünya həyatını seçərək nəfslərinin xoşuna gələn işləri etmək istəmələrindən irəli gəlir. Şübhəsiz ki, "mən çoxluğa tabe oluram, necə olsa onların söylədikləri doğrudur" kimi ağılsız bir bəhanə irəli sürərək, Allahın razılığını və əmrlərini gözardı edən bir insan ancaq özünü aldadır.

Allah Quranda belə bir cəmiyyətin sayca çox olmasının hikmətlərini xəbər verir və inanan qullarına, bunun bir ölçü olmadığını, əksinə vicdanın səsini dinləmədən çoxluğa uymanın səhv olduğunu bildirir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. Həqiqətən, sənin Rəbbin, Onun yolundan azanları daha yaxşı tanıyır. O, doğru yolda olanları da yaxşı tanıyır. (Ənam surəsi, 116-117)**

**Onların əksəriyyəti ancaq zənnə qapılır. Şübhəsiz ki, zənn həqiqəti heç cür əvəz edə bilməz. Allah onların nə etdiklərini bilir. (Yunis surəsi, 36)**

Möminlərin həqiqəti tapmasındakı ölçü və rəftarları isə Quranda belə təsvir edilir:

**... Məhz (Allaha) təslim olanlar, artıq onlar "həqiqəti və doğrunu" araşdırıb-tapanlardır. (Cin surəsi, 14)**

## Cahil cəmiyyətlər hər dövrdə mütləq xəbərdar edilmişdir

**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirik. (İsra surəsi, 15)**

**Sənin Rəbbin şəhərlərdən ən mühüm olanına, özlərinə ayələrimizi oxuyan bir elçi göndərməmiş o şəhərləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan şəhərləri məhv etdik. (Qəsas surəsi, 59)**

Quranda yer alan bu ayələr, hər cahil cəmiyyətə mütləq özlərinə haqq dini izah edəcək bir elçi göndərildiyini ifadə edər. Allah sonsuz ədalət sahibi olduğu üçün, özlərinə din əxlaqı təbliğ edilməmiş və buna görə xəbərdar edilməmiş bir birliyi əzablandırmayacağını xəbər vermişdir. Allah bu məqsədlə göndərdiyi elçiləriylə, Özündən başqa heç bir tanrı olmadığını bildirmiş və insanları çətin bir günə qarşı hazırlıq etmələri üçün xəbərdar etmişdir.

Bir ayədə Allah belə buyurmuşdur:

**Onlara da öz içlərindən: "Allaha ibadət edin. Ondan başqa sizin başqa məbudunuz yoxdur, yenə də qorxmursunuz?" (Desin) deyə içlərindən bir elçi göndərdik. (Muminun surəsi, 32)**

Quranda xəbər verilən bu əhəmiyyətli həqiqət ilə birlikdə, cahil cəmiyyətin əslində sahib olduğu səthi məntiqi yaşamaqda bilərəkdən dirəndiyini də görmüş olarıq. Bu insanlar, Allahın və axirətin varlığı onlara aydın izah edildiyi, doğru və yanlışlar bildirildiyi halda, batil cahillik dinini yaşamaqda israrlı davranırlar. Bir başqa ayədə də, onlara xəbərdaredici gəldikdə, bu cəmiyyətin liderlərinin mütləq üz çevirdikləri bildirilir:

**Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən bir peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: “Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!” – dedilər. (Zuxruf surəsi, 23)**

## Bütün ömürləri çətinlik və sıxıntı içində keçər

Cahillik əxlaqını yaşayan bir insan bütün planlarını yalnız dünya üzərinə qurar və axirəti də tamamilə unudar. Dünyaya olan sevgisi qısa müddət içərisində bir ehtirasa çevrilər və nə sərvəti, nə şöhrəti, nə də etibarı özünü təmin etməz vəziyyətə gələr. Nə qədər çoxunu əldə edərsə, bir o qədər daha əldə etmək üçün həvəslənir. Bu ehtiras onun qısa müddət içərisində fiziki mənada qocalmasına, eyni zamanda bir çox əxlaqi dəyərini də itirməsinə səbəb olur. Mənfəətçilik və mənfəətpərəstlik, dünya həyatında kimsə ilə həqiqi dost ola bilməməsinin və yalnızlıq içərisində yaşamasının səbəbidir. Bütün bunlar və kitabın sonrakı hissələrində oxuyacağınız cahillik əxlaqının gətirdiyi digər çətinliklər, insanın dünya həyatından həqiqi bir zövq ala bilməməsinə və xəyal qırıqlığına uğramasına səbəb olur.

Məhz bu, yalnız dünya həyatını seçən insanların içinə düşdükləri böyük bir yanılmadır. Onlar öz aləmlərində bütün nemətlərdən zövq ala bilmək üçün bir çox hadisədə Allahın əmrlərinə, İslam əxlaqının tələbinə zidd hərəkət edərlər. Bununla, nəfslərini təmin etməyi və dünyəvi nemətlərdən faydalanmağı məqsəd qoyarlar. Lakin vəziyyət heç bir zaman sandıqları kimi olmaz. Allahın yaratmış olduğu fitrətə zidd davrandıqları üçün axtardıqları xoşbəxtliyə heç bir zaman qovuşa bilməz və bir tərəfdən də dünyanın nə qədər qısa və əskik olduğunu bilərlər. Yuxarıda açıqladığımız kimi dünya həyatı, yalnız bir imtahan yeridir.

Bu aşkar həqiqətə baxmayaraq, çox vaxt bu insanlar, içində olduqları vəziyyəti dünyada ikən anlamağa çalışmazlar. Bütün həyatlarını dünya zövqləri uğrunda sərf etdikdən və ölümün astanasına gəldikdən sonra bu əhəmiyyətli həqiqəti fərq edən insanların varlığını Allah Quranda bildirmişdir. Bu, dönüşü olmayan bir peşmanlıqdır. Amma bundan da əhəmiyyətlisi, itirilən şeyin yalnız dünya həyatı olmadığıdır. Allah, səhv məntiqlərinin ardınca gedib, Allaha hesab verəcəklərini unudan bu insanların axirətdə də böyük bir hüsrana uğrayacaqlarını xəbər verir:

**Allah ilə qarşılaşmağı yalan sayanlar artıq ziyana uğramışlar. O Saat onları qəflətən haqladıqda onlar öz günah yüklərini bellərində daşıyaraq deyəcəklər: "Dünyada buraxdığımız əməllərə görə vay halımıza!" Onların daşıdıqları şey necə də pisdir! (Ənam surəsi, 31)**

Buna qarşı, bütün həyatlarını Allahın razılığını və axirəti hədəfləyərək keçirən möminlər də, Allahdan bir mükafat olaraq həm dünyada gözəl bir həyat yaşayar, həm də axirətdə cənnət ilə mükafatlanarlar:

**Beləliklə Allah onlara həm dünya mükafatını, həm də gözəl axirət mükafatını verdi. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 148)**

**De ki: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De ki: "Bunlar, dünya həyatında iman gətirənlər üçündür, qiyamət günü isə yalnız onlarındır." Bilən bir tayfa üçün belə müfəssəl izah edirik. (Əraf surəsi, 32)**

**Onlar iman gətirmiş və Allahdan qorxmuşlar.Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 63-64)**

## Niyə səthi bir həyatı seçərlər?

<u>Hər şeyin dünyayla məhdud olduğunu zənn etdikləri üçün</u>

Cahil cəmiyyətdə insanının əsas xüsusiyyətlərindən biri, daha əvvəl də ifadə etdiyimiz kimi, dünya həyatını hər şeydən üstün tutmasıdır. Bunun mənası budur: İnsanın böyük bir ağılsızlıqla özünə dünyada verilən "müvəqqəti" həyatı "əsas" qəbul edərək, sonsuz davam edəcək axirət həyatı üçün bir hazırlıq görməməsi.

Quranda bu yanlış məntiqə sahib olan insanların söylədikləri belə xəbər verilmişdir:

**Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik. (Muminun surəsi, 37)**

Bu kəslər Allahın insanları yenidən dirildəcəyinə inanmadıqları üçün dünya həyatında etdikləri hərəkətlərin bir məsuliyyəti olduğunu düşünməzlər. Axirətdə Allahın qarşısında hesab verəcəklərini, Onun razılığına zidd davrandıqları üçün tövbə

etməsələr əzablandırılacaqlarını gözardı edərlər. Məhz bu düşüncə ilə cahillik insanları özlərini aldadırlar. Onlar bu həyat şəklini, daha çox mənfəət əldə edə bilmək və dünyadan daha çox faydalana bilmək üçün seçərlər. Halbuki, əldə edə bildikləri nəticə bunun tam əksidir. Maddi və mənəvi həzlərin çoxunu itirər, həyatdan, ətraflarındakı insanlardan və özlərinə verilən nemətlərdən ümid etdikləri zövqü ala bilməzlər.

Çünki Allahı və axirət gününü unutduqları və Allahın razı olacağı həyat şəklinin xaricində yaşamalarından ötrü Allah bu kəslərin zövqlərini, sevgilərini, xoşbəxtliklərini əllərindən alır. Zahirən hər nə qədər nəfslərinin xoşuna gələn hadisələri seçim etsələr də, vicdanlarının səsini dinləmədikləri üçün əsla hüzur tapmaz, xoşbəxt ola bilməzlər. Həmçinin, Allahın verdiyi nemətləri özləri qazandıqlarını zənn etdikləri üçün yenə onları özlərinin hər hansı bir hadisə ilə asanlıqla itirəcəklərini düşünürlər. Bu səbəblə, həmişə əllərindəkini itirmə narahatlığını yaşıyarlar. Quranda bildirilən təvəkkülü yaşamadıqları üçün bu kəslər gələcək qorxusu içindədirlər. Bu səbəblə, dünyəvi mənada istədikləri bir çox şeyə sahib olsalar da, mənəvi əzab və sıxıntı içində yaşayarlar. Bu da Allahın yalnız dünya həyatına razı olan insanlara vermiş olduğu dünyəvi bir əzabdır.

Dünya nemətlərindən zövq ala bilməyin yolu, bu nemətlərin həqiqi sahibinin Allah olduğunu bilmək və Allahın razılığını axtararaq bu gözəlliklərdən istifadə etməkdir. Bu əhəmiyyətli həqiqəti qavrayan bir insan, dünyəvi nemətlərin keçici olduğunu, amma sonsuz axirət həyatında dünya şərtləri ilə müqayisə edilməyəcək qədər üstün gözəlliklərin sonsuza qədər özünə vəd edildiyini bilir.

"Yaxşı, cahil cəmiyyət bu əhəmiyyətli sirrin fərqinə varmırmı? Ya da dünyadan zövq ala bilmədiyini gördüyü halda niyə bu səthi məntiqi yaşamağa davam edirlər?" sualının isə, cavabını Allah Quranda bildirmişdir:

**Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir. (Nəhl surəsi, 107)**

**Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rad surəsi, 26)**

Göründüyü kimi, Quran ayələrində, cahil cəmiyyətin səthi məntiqinin arxasında duran əsil səbəbin, onların "dünya həyatına bağlanıb, axirəti unutmaları" olduğu açıqlanır. Halbuki, dünya həyatı insanlardan hansılarının daha gözəl rəftarlar edəcəyinin sınanması üçün hazırlanmış xüsusi bir imtahan yeridir. İnsanların əsil yurdu axirətdir. Ayələrdə bu həqiqət belə ifadə edilir:

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsil həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl**

**göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Bu ayələrdə cahil cəmiyyətin dünya həyatına niyə aldandığı və nələri cazibədar gördüyü də ətraflı olaraq açıqlanmışdır. Bunlardan biri, insanların bir çoxunun pula və mülkə qarşı duyduqları ehtirasdır. Ancaq maddi zənginlik insana tək başına ruhən bir hüzur təmin edə bilməz. Bu zehniyyət içində, heç bir zaman həqiqi mənada sevgini və hörməti, həqiqi bir dostluğu tapmazlar. Çünki bunlar ancaq gözəl əxlaqla qazanıla biləcək dəyərlərdir. Bir insanın üstün əxlaqı və səmimi rəftarları, qarşı tərəf üzərində müsbət bir təsir meydana gətirir; bu isə hörmət, sevgi və dostluğun təməlidir. Məsələn, bu ruh halı içərisindəki bir insan, bəlkə dünyanın ən dəbdəbəli evini tikdirər, ən rahat və ən son model avtomobili alar, ən bahalı paltarlarını geyər, ən ləzzətli yeməkləri alır, ağıla gələn ən gözəl əyləncə və tətil mərkəzlərinə gedər; amma heç birində axtardığı hüzur və xoşbəxtliyi tapa bilməz. Ehtiras və hərislik içində yaşadığı üçün hər zaman daha çoxunu istəyər, heç cür əlindəkilərlə məmnun olmaz. Bütün bu nemətlərə sahibkən belə həmişə şikayət edəcək və şikayətlənəcək bir şeylər tapar.

Daşıdıqları hərislik ciddi bəzi əxlaqi pozğunluqları da özü ilə gətirər. Pul ehtirası insanı saxtakarlığa, yalançılığa, eqoizmə, ədalətsizliyə, nifrətə, gərginliyə və daha bir çox rəftar pozğunluğuna sürükləyər. Quranda, cahil cəmiyyətin hər şeyə baxmayaraq bu səthi məntiqdə israr etmələrinin bir səbəbinin də öz aralarında öyünmə ehtirası olduğu göstərilir:

**... dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir... (Hədid surəsi, 20 )**

Dünya həyatına bağlı olan hər mövzu, cahil cəmiyyət üçün aralarında bir öyünmə və etibar vasitəsidir. İnsanlar tərəfindən təqdir görmək onlar üçün elə böyük əhəmiyyət daşıyır ki, bütün həyatlarını təkəbbürlənə biləcəkləri vasitə axtarmaqla keçirirlər. Yaxşı bir təhsil almaq, etibar əldə edib tanınmış bir insan olmaq, ad-sanlı zənginlər arasına girmək, məşhur bir ailənin üzvüylə dəbdəbəli bir evlilik etmək, hətta çoxlu uşaq sahibi olmaq belə cahil cəmiyyətin əhəmiyyətli öyünmə mövzularındandır. Uşağının gözəl ya da ağıllı olması, hansı məktəblərdə oxuduğu və ya kimlə, necə bir evlilik etdiyi kimi mövzular belə bu yanlış məntiq səbəbiylə bir rəqabət mövzusu olur. Bir insan əlbəttə, yaxşı təhsil almağı, gözəl bir ailə həyatı olmasını, keyfiyyətli və təmiz bir mühitdə yaşamağı tələb edə bilər və bu son dərəcə təbii bir tələbdir. Ancaq bir kimsə bunları tələb edərkən bütün əxlaqi dəyərləri bir yana buraxacaq qədər ehtiraslı davranırsa, bütün bunların müvəqqəti olduğunu unudursa, dünyadakı hər cür varlığın əsil sahibinin Allah olduğunu qavramırsa və sahib olduqları onu Allahı və axirəti xatırlamaqdan uzaqlaşdırırsa, bu məqbul bir vəziyyət deyil. Orta hesabla 60-70 il yaşanacaq qısa bir dünya həyatında insanların özləri kimi aciz və ölümlü başqa insanlara göstəriş edə bilmək üçün, belə aldadıcı bir ehtirasa qapılıb axirəti unutmaları çox böyük bir itkidir.

## Vicdanlarının səsini dinləməyib nəfslərinə tabe olduqları üçün

Cahil insanların, səthi bir həyatda israr etmə səbəblərindən biri də vicdanlarını ört-basdır edib, nəfslərinin əmrlərinə uyaraq yaşamalarıdır. Hər insanın sahib olduğu, həyatı boyunca verdiyi bütün qərarlara təsir edən iki səs var. Bu iki səs bir-birinə tam zidd məqsədlər üçün yaradılmışdır. Biri, insanları, Allahın məmnun olacağı şeylərə çağırarkən, digəri hər zaman Allahdan uzaqlaşdırır, insana ehtiraslarının, istəklərinin arxasınca sürükləyəcək şeyləri pıçıldayar. Məhz bu iki səs, vicdan və nəfsdir. Quranda bu həqiqət belə bildirilir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Cahil cəmiyyəti tanıdarkən nəfs və vicdan arasındakı ayrı-seçkiliyə xüsusilə diqqət çəkmək lazımdır. Çünki bir insanı "cahil" edən ən böyük ünsür, vicdanını dinləməməsi, buna görə də, yalnız və yalnız nəfsinin arzularının arxasınca qaçmasıdır.

Ancaq nəfslərinə uymadakı bu israrlı davranışları cahil insanlara heç bir şey qazandırmaz. Əksinə böyük bir itki içində ömür sürmələrinə səbəb olar.

## İmandan uzaq yaşayan insanlara Allahın verdiyi böyük əzab

***ADNAN OKTAR**: Bütün dünyaya Allah cəza verdi. Yəni 90%-nə deyirəm, baxın ən az hətta 99%-nə belə bir cəza verdi Allah bu dünyada. İnsanlardan sevgini aldı Allah. Yəni evlənənlər həmişə məntiq evliliyi edirlər. Ehtirasa, eşqə əsaslanan, Allah eşqinə əsaslanan evlilik edə bilmirlər.*

***APARICI**: Cəzanın səbəbi nədir?*

***ADNAN OKTAR**: Allahı unutdular, darvinizmə girdilər, materializmə girdilər. Qardaşım indi evləndiyi qadını bir meymun növü olaraq görür, yəni meymundan təkamülləşmiş bir heyvan və yox olub gedəcək bir heyvan olaraq görür. Başında bir az saç olan, tük olan, əli ayağı olan bir meymun kimi görür. O da qarşısındakını meymun kimi görür. Yəni daha inkişaf etmiş, daha dəyişik bir meymun növü olaraq görür. İki meymunun bir evdə yaşadığını düşünürlər. Yəni "necə mağaralarda meymunlar daha əvvəl yaşayırsa, biz də evdə yaşayırıq" deyir, "bir az daha inkişaf etmişik" deyir. İndi bu vəziyyətdə eşq, ehtiras, dərinlik olur mu? Yəni mümkün mü?*

*Başı-beyni boşalır adamın. Və baxıram mən, aslan kimi cavanlar amma çox mexanikidirlər. Qızlara baxıram, qadınlara baxıram, çox mexanikidirlər. Məsələn, manekenlərin gözlərində ən kiçik bir dərinlik parıltısı, bir ehtiras parıltısı görülmür. "Evlənək" deyirlər, buyurun; "Nədir peşən" deyir. "Bu" deyir, "Çox gözəl" deyir. "Maşının varmı" deyir, "Var" deyir. Birdən-birə içində bir eşq hiss etdiyini söyləyir ona qarşı, təsvir edilə bilməyəcək bir eşq meydana gəldiyini söyləyir. Malın gücü artdıqca eşqin dərinliyi də artır. "Dəlicə bir ehtirasa çevrildi mənimki artıq" deyir. Bir gün insan*

*deyir ki, "Mən" deyir, "Çox üzr istəyirəm iflasa uğradım" deyir. Üç gün sonra qadın, "Bir şey oldu" deyir, "Ayrılaqmı görəsən" deyir.*

*Məhz belə gələn, belə gedər. Malla gələn malla gedər. Ətlə gələn ətlə gedər. Məsələn, tipinə görə evlənir. Başqa tipi daha düzgün birini tapır. Bitdi. Pulu üçün evlənir, daha zəngin biri ona bir az göz qırpır, onu buraxır buna gedir. Peşəsi üçün deyir, məsələn, adam bir mühəndisdirsə, baş mühəndis olur daha da inkişaf edir, yaxşı, ona gedir. Nəyə görə gəlirsə, ona görə də gedir. Onun üçün həqiqi sevgi meydana gəlmir, əsl istək meydana gəlmir. Dünyaya*

*Allah, həqiqətən, böyük bir fəlakət verdi, böyük bir bəla verdi. Sevgi olmadan onsuz da dünyanın bir mənası yoxdur. O zaman sürünmə qalır geriyə. Yəni yemək yeyəcək, televizoru seyr edəcək, yatacaq, qalxacaq, hamama girəcək, yenə yemək yeyəcək, yenə yatacaq, yenə qalxacaq, hamama gedəcək, işinə gedəcək. İş yerləri sanki onlar üçün bir həbsxana kimi olur. Kiçik bir beton yığını məsələn, ofis deyilən yer, altı var, üstü var, sağı solu var, beton. Qarşısına da bir kompyuter qoyurlar. Səhər səkkizdən axşam bilmirəm neçəyə qədər bütün gün işləyir. Sonra evə gəlir başqa bir betonun içinə daha girir, mənzil dairəsinin içinə girir. Orada da yeməyini yeyir, çirkli qabları yuyur, paltarları yuyur, insanla dava edir qadın, sonra yatırlar, səhər olur yenə yeməklərini yeyirlər, yenə o beton yığınının içinə girir yenə bircə-bircə sayır. Bu otuz il filan davam edir. Sonra təqaüdçü olur.*

*Təqaüdçü olduqdan sonra da yenə tək beton yığınının içinə girir. Bu, həyatdırmı bu? Yəni bunun üçün mü gəldik biz dünyaya? Bunun adına sürünmək deyərlər. Sürünməyin digər adıdır bu. Belə həyat olmaz. Eşqlə yaşanar, istəklə yaşanar yəni dəlisov ehtirasla. Amma elə bir şey oldu mu, bapbalaca bir yer, dəlicəsinə bir ehtiras varsa, yəni şiddətli zövqlüdür, hər şey zövqlü olur.*

*Məsələn, qurbağaya baxarsan canın gedər, şəfqət hiss edərsən, hətta məsələn, qarışqanı görərsən onu dərin bir sevgiylə Allahın təcəllisi olaraq seyr edərsən. Çünki o kiçik pəncələriylə gedir, gedir, gedir bir baxırsan özünü təmizləyir, başını-gözünü təmizləyir. Sən haradan öyrəndin o kiçik canınla o təmizlənməyi? Və lak kimi parlayır tərtəmiz. Pəncəsinin ucunda, bapbalaca olan pəncəsinin ucunda bütün bədəninin xüsusiyyətləri və ondan sonrakı nəslin bütün xüsusiyyətləri kodludur.*

*Kəhrəba içində qarışqa var, yüz milyon illik yaxud yüz iyirmi milyon illik, donmuş qalmış heyvan içində, eynisinin surəti, heç dəyişməmiş. Amma ona Allah eşqiylə baxsaq gözəl olur. Yəni iş yeri Allah eşqiylə gözəl olur. Məsələn, dolmuş quyruqlarında son dərəcə mənasız mat bir üz var. Çölə çıxıram, insanlarda gülümsəmə, yəni bir xoşbəxtlik və sevinc olmalıdır, insanlara Allahın təcəllisi olaraq eşqlə məhəbbətlə insan yaxınlaşar. Məsələn, kiçik uşaqları görürəm. Fövqəladə gözəldirlər. Məsələn, dünən bazar günü, bir mağazaya getdim kiçik bir uşaq, adını verməyim mağazanın, nərdivanın birinci pilləsinə çıxmış, inanılmaz sevimli, yəni uzun müddət baxdım, sevgi göstərdim, getmək istəmədim, içimə yatmadı, yəni o gözəlliyi buraxıb getmək.*

*Allah hər yeri belə gözəlliklərlə təchiz etmişdir. Amma hər zaman deyirəm, bir dəfə insanlar bir-birlərinə güvənmirlər. Məsələn, qorxu çox geniş yayılıb. Belə həyat olmaz, yəni küçəyə çıx qorx, evə gəl betonun içinə gir. (Cənab Adnan Oktarın Tempo TV reportajından, 21 sentyabr 2009)*

# CAHİL CƏMİYYƏTİN TƏQDİM ETDİYİ QARANLIQ HƏYAT TƏRZİ

Zaman anlayışının artıq əhəmiyyətini itirdiyi, sonsuzluğun başladığı, heç vaxt tükənməyən ehtiramlarla dolu qüsursuz bir cənnət həyatımı, yoxsa ilk on ili uşaqlığın şüursuzluğuyla, son on ili də qocalıb yorgunluğuyla keçən üç-beş on illik, əskik və qüsurlarla dolu bir dünya həyatımı?

Şübhəsiz ki, ağlını istifadə edən hər insan, "qüsursuz və sonsuz olan cənnət həyatını" seçər; acizliklərdən heç vaxt qurtula bilmədiyi bir neçə on il üçün də bundan əsla imtina etməz. Ancaq, göz açıb bağlayana qədər keçib bitən dünya həyatının saxta sehrinə qapılan və axirəti tamamilə unudan insanlar da vardır.

Özlərinə görə mənfəət əldə edə bilmək üçün dünyaya aldanan bu insanlar, bir müddət sonra etdikləri seçimin heç də sərfəli olmadığını anlamağa başlayırlar. Yaşadıqları müddətcə, hər nə edirlər etsinlər, hara gedərlərsə getsinlər, bəla və çətinliklərdən heç cür "yaxalarını xilas edə bilməzlər". Etdikləri seçimin yanlışlığını qəti olaraq anladıqlarında isə, artıq iş işdən keçmiş və ölüm qapılarına dayanmış olur.

Yalnız bir qab yemək, bir yataq və daldalanacaqları adi bir sığınacaq üçün sahibləndikləri dünya həyatı, onlara əllərində qalan 30-40 ilin də heç bir ləzzət vermədiyi bir mühit təqdim edir. Quranda, insanların göz görə-görə bu cür əleyhlərinə işləyən bir sistemi seçmələrinin "ağıllarını işlətmədiklərindən" qaynaqlandığı bildirilir.

Bəs insanların böyük qismi üçün dünyada daimi narahatlıq və sıxıntı qaynağı olan, axirətdə isə onları sonsuz əzaba uğradan həyat tərzinin xüsusiyyətləri nələrdir? Cahil cəmiyyətin insanları necə bir həyat yaşayarlar?

Sonrakı səhifələrdə cahillik insanlarının yaşadıqları mühit ümumi olaraq toxunulacaq. Beləliklə, sahib olduqları səthi məntiq ortaya çıxacaq və edilən seçimin əslində insana, həm qısa, həm də uzun vədlərlə itkidən başqa bir şey qazandırmadığı bir dəfə daha görüləcək.

Ancaq mövzuya keçmədən əvvəl bunu xatırlamaqda fayda var: Burada izah edilən həyat tərzi cahil cəmiyyətlərin ümumi anlayışını ifadə edir. Cahil cəmiyyətin fərdlərinin hamısının tək-tək burada izah edilən hər şeyi yaşadıqlarını söyləyə bilmərik. Sonrakı səhifələrdə izah edilən mühitlərin xaricində yaşayan insanlar da ola bilər. Lakin burada vurğulanan əsas mövzu ümumi məntiqin "səthiliyi" dir. Bu "səthi anlayış" bəzi insanların əxlaqi dəyərlərə yanaşmasında, kiminin mənfəətpərəstliyində, kiminin həyat tərzində, kiminin isə burada heç toxunmadığımız başqa xüsusiyyətlərində görülə bilər. Əhəmiyyətli olan, Allahı və hesab gününü unudaraq həyat sürən insanların, dünyada bu səthiliyini müəyyən bir istiqamətiylə mütləq yaşamalarıdır.

## Cansıxıcı həyat

Cahillik sistemini qəbul etmiş olan və bundan imtina etməyən insanlar istəsələr də, istəməsələr də həyatın hər mərhələsində sıxıntının içinə girərlər. Ancaq bundan xilas olmanın yolunu da heç cür tapa bilməz və sonunda, özlərinə görə bunun "həyatın qatlanılmalı olan bir həqiqəti" olduğuna qərar verərək, bu batil sistemə boyun əyərlər. Bəhsi keçən kəslərin bu mərhələdən sonra da edə bildikləri tək şey isə, "ömür sərf etmək", digər bir sözlə "ölümü gözləmək" dir.

Səhər oyandıqları andan etibarən hər günkü cansıxılığa bir dəfə daha dönərlər. Yenə erkəndən işə gedəcək, gün boyu eyni insanların üzünü görəcək və yenə hər günkü klassik söhbətləri eşidəcəklər. Axşam eyni avtomobilə minərkən, illərdir hər gün keçdikləri yollardan bir dəfə daha keçəcək və yenə eyni saatda evlərinə çatacaqlar. Eyni masada, eyni insanlarla yenə eyni söhbəti edəcək, günün necə keçdiyini qəlibləşmiş bir neçə cümləylə izah edəcək və televizordakı eyni seriallara bir parça göz atdıqdan sonra bir sonrakı günün cansıxıcılığını qarşılamaq üzrə yatmağa gedəcəklər.

Bunun həmişə belə davam edəcəyini bilmək isə, hər şeyi olduğundan daha sıxıcı və dözülməz görmələrinə səbəb olur. Məsələn, illər əvvəl çox sevərək və bəyənərək aldıqları evləri, artıq dözülməz, sıxıcı bir hal almışdır. Amma çox istisna bir fürsət çıxmadığı müddətcə, o evin içində həyatlarını davam etdirmək məcburiyyətindədirlər. Eyni şəkildə cansıxıcılığın təsiriylə bütün cazibədarlığını itirmiş olan evin hər bir əşyası, onlara yalnız həyatın sıxıcılığını xatırlatmış olur. Ətraflarındakı insanlar da eyni şəkildə adi gəlməyə başlamış və bütün xüsusiyyətlərini itirmişdirlər. Əvvəllər hər an həyəcan və xoşbəxtlik verən ailələri və dostları artıq yalnız vərdiş səbəbiylə axtarılar.

Həyat tərzlərindəki bu cansıxıcılığın əhəmiyyətli bir səbəbi, son dərəcə kiçik hədəflərə sahib olmalarıdır. Dünya ehtirasına ən çox qapılan insanın belə, həyatdan gözlədikləri bir neçə sətirə sığacaq qədər məhdud və kiçik bir dünyanın məhsuludur: Yaxşı bir məktəb bitirmək, çox pul qazandıracaq bir peşə əldə etmək, yaxşı bir evlilik etmək, sağlam uşaq doğmaq, onları ən yaxşı şəkildə oxutmaq və böyütmək, beləcə yaşlılıqda özlərinə baxa biləcək sərmayə qoyaraq ölümü gözləmək ...

Halbuki, insanın əsil və ən böyük hədəfi, Allaha gərəyi kimi qulluq etmək və həyatı boyunca Onun razılığını qazanmağı özünə məqsəd etmək olmalıdır. Belə bir insanın həyatı heç zaman cansıxıcı ya da ötəri olmaz. Hər an möhkəm bir şövq və həyəcan içərisindədir. Dünyada qısa bir müddət qalacaq, amma burada etdiyi gözəl davranışların qarşılığını axirətdə əbədi bir xoşbəxtlik yurdu olan cənnətə girərək alacaq. Bu səbəblə, dünyada "vaxt öldürmək" deyil, əksinə, "vaxt qazanmaq" və 60-70 illik ömrünü sonsuz həyatına ən çox fayda təmin edəcək şəkildə dəyərləndirmə cəhdində olacaq.

Bununla yanaşı, Qurana görə hərəkət edən insanların gündəlik həyatları da heç bir zaman cansıxıcı olmaz. Çünki mömin hər zaman ağlıyla hərəkət edir. Bu səbəblə də, hər an yeni bir xarakter sərgiləyər. Nə özünün, nə ətrafının, nə də fəaliyyətlərinin cansıxıcı olmasına icazə verməz. Ən çətin və məhdud imkanlarda belə ağlını istifadə edərək, hər zaman əvvəlkindən daha da müsbət və yaxşıya aparan dəyişikliklər, sıçrayışlar edər. Ən yorğun olduğu anlarda və ya yaşı artdığı dövrdə belə şövq, həyəcan və məhsuldarlığından ən kiçik bir şey itirməz. Etdiyi seçim həyatını gözəlləşdirirkən özünə cənnət həyatını da qazandırar ki, Allah Quranda iman gətirənlərin bu qazancını belə bildirir:

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!" (Fatir surəsi, 34-35)**

Nəticə bu qədər qazanclı ikən, cahil cəmiyyətinin cansıxıcı şəkildə yaşamağı qəbul etməsi və bundan xilas olmaq üçün cəhd göstərməməsinin səbəbi isə ayələrdə belə bildirilir:

**... Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır. Onlar özlərindən bir az əvvəl əməllərinin cəzasını dadmış, özləri üçün də ağrılı-acılı bir əzab hazırlanmış kimsələrə bənzəyirlər. (Həşr surəsi, 14-15)**

## Sıxıntılı mühitlər

Cahil cəmiyyətlərdə insanlar təvəkkülsüzlüyün gətirdiyi böyük sıxıtı içərisində həyat yaşayırlar. Allaha inanmamaqla ya da Allahın hökmlərinə uymamaqla məsuliyyətlərindən uzaqlaşacaqlarını və beləcə, özbaşına bir həyat yaşayacaqlarını zənn edərlər. Lakin hər nə qədər bu sistemi müdafiə etsələr və belə bir mühitdə daha rahat olacaqlarını irəli sürsələr də, əslində bundan məmnun olmazlar. Çünki ətraflarındakı insanların da əsil hədəfləri yalnız dünyanı yaşamaqdır. Onlar da özləri kimi bu mövzuda olduqca eqoist və hərisdirlər. Bu səbəblə, ətraflarındakı insanlarla həqiqi səmimiyyəti, dostluğu və hüzurlu bir yoldaşlığı yaşaya bilməzlər. Həmçinin, hər kəsin öz cahil qaydalarına görə yaşadığı, Allah qorxusunun, buna görə də, təhlükəsizlik mühitinin olmadığı bir həyat yaşamaq insanlara sıxıntı verər. Yalnız özlərinə görə dünyadan zövq almaq məqsədiylə dinsizliyi seçmişlər. Lakin bu seçimləri onların çox daha sıxıntılı və narahat olmalarına səbəb olur. Hal-hazırda bir çox insanın "stress" deyilən narahatlıqla mübarizə etdiyini bilirik. Məhz bu vəziyyət əslində dünyaya qarşı duyulan ehtirasın bir qarşılığıdır.

Bu sıxıntının əsil qaynağı Allaha güvənib etibar etməməyin gətirdiyi təvəkkülsüzlükdür. Allahın sonsuz gücünü, insanlar və hadisələr üzərindəki idarəsini

qavraya bilməyən kəslər daima qorxu və narahatlıq içində yaşayarlar. Qədərlərinin sonsuz ağıl sahibi olan Allahın təqdirində olduğunu unudar, hər şeylə özlərinin mübarizə apardığının lazım olduğunu zənn edərlər. Bu yanlış məntiqə görə hər an başlarına bir şey gəlmə ehtimalı vardır və özlərini qoruyacaq bir gücə də sahib deyildirlər.

Hadisələrə həmişə qorxu dolu və mənfi bir dünyagörüşüylə yaxınlaşarlar. Sakit bir ruh halında çox rahat şəkildə ağıllarından istifadə edə biləcəkləri mövzularda, stressin zehinlərində meydana gətirdiyi səssizlik səbəbiylə həll yolu tapa bilməyərək çarəsiz qalırlar. Həmişə bədbəxtdirlər; qarşılarına çıxan kiçik-böyük hər hadisədən asanlıqla gərginliyə düşə bilərlər. Xüsusilə də çatışmazlıq olaraq xarakterizə etdikləri vəziyyətlər, onlar üçün stressin imtina edilməyən vasitələridir.

Ancaq bu insanların ən əhəmiyyətli xüsusiyyəti, hadisələr hələ reallaşmadan "Əgər belə olsa?" ya da "necə nəticələnəcək görəsən?" kimi yanlış fikirlərlə özlərini gərginliyə salmalarıdır. Səhər qalxdıqları andan etibarən bu narahatlıqları bir-bir ağıllarından keçirər və ola biləcək çatışmazlıqların, hələ reallaşmadan öncə düşünərək xəyali ssenarilər çıxarmağa başlayarlar. Məsələn, çox əhəmiyyətli bir yığıncağa yetişməli bir iş adamı, ən az bir həftə əvvəlindən ya bir çatışmazlıq çıxar da xəstələnərsə və ya gec qalıb o yığıncağa qatılmazsa nələr olar, nələr itirər, itirdiklərini bərpa etmək üçün nə kimi çətinliklərlə üz-üzə qalmaq məcburiyyətində qalar kimi, tamamilə əsassız və boş düşüncələrlə özünü məşğul edər. Bu məşğuliyyət sadəcə tək bir mövzuya da məxsus deyil. Sağlamlıqları, maddi vəziyyətləri, ailə, iş və yoldaş əlaqələri, qonşuları, ölkə siyasəti, ictimai və iqtisadi vəziyyət və bunlar kimi daha minlərlə çətinlik yaradacaq mövzu vardır onlar üçün. Həmçinin, yalnız öz düşüncələri ilə məşğul olmaqla qalmaz, dostlarının, uşaqlarının, yoldaşlarının, qonşularının xəyali problemlərini da özlərinə dərd edər və bunları düşünərək gərginliklərini daha da artırarlar.

Qurana tabe olan möminlər isə rahatlığı, sevinci, xoşbəxtliyi yaşayarlar. Allahın varlığına və gücünə duyduqları etibardan ötrü heç bir zaman sıxıntıya girməzlər. Qarşılaşdıqları hər hadisəni ağıl və vicdandan istifadə edərək həll etməyə çalışarlar. Hər hadisəni, hər insanı və hər canlını Allahın ən xeyirli şəkildə yaratdığını bildikləri üçün canlılıqlarından, sevinclərindən heç bir şey itirməzlər. Bir hadisə görünüşcə mənfi kimi görünsə də buna görə yas saxlayıb, ümidsizliyə düşməzlər. Bir möminin içində olduğu vəziyyət, qarşısındakı adamın əxlaqı, qarşılaşdığı hadisələr necə olursa olsun, Allaha olan etibarını itirməz və əxlaqdan kənar xüsusiyyətləri göstərməz.

İnananlar Allahın qarşısında aciz varlıqlar olduqlarını və bu səbəblə, səhv edə biləcəklərini bilirlər. Möminlər, səhvləri ya da qüsurları olduğu zaman da təhlükəsiz və rahat şəkildə əskikliklərini düzəltməyin yollarını axtararlar. İmanlarından qaynaqlanan bu rəftar nəticəsində də stress və gərginliyin səbəb olduğu maddi-mənəvi bütün zərərlərdən uzaqlaşmış olarlar.

Yuxarıda təsvir etdiyimiz bu təvəkküllü ruh halı, müsəlmanların bütün həyatlarına hakimdir. Qarşılaşdıqları hər çətinlikdə tək köməkçilərinin Rəbbimiz olduğunu bilirlər. Allaha olan etibarlarında və itaətlərində bir əskilmə olmaz. Çünki bütün canlıları yaradan Rəbbimiz insanlar üçün ən xeyirlisinin nə olduğunu ən yaxşı biləndir. Quran da bir ayədə belə buyrulur:

**"... Olar ki, xoşunuza getməyən bir şey, sizin üçün xeyirlidir və olar ki, sevdiyiniz şey də sizin üçün şərdir. Allah bilir, siz bilməzsiniz." (Bəqərə surəsi, 216)**

Buna qarşılıq olaraq, cahilliyin batil sistemini mənimsəyən insanların maddi-mənəvi bir çox zərərlərə uğradıqları görülür. Çürük məntiqlərinin bir məhsulu olan stress, onları həm ruhi, həm də fiziki cəhətdən qocaldar. Bu gərginliyə dünyadan daha çox faydalanmaq üçün düşmüşlər; amma dünyadan heç bir şəkildə zövq ala bilmədikləri kimi, üstəlik sonsuz axirət həyatlarını da itirmişlər. Halbuki, dünyadakı vaxtlarını Allah rizası üçün xeyir və gözəllik uğrunda dəyərləndirmiş olsalar, həm dünyanı, həm də axirəti qazanacaqlar:

**Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır... (Tövbə surəsi, 111)**

**Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi, 111)**

## İnsanları zənginlik, mövqe və gözəlliklərinə görə qiymətləndirmələri

Zənginlik, cahil cəmiyyətlərində ən etibar qazanan dəyərlərdən biridir. Bu cəmiyyətin insanları, kim daha zəngindirsə, ona daha çox hörmət edərlər.

Cahil cəmiyyətin üzvləri ətraflarındakı insanları, əxlaq strukturlarına, dürüstlüklərinə, etibarlılıqlarına, təvəzökarlıqlarına və şəxsiyyətlərinə görə deyil, sahib olduqları pulun çoxluğuna görə qiymətləndirərlər. Çünki bu əxlaqi dəyərlərin, bəhsi keçən cəmiyyətdəki insanların böyük hissəsi üçün demək olar ki, heç bir əhəmiyyəti yoxdur. Onların özlərinə görə sanki ilahlaşdırdıqları anlayış "pul" dur və hər şey buna görə dəyərləndirilir. Məhz bu yanlış anlayışa görə, bəhsi keçən cəmiyyətdə "hər kəsin və hər şeyin bir qiyməti vardır". Necə ki, "pulun açmayacağı qapı yoxdur" sözü bu cəmiyyətlərdə ən məqbul anlayışlardan biridir.

Bu "saxta" üstünlük səbəbiylə cahil cəmiyyətdə "elit" olaraq adlandırılan təbəqəyə qarşı qəribə bir heyranlıq duyulur. Zəngin təbəqənin rəftarları və əxlaqi

strukturları nə qədər pis olursa olsun, hətta etdikləri hər cür azğınlıq, "moda" olaraq qəbul edilir. Bu batil fəlsəfəyə görə də cəmiyyətdə əxlaqi cəhətdən ən aşağı səviyyədə olan adam əgər zəngin olursa, cahil cəmiyyətin ən yuxarı səviyyəsinə yerləşdirilir.

Zənginlik qədər əhəmiyyət daşıyan digər meyarlar da mövqe-vəzifə və fiziki gözəllikdir. Gözəl olan insanlara və yaxşı bir mövqeyə sahib olan şəxslərə qarşı səbəbsiz bir hörmət duyulur. Çox vaxt bu kəslərin kim olduğu, necə bir xarakterə sahib olduğu belə bilinmədən, üstünlükləri qəbul edilir. Xüsusilə də özlərini fiziki mənada bəyənməyən və ya müəyyən bir mövqeyə sahib olmayan şəxslər, bəhsi keçən dəyərlərin üstünlük üçün yetərli bir ölçü olduğuna qəti olaraq inanarlar.

Məhz cahil cəmiyyət, sayılan bu xüsusiyyətlər istiqamətində olan yanlış bir sistemə malikdir. Demək olar ki, bütün fərdləri bu dəyərləri daha uşaqlıq illərində öyrənər və qəbul edərlər. Bu batil sistemi qəbul edən hər kəs cəmiyyət içərisində daxil olduğu sinfi və bunun gətirdiyi güc və etibar səviyyəsini bilir. Məsələn, onların batil mühakimələrinə görə, zəngin kasıbdan, təhsilli olan cahildən, mövqe sahibi adi insanlardan, gözəl çirkindən mütləq üstün və yüksək səviyyədədir. Buna görə də aşağıda olan yuxarıda olana qarşı qəribə bir əziklik, təqlidçilik və qısqanclıq hissi bəsləyir. Bu da bəhsi keçən insanları, mənasız bir yarış və rəqabət içinə salar. Yer üzündə var olma məqsədlərini heç düşünməzkən, bütün diqqətlərini bu nəticəsiz etibar savaşında bir yer əldə etməyə verərlər.

Mənasız meyarlara əsaslanan bu təlqin nəticəsində insan özündə, daha aşağı səviyyədəkilər üzərində təzyiq tətbiq etmə haqqı da görər. Məsələn, usta şagirdi əzərkən, şagird da çırağı əzər. Ya da ev sahibi kirayəçini, kirayəçi qapıçını, qapıçı arvadını, arvadı da uşağını eyni batil sistemə daxil edər. Özlərinə görə belə bir üstünlük sırası müəyyənləşdirmişlər. Və hər kəs öz səlahiyyət və hüquqlarının sərhədlərini bilir.

Əlbəttə, bunların hamısı son dərəcə səhv məntiqlərdir. Cahil insanlar əvvəl Allahın əmr etdiyi əxlaq xaricində bir sistem qurar, sonra da təyin etdikləri batil sistemin qaydaları üzündən əzab dolu bir həyat yaşayarlar. Bütün bunlar səthi bir düşüncə sisteminin məhsuludur. Halbuki, həqiqi üstünlük, mal, mülk, şöhrət, güc ya da etibar kimi anlayışlara deyil, insanların Allaha olan imanlarına, təqvalarına və gözəl əxlaqlarına bağlıdır. Bunun xaricində bir insanın nə dərisinin rəngi, nə boyu, nə çəkisi, nə gözəlliyi, nə də maddi vəziyyəti Allah Qatında bir əhəmiyyət daşımaz. Bunların hamısı, insanlar kəfənə sarılıb torpağın altına basdırıldığında əhəmiyyətini itirəcək olan keçici dəyərlərdir. Geriyə tək qalan şey isə insanın Allaha olan imanı və bağlılığı olacaq.

Quranda insanlar üçün məqbul olan ölçü belə ifadə edilir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli**

**olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Bu şüurda olan insanların meydana gətirdiyi bir cəmiyyətdə yaşamaq şübhəsiz ki, böyük bir rahatlıqdır. Hörmət və sevgi ölçüsünün maddi dəyərlərdən təmizləndiyi, yerini vicdan, dürüstlük, etibarlılıq, gözəl əxlaq kimi fəzilətlərə buraxdığı bir mühit, mövcud olan mənasız rəqabəti də ortadan qaldırar. Bunun yerini alacaq həqiqi və gözəl olan yarış isə, Quranda da bildirildiyi kimi, insanların xeyirlərdə, insani vəsfləri qazanmaqda, hörmətdə və sevgidə yarışmaları olur. Allah xeyirlərdə yarışan qullarının üstünlüyünü Quranda belə bildirir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və onlar bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

**Hər kəsin (hər cəmiyyətin) üz tutduğu bir qibləsi vardır. Elə isə xeyirlərdə yarışın. Harada olsanız, Allah sizləri bir araya gətirəcək. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 148)**

**Belələri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. (Ali İmran surəsi, 114)**

## Ağılın və vicdanın istifadə olunmadığı bir mühitdə yaşamaları

Cahillik sisteminin təməli, "düşünməmə" üzərinə qurulmuşdur; düşünmədən yaşamaq, düşünmədən danışmaq, düşünmədən qərar qəbul etmək, düşünmədən tətbiq etmək ... Bu batil sistemi mənimsəmiş insanların böyük əksəriyyəti düşünməyi özlərinə görə sanki bir vaxt itkisi və daha da əhəmiyyətlisi bir çətinlik olaraq qiymətləndirərlər. Çünki "düşünmək" eyni zamanda ağılın və vicdanın dövrəyə girməsi deməkdir. Bunun yerinə heç düşünmədən və sorğulamadan bəzilərinin özləri üçün müəyyən etdiyi qaydaları və prinsipləri, adətləri birbaşa həyata keçirirlər.

Misal üçün, özlərinə "tədris edilən" mövzularla qarşılaşdıqlarında nə edəcəklərini bilirlər, amma heç gözləmədikləri ani ya da yeni bir vəziyyət baş verdikdə çarəsiz və əlacsız qalarlar. Içinə düşdükləri qarışıqlıq və tərəddüd, ağılı və vicdanı istifadə etməməyin gətirdiyi nəticələrdən yalnız biridir. Bunun kimi, yenilik etmə mövzusunda da, kor bir məntiq inkişaf etdirmişlər. Məcbur qalmadıqları müddətcə heç bir mövzuya yenilik gətirməzlər.

Yuxarıda açıqladığımız xarakter əgər diqqətlə dəyərləndirilməzsə, yanlışlığı tam olaraq fərq edilməyə bilər. Möminlər üçün edilən hər hərəkətin, deyilən hər sözün şüurla edilməsi vacibdir. Diqqətsizlik, laqeydlik, məsuliyyətsizlik kimi xüsuslar möminlərin çəkindikləri mövzulardır. Bu səbəblə, Allahın əmrlərinə qarşı həm son dərəcə hörmətli, həm də bu əmrləri yerinə yetirmək mövzusunda həssasdırlar. Bu həssaslıqlarını vicdanlarını istifadə etmək mövzusunda da göstərirlər. Bu xüsusiyyətləri ilə cahil insanlardan tamamilə ayrılırlar. Məsələn, cahil cəmiyyət, özlərinə təsvir edilən və cəmiyyət tərəfindən qəbul edilən yaxşılıqları edərlər. Lakin çox vaxt bu yaxşılıqları nə üçün etdiklərini belə düşünmürlər. Yanlarındakı adama peşman olmamaq üçün, hətta digər insanlara göstəriş edə bilmək üçün bu cür davranan kəslər belə vardır.

Gündəlik həyatda bu rəftarların saysız nümunəsi ilə qarşılaşmaq mümkündür. Amma əsas olaraq bu, əsas həyat fəlsəfəsidir və nəticələri çox daha ciddi zərərlərə yol açar. Uğradıqları ən böyük zərər isə, ağıl və vicdandan istifadə edərək düşünməmələri səbəbiylə, Allahın böyüklüyünü və axirətin varlığını qavraya bilməmələridir. Quranda cahil cəmiyyətin ağıllarını istifadə etməmək xüsusiyyəti, "**Bu, şübhəsiz ki, onların ağılsız bir qövm olmaları səbəbindən belədir.**" ayəsiylə xəbər verilmişdir. (Həşr surəsi, 14)

İnananlar isə, ağlın və vicdanın nə cür böyük bir nemət olduğunu dərk edən kəslərdir. Həyatlarının hər mərhələsində bu imkanlardan sonuna qədər faydalanırlar. Gördükləri hər hadisə üzərində düşünür, ən ağıllı və ən vicdanlı rəftarı taparlar. Hər hadisənin nümunə ya da ibrət alınacaq istiqamətlərini görür, daha sonrakı hadisələrdə bu təcrübələrindən istifadə edirlər. Heç bir zaman keçmişdəkilərin özlərinə qoyduqları sistemləri sorğusuzca tətbiq etməzlər. Həqiqətən faydalı bir şey varsa bundan yararlanır, ancaq bir səhv varsa da asanlıqla Allahın razı olacağı davranışa yönələrlər. Dünyada belə hüzur və xoşbəxtlik içində yaşadıqları kimi, bir ömür boyu vicdanlı davranmalarına görə sonsuz cənnət həyatını qazanar və axirətdə də rahat bir həyat yaşayarlar.

Məhz bütün bunlar ağılın və vicdanın gətirdiyi nemətlərdəndir.

## Əxlaqi dəyərlərin degenerasiya olduğu bir mühit

İslam əxlaqını yaşamanın gətirdiyi gözəlliklər məhv edildikdə ortaya çıxan vəziyyət, heç bir insanın rahat edə bilməyəcəyi və hətta zərərə məruz qalacağı bir görüntü yaradır. Belə bir vəziyyətdə qarşılaşacaq olan ən təhlükəli və narahatlıq verici şeylərdən biri "qanunsuzluq və sərhəd tanımazlıq"dır. Bu sistemdə hər fərd öz qaydalarını özü müəyyən edir. Bu qaydaların hər biri, qəti sərhədlərlə müəyyənləşməmiş dəyişkən ölçülərə əsaslanır. Əsas ölçü, cəmiyyət içərisində həddindən çox qaçmamaq və çox qarşılıq almamaqdır. Bu batil sistemə uyan

insanların bir qismi, cəmiyyətə sezdirmədən və ifşa olmadan edilən hər şeyin "sərbəst" olduğuna inanırlar. Bəhsi keçən kəslər, kənara istiqamətli danışıqlarında həmişə əxlaq və fəzilət mövzusunda ehkam edərlər, əksini müdafiə edənlərə şiddətlə qarşı çıxarlar, amma kimsənin görmədiyini düşündükləri mühitlərdə bunun tam tərsi bir rəftar sərgiləyərlər.

Fəlsəfələrinin əsaslandığı təməl də budur onsuz. Allahın hər an hər yerdə olduğunu və hər etdiklərini gördüyünü, hər söylədiklərini duyduğunu düşünməzlər. Beləcə özlərinə, əxlaqi degenerasiyanı rahat şəkildə davam etdirə biləcəkləri bir zəmin hazırladıqlarını zənn edərlər.

Bu kəslərin ən əhəmiyyətli səhvlərindən biri də degenerasiyanı, digər mənada müasirliyin göstəricisi sanmalarıdır. Hətta əxlaqi dəyərlərə əhəmiyyət verdiklərində alçalacaqlarına inanır, bu səbəblə olduqca sərhəd tanımayan bir insan imici verməyə çalışırlar. Həqiqətən də, cahil cəmiyyət içində bu yanlış məntiqə tez-tez rast gəlmək olar. Məsələn, yolda pulunu salan birinin arxasından qaçıb, pulunu geri verməyi təklif edən bir adam yanındakı yoldaşları tərəfindən lağ edilə bilər. Bu tip bir vəziyyətdə bəzi insanların arasında əsil qəbul edilən rəftar, pulunu salan adamın arxasından lağ edərək əylənmələri və pulu bir an əvvəl öz mənfəətləri üçün xərcləmələridir.

Bu nümunələri oxuyan bəzi insanlar "mən belə bir şey etmirəm bu səbəblə cahillik sistemindən tamamilə uzaq yaşayıram" şəklində düşünə bilərlər. Halbuki, bunlar cahil cəmiyyətin çirkin əxlaqının və tətbiqlərinin yalnız bir-iki nümunəsidir və cahillik sistemi, özünə tabe olan adamın həyatının hər anında özünü hiss etdirən əhəmiyyətli əxlaq pozuqluqları ehtiva edir. Bu batil anlayış içərisində iffət, namus, dürüstlük kimi anlayışlar da əhəmiyyətini itirər. Saxtakarlıq, yalan söyləmək son dərəcə adi bir hal alır. Belə bir vəziyyətdə Allah qorxusunun gərəyi kimi yaşandığını söyləmək mümkün olmaz. Bu səbəblə, insan etdiyi işlərdə bir səhv görməyəcək və etdiyi hərəkətlərə dözülərək davam edəcək. Əvvəllər yalan söyləməyi qəbahət görməyən bir insan, gedərək qarşısındakı kəsləri aldatmaq, bir başqasının evini, iş yerini soymağı qəbahət görməyəcək. Öz mənfəətini qorumaq üçün bir başqa adama asanlıqla böhtan ata biləcəkdir. Bu sistemdə insanın qarşısındakı bir insana güvənməsi də mümkün olmaz. Qarşısındakı insan da özü kimi asanlıqla yalan söyləyən, öz mənfəəti üçün dostlarını, ailəsini ata bilən bir insan olmuşdur. Bu çirkin əxlaqı yaşayan insanların etdikləri əxlaqsızlıqlara guya bəhanə olaraq qarşıya qoyduqları vəziyyət isə, insanın özünü qorumasıdır. Halbuki, Quranda din əxlaqından uzaq yaşayan insanların, öz əlləri ilə özlərini zərərə salan bir sistem meydana gətirdikləri belə xəbər verilmişdir:

**Şübhəsiz ki, Allah, insanlara heç bir şeylə zülm etməz. Ancaq insanlar, öz nəfslərinə zülm edirlər. (Yunis surəsi, 44)**

Quran əxlaqının yaşandığı mühitlər isə insanlara hər istiqamətdən təhlükəsizlik və hüzur gətirər. Ətraflarındakı hər insan Allahdan qorxduğu üçün Allahın sərhədlərini qoruyur. Nə izdihamda, nə də yalnızkən rəftarlarında bir dəyişiklik olmaz. Allahın qoyduğu sərhədləri qoruduqları üçün, təbii olaraq ətraflarındakı insanların hüquqlarına qarşı da son dərəcə diqqətlidirlər. Dürüstlükdən, səmimiyyətdən heç bir şəkildə güzəştə getməzlər. Bu cür insanlardan ibarət bir cəmiyyətdə heç vaxt qanunsuzluq, həddini aşmaq kimi vəziyyətlər meydana gəlməz. Bütün əxlaqi dəyərlər həqiqi mənasıyla yaşanır.

## Dürüstlük və səmimiyyət əvəzinə mənfəət əlaqələri

Cahillik anlayışının gətirdiyi mənfəətpərəstlik, həqiqi dostluqların yaşanmasına lap əvvəldən mane olar. Çünki dostluq, insanların lazım olduğunda qarşı tərəfin maraqlarını öz maraqlarından üstün tutmasını, zaman-zaman sədaqətli olmasını, qarşı tərəfin hüzuru, rahatlığı üçün əmək sərf etməsini, fədakarlıq göstərməsini tələb edir. Bu tərz bir fədakarlıq isə, cahil cəmiyyətin məntiqiylə tamamilə ziddir. Öz səthi məntiqlərinə görə, dünya keçici, ömür də çox qısa olduğu üçün, heç bir zaman fədakarlıq etməməli, əksinə mənfəət əldə etməlidirlər.

Ancaq qurduqları bu yanlış məntiq hörgüsü sandıqları kimi özlərinə fayda verməz. Tam tərsinə bu sistemin pozuqluğu səbəbiylə bunun çətinliyi yenə özlərinə dönər. Həyatları boyunca səmimiyyətsiz və ikiüzlü bir mühitdə yaşamaq məcburiyyətində qalarlar. Görünüşcə dost olduqları insanlarla əslində müxtəlif mənfəətlərə əsaslanan bir münasibət içərisində olduqlarını bilirlər. Qeyri-adi bir hadisə olduğunda ya da maddi-mənəvi bir yardıma ehtiyac duyduqlarında "dost" bildikləri kəslərin özlərini üzüstə buraxa biləcəklərindən demək olar, heç şübhələri yoxdur. Çünki özləri də eyni mənfəətpərəst anlayış içərisində qarşılarındakı insanlara bu gözlə baxırlar. Bu səbəblə də, həyatları boyunca "həqiqi dostları" olmadığından şikayətlənərlər.

Cahil cəmiyyətlərdə insanların böyük əksəriyyətinin yoldaşlıq əlaqələrinə olan dünyagörüşü belədir: Əgər nəticə adama çox mənfəət qazandıracaqsa, ancaq bu şərtlə fədakarlıq edə bilər, səmimi və dürüst bir dostluğun müvəqqəti bir müddət üçün təqlidini edə bilər. Amma insan gözlədiyini əldə etdikdən sonra bir anda heç çəkinmədən soyuq və məsafəli bir rəftar göstərərək dostluğunu bitirə bilər.

Bu, cahil cəmiyyət arasında çox yaxşı tanınan bir sistemdir və bundan hər kəs zaman-zaman nəsibini aldığı üçün kimsə kimsəni qınamaz və qarşı çıxmaz; hətta bəzən evliliklər ya da ailə içi əlaqələr belə bəhsi keçən maraqlar üzərində qurula bilər. Evlənəcək olan insan, dostluq, hörmət, sevgi, qarşılıqlı güvən kimi anlayışlardan çox, ailəsinə və özünə nə qədər mənfəət təmin edə biləcəyini hesablayaraq yaxınlaşar qarşı tərəfə. Mənfəət əlaqəsini ictimai bir həqiqət olaraq qəbul etdiklərindən, yaxın ətrafları

ilə danışarkən bu həqiqəti dilə gətirirlər. Məsələn, zəngin bir insanla evlənəcək olan insan, "Sonunda onu aldatdım, bağladım" kimi sözlər istifadə edir. Əməllərinə görə öyünər və tutduqları fürsətdən maksimum dərəcədə faydalanmağı qanun bilərlər. Qadınlarına ən gözəl avtomobili, evi aldırır və gələcəklərini zəmanət altına almaq məqsədiylə adlarına mal-mülk salmağa çalışırlar. Bu, əslində hər nə qədər açıq şəkildə qəbul edilməsə də, qarşılıqlı bir alverdən başqa bir şey deyil. Əgər bu münasibətlərində zəngin olan, yəni "aldadılan" tərəf kişidirsə, qadın pul qarşılığında evlənərək özünə sərfəli bir alış-veriş etmiş olur. Eyni şəkildə kişi də özünü aldadılan olmaqdan çox, aldadan olaraq görür. Çünki o da özünə görə müəyyən mənfəətlər güdərək bir müqavilə bağlamışdır; birlikdə olduğu adam əgər zəngin isə zənginliyindən, ətrafı və etibarı varsa, bunlardan istifadə edəcək, gözəldirsə onun gözəlliyiylə öz aləmində öyünəcək. Ya da bunların heç biri olmasa belə bir ömür boyunca özünə baxdıracaq, evini təmizlədəcək, yeməyini hazırladacaq və özünə uşaq doğuzduraraq nəslini davam etdirəcəyi bir imkan yaradacaq.

Bu çirkin məntiq əlbəttə, mənəvi dəyərlərdən, dinin gətirdiyi gözəl əxlaqdan uzaq olmanın doğurduğu bir nəticədir. İnsanları yalnız mənfəət əldə edəcək bir vasitə olaraq görmək, dinsizliyin cahil cəmiyyətlərdə meydana gətirdiyi ən böyük təxribatlarından biridir.

Belə ki, bu yanlış məntiq bir müddət sonra bir çox valideyn tərəfindən ailənin digər fərdlərinə də ötürülür. Bir müddət sonra uşaq da ailəsini özünə baxan, böyüdən, təhsil, iş və evlilik imkanı təmin edən, etibar qazandıran əhəmiyyətli bir qaynaq olaraq görməyə başlayar. Onsuz da valideynləri də onu, yaşlandıqlarında özlərinə baxacaq yaxşı bir investisiya olaraq qiymətləndirər, bu səbəblə də, heç bir fədakarlıqdan çəkinməzlər. Bunlar çox vaxt dilə gətirilməyən amma din əxlaqından uzaq olan cəmiyyətlər içində sıx olaraq yaşanan hadisələrdir.

Göründüyü kimi, cahil cəmiyyətin hər fərdi istisnasız olaraq bu quruluşa əməl edər və mənfəət əldə etmənin yollarını axtarar. Bu sistemin özlərinə qısa zamanda daha çox mənfəət qazandırdığına və olduqca ən ağıllı hesabları etdiklərinə inanarlar. Halbuki, həqiqi mənada səmimiyyəti, dürüstlüyü və dostluğu yaşaya bilməmək, yoldaşları, uşaqları da daxil olmaq üzrə birlikdə olduqları hər insanın özlərinə mənfəət məqsədiylə yaxınlaşdığını bilmək çox böyük bir itkidir. Bu səbəblə, bu insanların dünya həyatında heç bir dost və köməkçiləri olmaz.

Ancaq cahil cəmiyyətin yanlış məntiqinin gətirdiyi zərər bura qədər bitməz. Eyni yalnızlıq sonsuz axirət həyatında da davam edər. Allah bu vəziyyəti əvvəldən xəbər verərək insanları belə bir ziyana qarşı xəbərdar etmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. Öz aranızda Allaha şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz məbudlar isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

Quran əxlaqına uyan insanlar isə hər şeydən əvvəl Allahın dostluğunu və razılığını qazanmış olmaqdan ötrü böyük bir qazanc içərisindədirlər. Bununla yanaşı peyğəmbərlər, mələklər və bütün iman gətirənlər, möminlərin həqiqi və səmimi dostlarıdır və bu dostluqları sonsuz axirət həyatında da ən gözəl şəkliylə davam edəcək:

**Allaha və Onun Elçisinə itaət edənlər Allahın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır. (Nisa surəsi, 69)**

# İNSANIN QİDASI SEVGİ VƏ ŞƏFQƏTDİR, MƏNFƏƏTDƏ HƏQİQİ SEVGİ OLMAZ

**APARICI**: "Sizi nə zaman izləsəm hər mövzuda soruşulan sualları heç çaşmadan cavablandırdığınızı görürəm və sizə olan heyranlığım artır. Elmimi artırmaq üçün həmişə kitablarınızdan və internet saytınızdan faydalanıram. Sizə sualım bu olacaq, 24 yaşındayam dinimə həmişə faydalı olmaq istəyirəm, özümü inkişaf etdirmək istəyirəm, lakin ailəmin tək dərdi məni bir an əvvəl evləndirmək və nəvə sahibi olmaqdır. Buna görə mənə daima təzyiq edirlər, indi sizi ailəvi izləyirik və buradan ailəmə daha ətraflı məlumat verə bilərsinizmi və nə tövsiyə edərsiniz? Təşəkkürlər", Ayşə Numan Rizedən yazır.

**ADNAN OKTAR**: Bəli, mən bəzi ailələri görürəm uşaqlarını belə inkubator kimi görürlər, yəni dərhal evlənsin, dərhal doğsun, dərhal bunu etsin. Bir dəfə o uşağı yetişdirdinmi sən? Ümumi mədəniyyətini, imanını, ağlını, ruhunu və bədənini inkişaf etdirdinmi, yəni ona bir faydan oldumu? Birincisi, onları həll etmək lazımdır, sonra da onu onların qəlbinə buraxmaq lazımdır. Balaca uşağı tanımadığı, bilmədiyi bir insanın qucağına atmaq, nə edirsən et demək olmaz. İnsan mühəndismiş, insan həkimmiş, mövzu bitdi. Iflic olurlar elə bir şey olduğunda, maaşlı və hər hansı bir vəzifəsi varsa, digərləri artıq təfərrüat olur. Üstəlik də maşını, evi varsa insanın əxlaqı çox-çox uzaq bir təfərrüat olur. Saçaqlar alnına düşmüş kimi sanki fövqəladə bir mövzuymuş kimi, olsa nə olar, olmasa nə olar kimisindən. O uşaqlara necə əziyyət edirlər, mən bilirəm, evlənən gənc qızlar çox görürəm, nur kimi, aslan kimi dəbdəbəli və xeyli gözəl, evlənir üç il, dörd il sonra insanlıqdan çıxmış, çökmüş, yaşlı qadın olmuş, belə xala olmuş sanki. Deməli, bir zülm görür bu insanlar, çünki xoşbəxtliyi axtarar qadın, sevinci axtarar, sevgini, şəfqəti mərhəməti axtarar, dostluğu axtarar, qadın çox nazənin varlıqdır. Onun qidası sevgidir, məhəbbətdir, şəfqətdir, təmizlikdir, istirahətdir. Məsələn, qadının idman etməsi çox əhəmiyyətlidir, qidalarına diqqət etməsi çox əhəmiyyətlidir, məsələn kədər qadını çox məhv edər, çox-çox şən olması lazımdır mühitin. Çox həssas varlıqlardır, tez inciyər qadınlar, tez kədərlənərlər. Yəni təfərrüatçı olduqları üçün, çox ağıllı, zəkalı varlıqlardır, incəlik gördükləri üçün çox-çox kədərlənərlər. Çox üzr istəyirəm, mal kimi bir adama verirlər uşağı, al götür deyirlər, tanımaz bilməz. "Salamünaleyküm" deyir, anasıyla atası gəlir, bir əlində çiçək dəstəsi, bir əlində şokolad qutusu, bir az danışırlar, "balam anlat" deyir, bax, nəyin var? Ərazisindən bəhs edir, evindən və s., danışdıqca anasının-atasının gözləri işıldayır, parlamağa başlayır. Məhz "belə malım var, elə malım var" deyir mövzu bitir onsuz da, ikinci gəlişində "al götür, sənindir" deyirlər, mövzu bitmişdir. Ondan sonra o uşağa edilən işgəncə, ona edilən hörmətsizliklər, təhqirlər, nalayiq və həyasız rəftarlar onlar üçün çox təbii bir şey olmuş olur. Yəni hətta özlərini nümunə

göstərirlər, öz evliliklərində də bunların olduğunu söyləyirlər. "Qohumlarından da var, dünyanın halı belədir" deyir, "dünya belədir" deyir.

İnsan biricik uşağına necə qıyar? Biricik deyərkən gənc qız, qız uşağıdır bu, çox diqqətli olmalıdırlar, bir sözlə yəni qarşısındakı insanın onu özlərindən çox daha yaxşı qoruyub mühafizə edəcəyinə və mükəmməl bir əxlaqa sahib olduğuna səmimi inanmaları lazımdır, Allahdan çox qorxduğuna, Allaha tam təslim olduğuna, Allaha xidmət etdiyinə, Allaha özünü həsr etdiyinə səmimi inanmaları lazımdır. (Adnan Oktarın Kral Karadeniz TV reportajından, 6 fevral 2009)

# ALLAHI SEVMƏYƏNİN QƏLBİNDƏN SEVGİ NURU ALINAR

**ADNAN OKTAR:** Allah bizdən Onu sevməyimizi istəyir və Ondan qorxmağımızı istəyir. Əgər Onu sevmirsə və Ondan qorxmursa insan, yəni Allah qorusun özümü o şəkildə nümunə verməyim, hər hansı bir insan deyək, özü Allahı sevmirsə və Allahdan qorxmursa, Allah, onun ürəyindəki sevgi nurunu alar, sevgi gücünü alar. Yəni istədiyi qədər cəhd etsin, nə edirsə etsin, nə sevə, nə də özünü sevdirə bilər. Yəni iki gücü birdən itirər, birtərəfli deyil. Həm sevmə gücünü itirər, həm sevilmə gücünü itirər. Amma mömin Allah qorxusu və Allah sevgisi ilə yaxınlaşdığı üçün, Allah eşqiylə ətrafa baxdığı üçün hər yerdə Allahın təcəllisini görər. Ona görə dərin sevgini çox şiddətli yaşaya bilər. Məsələn, bir uşağa baxdığında, onda Allahın o vildanlarda yaratdığı gözəlliyi görər. Allahın nuru olaraq onu görər. Allahın təcəllisi olaraq görər. Ondan dərin bir zövq alar, ondan bir məmnuniyyət duyar. Ürəyində şəfqət, mərhəmət, qoruma hissləri meydana gələr. Amma bu sevgini ona verən Allahdır. Məsələn, hz. Musa (ə.s) üçün; "Qatımızdan ona bir sevimlilik verdik" deyir Allah. Deməli, insanın özünün sevimli olmasıyla olmur bu. Allahın ona verməsiylə olur. Hz. Yusif (əs)-a Allah, fövqəladə bir gözəllik vermişdir. Amma Allahın yaratması və diləməsiylə olur, çünki əgər insanlar təsirlənəcək olsaydı ilk Yusifi gördükdə təsirlənməli idilər. İlk gördüklərində təsirlənmədilər. Quyuda gördüklərində. "Onu əhəmiyyətsiz gördülər" (Yusif surəsi, 20) deyir Allah ayədə. Amma sonra qadınlar əllərini kəsəcək dərəcədə möhtəşəm təsirlənirlər hz. Yusif (ə.s)-dan. -şeytandan Allaha sığınaram- "Allahı tənzih edirik" deyirlər, "hər halda bu bir mələkdir" (Yusif surəsi, 30) deyirlər, yəni mələk kimi deyirlər. İnanılmaz dərəcədə bəyənirlər. Əgər mömin Allah razılığını daşımırsa, Allahın razılığına yaxınlaşmırsa, ürəyində sevgi olmaz. Məsələn, evlənəcək insanlar olur. Qız deyir ki, çox böyük bir şeylə qarşılaşdım. İlk dəfə həyatında aşiq olduğunu, belə bir insanı heç görmədiyini, sanki hipnoz olduğunu, həyatının insanını tapdığını iddia edir. O yazıq da ona, -əlbəttə insanlarda bəyənilmə arzusu olduğu üçün, yəni qürurunu təmin edəcək bir duyğu olduğu üçün- ona avamca inanır. Səbəbini araşdırmır. "Bu insan məni niyə sevdi?" demir. Maşını olmasaydı görəsən onu sevərdimi, evi olmasaydı görəsən sevərdimi, maaşı o qədər yüksək olmasaydı o qədər sevərdimi, bunu düşünmür. Üzündə məsum bir həyəcanla, yəni onu kəşf etmiş biriylə qarşılaşmış olmanın həyəcanıyla ona inanır. Kəşf edilməsinə təəccüblənir. Daha əvvəl necə başqası onu kəşf edə bilməmiş də, ilk dəfə o onu kəşf etmiş olduğundan təəccüblənir. Halbuki, qadın onun ağılsızlığından ötrü həmçinin ona şüuraltında xüsusi bir nifrət də bəsləyir, yəni onun bunu düşə bilməməsinə. Çünki onu bir ov kimi görür. Toruna düşən bir ov kimi, kiçik bir ağcaqanad kimi görür. O da kiçik bir ağcaqanad kimi orada çapalayır. O, onu yavaş-yavaş toruyla əhatə edir, ondan çox təsirləndiyini, fövqəladə olduğunu, belə birinin dünyada ola bilməyəcəyini filan o yazıq da saf-saf hamısına inanır. Ki bu qarşılıqlı bir əzabdır, yəni ona malıyla təsir etdiyini bildiyi halda şüuraltında, yəni bunun imkanları ilə olduğunu bildiyi halda və getməsi vəziyyətində ondan nifrət edəcəyini bildiyi halda özünü aldadır.

Şüuraltında ona qarşı təbii ki, bir nifrət yaranır. Qadın da ondan avtomatik olaraq diksinər və çox çirkin görər. Amma iradəsini istifadə edən bəzi qadınlar belə hadisələrdə, diksinməsinə baxmayaraq oradakı mənfəəti daha güclü olduğu üçün, çünki pul gələcək, maşın gələcək, geyim gələcək onları daha cazibədar gördüyü üçün, onlardan alacağı zövqü, gücü ondan duyduğu ikrah hissi ilə müqayisədə daha şiddətli olduğu üçün, yəni qarşı tərəfdəki güc, ona dözər. Dözərkən də ona bildirməməyə çalışır əlbəttə ki, o insan. Dözərkən müxtəlif üsulları olur onun. Qarşılıqlı şirin görünmə metodları olur məsələn o, ona çox gözəl bir yemək bişirdiyini və onu gözlədiyini söyləyir, o da ona çox şahanə bir üzük tapdım deyir. Qucaqlaşıb ətraflarında dönürlər belə filmlərdə gördükləri kimi. Ömür boyu poza etmək, ömür boyu təqlid etmək o qədər acıdır ki, bir insan üçün. Yəni bir qadının xoşlanmadığı halda sevir görünüşüylə yaşaması, mənfəət üçün bir kişinin də sevilmədiyini bildiyi halda, sevilir görünüşünə aldanıb, buna inanmadığı halda guya aldanaraq yaşaması və qarşılıqlı sevgi görüntüləri sərgiləmələri və bunu bir aktyor kimi, bir aktrisa kimi tətbiqləri dünyanın ən böyük əzablarındandır və Allahın bu kimi insanlara verdiyi ən böyük bəlalardandır. Halbuki, həqiqi sevgidə insan nə mal axtarar, nə mülk axtarar, nə onu axtarar, nə bunu axtarar. Əgər Allahın təcəllisini onda görürsə, Allahın ağlını onda görürsə, o insandan qadın hipnoz olur, o kişidən. Allah elə bir güc vermişdir, məsələn, hz. Musa (ə.s)-dan fövqəladə təsirlənmişdir Fironun xanımı. O adamdan ayrılıb, hz. Musa (ə.s)-la evlənib çöldə qırx il onunla birlikdə gəzmişdir. Hz. Musa (ə.s)-ın malı yox idi. Ona yalnız əziyyət və çətinlik təqdim etdi. Amma hz. Musa (ə.s)-da Allahın təcəllisini gördü o və bu görə ona qarşı o qədər məhəbbət duydu. Budur, buna ehtiras deyilir. Məsələn, köləsi olan insanın xanımı da boşanıb Peyğəmbərimiz (s.ə.v)-lə evlənmişdir. Çünki onda Allahın nurunu, Allahın gözəlliyini, Allahın təcəllisini görmüşdür. Və daha çoxunu görmüşdür. Yəni öz yoldaşıyla müqayisədə onda çox, çox, çox bir təcəlli, çox sıx bir təcəlli görmüşdür. Allah da deyir ki, ayədə, "Sən insanlardan utanıb bunu ürəyində saxlayırdın, amma Allah bunu bilirdi" (Əhzab surəsi, 37) deyir. "Və Allahın əmri artıq yerinə gəlmişdir" deyir. Allah, o köləsindən o xanımın boşanmasını təmin etmişdir Quran ayəsiylə və Peyğəmbərimiz (s.ə.v)-lə evlənmişdir. Peyğəmbərimiz (s.ə.v) bunu qəbul etməmişdir. Yoldaşına söyləmişdir "sən boşanma, davam et" demişdir. Yəni evliliyiniz davam etsin demişdir. Amma Allah vəhylə bildirdikdə hadisə ortaya çıxmışdır və Allahın əmri mütləq yerinə yetirilmişdir. Bu da bir ehtirasdır məhz, yəni ehtirasın mənbəyi olan Allahın təcəllisinə duyulan ehtirasın bir gərəyi olaraq bunu etmişdir qadın, orada bu gözəlliyi. Bunun bir çox nümunəsini tarixdə biz gördük. Yəni digər peyğəmbərlər də vardır bu. Bizim Peyğəmbərimiz (s.ə.v)-də də vardır. Allah rizası üçün sevmək tam fərqli bir şeydir. Çox dərin bir zövqdür. İnsanın içində xüsusi bir güc vardır. Yəni altıncı bir hiss kimi bir hiss. Nə görməyə bənzəyər, nə eşitməyə bənzəyər, nə duymağa bənzəyər, yəni təsvir edilə bilməyəcək şiddətdə dərin bir zövq. Dərin bir güc. Buna biz ehtiras deyirik. İnsanlar ehtirasın və eşqin təqlidini edir küçədə. Mən eşidirəm məsələn, televiziyalarda. Aşiq olduğunu söyləyir. Nəyə görə aşiq olduğunu soruşduğumda,

"məsələn işi olmasa, pulu olmasa davam edərmi?" deyirəm, boşanacağını söyləyir. Demək ki, eşqlə əlaqəsi yoxdur.

Bəli, müşrik kişilər müşrik qadınlarla, münafiq kişilər münafiq qadınlarla, müsəlman qadınlar da müsəlman kişilərlə. Çünki münafiqlərin onsuz da ruhu qapqaranlıq olur. Qadınların da ruhu qapqaranlıq olur. İki qaranlıq birləşib qapqara bir qaranlıq meydana gətirir. O bundan nifrət edir, bu da ondan nifrət edir. O bundan diksinir, o da bundan diksinir. Hətta bunların diksintilərinin şiddətindən ötrü, bilirsiniz təsirlənmək üçün bunlar bir çox həll yolu axtararlar. Yəni necə olsa da sevsə görəsən? Necə etsə də ondan xoşlansa deyə həll yolu axtararlar. Lakin o diksintilərini, nifrətlərini heç cür aradan qaldıra bilməzlər. Amma möminlərdə də çox şiddətli bir məhəbbət vardır. İnsanlar da onun hikmətini bəzən anlaya bilməzlər. Onu yaşamayan insanlar onu anlaya bilməzlər. Halbuki, bu insanlar 6-cı duyğunu yaşayırlar. Yəni onların bilmədiyi bir möcüzə meydana gəlir. Ehtiras bir möcüzədir. Yəni dərin bir zövqdür. Bir qismi ehtirasını təqlidlə izah edir. Çox sevirəm deyir. Yaxşı, o zaman bir-birini təhqir edirsən, təzyiq göstərirsən, alçaldırsan, üzürsən, maddi mənfəətinlə zidd olduğunda anında atırsan. Öz nəfsinlə zidd düşdüyündə anında uzaqlaşırsan. O zaman onun adı ehtiras deyil. Demək ki, sən dinlərdən, haqq dinlərdən gələn ehtiras sözünü eşitmisən. Yaxşı bir şey olduğunu şüuraltında bilirsən, onu axtarır, lakin tapmırsan. Küfr də elə onu bilir şüuraltında, lakin yaşaya bilməz. Mömin bunu şüuraltında bilir və ən əhəmiyyətlisi yaşayar, Allah ona yaşadar. Yəni bu xüsusi duyğunu və xüsusi sistemi Allah onda yaradar. Məsələn, ehtirası təsvir et desəniz bir möminə təsvir edə bilməz, amma şiddətli bir zövq olaraq yaşayar. Və ehtiras insanın yaşlanmasıyla müsəlmanın üzərindən getməz. O tip insanlarda xəstəliklə gedər ehtiras dediyi şey. Məsələn, qızın çox bəyəndiyini söylədiyi bir cavan olur, uşaq hər hansı bir xəstəlik keçirir, əlinin, üzünün şəkli bir az dəyişir, bir anda ehtiras uçur, gedir. Eşq bitir. O nə deməkdir? Deməli, ehtirasın saxta, çox pis bir təqlidinin içərisinə girmişdir, onu təqlid etmiş və həqiqi ehtirası bilmir deməkdir. Halbuki, insan həqiqətən ehtiras ilə sevirsə məsələn, əli-üzü yansa da sevdiyinin, onu daha da çox sevər və daha da dərin bir şəfqətlə ona qarşı məhəbbət duyar, çünki onun cənnətdəki həqiqi üzünün nə qədər mükəmməl olacağını bilir və sonsuza qədər onunla yaşayacağını da bilir. Saxta sevgilərdə on il, on beş il, beş il, üç il, bəzən bir neçə aydır ehtiras, amma həqiqi ehtirasda sonsuza qədərdir. Çünki Allahı sevirsən, Allahın təcəllisi olaraq sevirsən, sonsuza qədər Allahın elə təcəlli edəcəyini bilirsən inşaAllah ümid edərsən, ona görə dərin bir sevgi ilə sevib sonsuza qədər birlikdə olma istəyi ilə bağlanırsan, bu sarsılmaz bir sevgidir. Yoxsa o biri cür rahat şəkildə ölüb gedəcəyini, yox olacağını bildiyi bir varlığa hələ ki, təkamüllə meydana gəldiyinə inanırsa, bir meymun növü olduğuna inanırsa, elə bir insanın eşqdən ehtirasdan bəhs etməsinin nə qədər süni olacağını uşaq da bilər. (Adnan Oktarın Tempo TV reportajından, 28 yanvar 2009)

# ALLAHIN QOYDUĞU ÖLÇÜLƏRƏ TABE OLMAQ VƏ ALLAH SEVGİSİNİ AXTARMAQ

**ADNAN OKTAR:** Mənim çox hadisədə gördüyüm budur, bəzi qadınlar avtomobilin nişanını ilk gördüyündə şiddətli eşqi hiss etməyə başlayır. Avtomobil, marka və çox bahalı bir maşınsa o eşqin həyəcanı bir dəfə daha artır, üstündəki paltarlar də əgər bahalıysa şəxsin, bir də yaxşı bir məktəbdən məzundursa, atası da zəngindirsə artıq o eşq onun gözünü çevirir, şiddətli bir ehtirasa çevrilir, artıq əli ayağı boşalır, hər şeyini verəcək hala gəlir elə tiplər, mən eşidirəm. Sonra bir gün deyir ki, şəxs, "atam iflas etdi və normal olaraq iqtisadi böhran səbəbindən mən də iflas etdim" deyir. Qadının başında bir işıq sönür sanki beyninin içərisində, o eşq bir anda itir, nifrət etdiyi bir məxluq qalır geridə, yəni böyük bir ikrah və nifrətə çevrilir. Məhz bu, Allahın bu insana verdiyi bir cəzadır, çox böyük bir rüsvayçılıqdır halbuki, Allah rizası üçün sevmiş olsa onun fabriki da getsə, iş də getsə, gəlsə də heç fərq etməz. Gəlirsə Allahın bir neməti olaraq görür, gedərsə də Allahdan bir xeyir olaraq görür, heç bir şəkildə təsir etmir. Amma, uşaq kiçik yaşda yanlış öyrədilir. Məhz mən bəzən analar görürəm, nə qədər həkimlər, mühəndislər qızını istəmiş də, verməmiş, yəni insan utanır bu sözü söyləyərkən. Niyə demirsən necə təqvalı insanlar istədi, necə dindar insanlar, gözəl əxlaqlı, çox ağıllı insanlar istədi də vermədim desə, yenə hardasa bir məntiq ola bilər, amma yenə bu da anormal olur, çünki ağıllı bir insan görsən verərsən onsuz da qızını, amma həkim və mühəndis, nə hikmətsə belə yaxşı pul gətirənlərdən bəhs edərək bunu da iftixarla izah edirlər eşidənlər, bir çox kişi təqdir edir "nə qədər gözəl danışdı" deyir. Halbuki, burada çox böyük bir alçaldılma var və çox çirkin bir ifadədir bu. O gənc qızı da, uşağı da kölə yerinə qoymaqdır bu və doğru olmayan izahdır. Gənc qızlar həmişə elə öyrədildikləri üçün, uşaqların əksəriyyəti həmişə belə zəngin birisini axtarma meylində olurlar. Şəxsiyyətsiz olması, psixopat olması onları heç maraqlandırmır. Məsələn, o uşaqları döyürlər, söyürlər, alçaldırlar, ailələri deyir ki; "Balam, sənin yoldaşındır təbii ki, döyəcək" deyir, "çox normaldır" deyir. Kişi qovur küçəyə atır, göndərir geri, ailəsi də alıb sevinc içində geri gətirirlər, ya qüsura baxma oldu bir dəfə filan deyə, belə çox acı bir çıxılmaz vəziyyət, belə bir rəzalət, bir çox yerdə özünü göstərər. Nə qədər zavallı qadınlar faciəvi şəkildə əzilirlər, nifrət edib diksinmələrinə baxmayaraq ailələrinin təlqinləri ilə, ətraf mühitin təlqinəri ilə o məxluqlara dözürlər, yəni iyrəndiyi və diksindiyi halda məhz "sənin yoldaşındır, uşağım" deyir, "dözmək lazımdır" deyir, "çox normal" deyir, "filankəs də buna dözür, nə var bunda" deyir hətta özündən nümunə verir. "Sənin atan da elədir" deyir, ona da dözdüyünü söyləyir, yəni uşaqlar belə yanlış bir təhsildən keçirilir bir qismi. Bunlar doğru deyil, həqiqi Allah sevgisi Allah üçün olan sevgi qadının ruhuna bir atəş kimi təsir edər, qorxunc zövq verir, çox gözəldir qadın üçün, kişi üçün də şiddətli yandırıcı təsiri olan çox dərin bir duyğudur, böyük bir zövqdür, bu zövqü almaq əvəzinə materializmin içərisinə girib o əzabın, o kirin içərisində sanki boğuşurlar. İyrəndiyi bir insanla daim birlikdə olmaq vəziyyətində qalır və ömür boyu

bu əziyyəti çəkirlər. Çünki əxlaqından nifrət edir, şəxsiyyətindən nifrət edir, həmişə yalan söyləyir, davamlı tərs danışır, qadının qürurunu qırır, sevgisizliyi açıq-aydın müəyyən olur əlindən, üzündən, onun bütün sevgisi malında, mülkündə olur. Qürurlu və eqoist olur və qadının dəyərini bilmir. Nə qədər belə gözəl qadın bu şəkildə heç olur bütün ömürləri və çökürlər. Mən belə bir çox gözəl qadın gördüm təəssüf, yəni illər sonra görürəm, əli-üzü qırış-qırış olmuş, pərişan olmuş sanki insanlıqdan çıxmış, məhv olmuş, bütün gəncliyi o şəkildə keçib gedir. Ruhundakı o cövhər də gedir, ruhundakı o dərinlik də məhv olur, çox yazıq olur. Onun üçün ən gözəl ölçü Allahın qoyduğu ölçüyə tabe olub həqiqi eşqi axtarmaq, Allahın o gözəl təcəllisini axtarmaq, çox səmimi olmaq, çox dürüst olmaq, Allahdan çox qorxmaq və Allahı çox sevməkdir. Bunun meydana gətirəcəyi dərin zövqün, təəccüblü və çox sarsıdıcı olan zövqün, Allahdan bir nemət olaraq möminə təqdim edildiyi də bilinməlidir. Sırf müsəlmanlara xasdır, Allahdan həqiqətən qorxanlara xas belə dərin bir möcüzə vardır. Bunu çox-çox az insan bilir, yəni bilmədikləri üçün bu bəlanın içində yaşayırlar. Bilsələr bəlkə onlara dünyaları versələr, yenə getməyəcək o insanlar. Həqiqi imanla sevmənin nə qədər zövqlü və gözəl olduğunu bilsələr onların nə fabrik gözündə olar, nə o pul, nə avtomobil, nə başqa bir şey, amma fərqində deyildirlər. (Cənab Adnan Oktarın 3 fevral 2009 Tarixli Tempo TV reportajından)

# EVLİLİK SAF SEVGİ ÜSTÜNDƏ QURULMALIDIR

**ADNAN OKTAR:** ... Evlilik saf sevgi üstünə olur. Allahın təcəllisi olaraq o insanı sevərsən. Və bütün məqsədin Allahın verdiyi o əmanəti, yoldaşın olaraq, hətta bir növ bacısı kimi görərək, hətta bir uşağı kimi görərək, övladı kimi görərək o əmanəti qoruyub-saxlamaq və onu dünya şərtlərində ən yaxşı şəkildə yaşatmaqdır.

Saf sevgiyə əsaslanması lazımdır. Allahın təcəllisi niyyətiylə baxmaq lazımdır. İnsan ehtirası yaşamaq üçün evlənər. Allahın verdiyi o gözəl hissi, dərinlik hissini yaşamaq üçün və Allaha birlikdə gözəl qulluq edə bilmək üçün, Allahın razılığını qazanmaq üçün insanlar evlənirlər. Allahın təcəllisi niyyətiylə insan sevilir. Başqa cür çox qəribə və çox çətin bir çəkindiriciliyi var, yəni çox çətin çəkindiriciliyi. Allah qorusun. (Cənab Adnan Oktarın 2 fevral 2009 tarixli Ekin TV reportajından)

## Yaşadıqları mühitlərin təmiz olmaması

Cahil cəmiyyətin insanlarının yalnız həyatda qalmağı hədəfləyən səthi həyat anlayışları, onları təmizlikdən uzaq bir həyat tərzinə doğru sürükləyər. Bu anlayışın əsasında duran səbəblərdən biri, çox qısa davam etdiyini bildikləri dünya həyatını tələm-tələsik yaşayaraq zaman qazanma və dünyanın imkanlarından bir az daha çox faydalanma istəyidir. "Həyatın dadını çıxarmaq", "gününü gün etmək" kimi xəyali anlayışlarla ifadə edilən bu istək, cahil cəmiyyətdə qondarma "müasir həyat forması" olaraq adlandırılaraq təşviq edilir.

Bununla yanaşı, insanların özlərindən başqa kimsəyə həqiqi mənada dəyər verməmələri, hörmət və sevgi bəsləməmələri belə bir həyat şəklini də özü ilə gətirir. Məsələn, insanların bir-birlərinə hörmətlərini itirdiyi evliliklərdə bu vəziyyət açıq şəkildə görülür. Hər iki tərəf də evləndikdən dərhal sonra, evlilikdən əvvəl təhlükəli gördüyü bir çox rəftarı tətbiq etməyə heç bir tərəddüd hiss etməz. Axşama qədər yuyunmamış çirkli bir üzlə, çirkli bir ağızla və baxımsız bir bədənlə, pijamalarla gəzmək, bütün gün dağınıq qalan yataqları, qab-qacaq dolu mətbəx dəzgahlarını adi qarşılamaq, həmişə bu pis məntiqin məhsullarıdır.

Halbuki, bu məntiq insanlara qarışıqlıq, nizamsızlıq və çətinlikdən başqa bir şey gətirməz. Bu səhv məntiqi mənimsəyib yaşayan insanlar, insanı insan edən bütün xüsusiyyətləri bir kənara buraxar və vaxt itirməmə adı altında insani dəyərlərdən kənarlaşdırılaraq yaşamağa çalışırlar. Yalnız idarə edəcək və sistemi davam etdirəcək qədər bir tətbiq edər, gerisini isə boş verərlər.

Misal olaraq, təmizliyi yalnız xaricdən baxıldığında pisliyin fərq edilməyəcəyi qədər səthi edərlər. Bəzi insanlar vanna qəbul etməyi, çirklənən geyimlərini, dəsmallarını, çarşablarını dəyişdirməyi, ütüləməyi ya da ortalığı toplamağı bir vaxt

itkisi olaraq görür və diqqətə çarpan bir kir meydana gəlmədikcə təmizləməzlər. Kirləndiklərində çox zaman, xüsusilə də soyuq havalarda, yuyunmağa tənbəllik edərək yalnız saçlarını yumaqla kifayətlənərlər. Bəzi qadınların bunun üçün tapdıqları bir başqa üsul da, bərbərə gedərək tələm-tələsik saçlarını yumaq və uyğun bir şəklə salmaqdır. Bu saç modeli pozulana qədər də bir daha yuyunmağa ehtiyac duymazlar. Çirklənən bədənlərini, vurduqları bir ətir və ya dezodorantla kamuflyaj etməyə çalışırlar, amma bu üsul, çirkli bədənlərini çox daha narahatedici bir hala gətirməkdən başqa bir işə yaramaz. Paltar olaraq əhəmiyyət verdikləri təmizlik şəkli isə, yalnız xarici paltarlarının görünüşüdür. Jaketlərində, şalvarlarında ya da paltolarında ciddi bir ləkə meydana gəlmədiyi müddətcə yumazlar. Bunun xaricində siqaret, iş, yemək kimi ağır qoxuların üzərlərinə sinmiş olmasında bir qəbahət görməz və bunu təmizlənmək üçün kafi bir səbəb olaraq düşünməzlər.

Bu cahilcə "təmizlik anlayışı" xüsusilə bəzi gənclərdə daha diqqətə çarpan bir şəkildə özünü göstərir. Ən gözəl gördükləri paltarlardan biri cırıq və köhnəlmiş cins geyimlərdir. Dərbədərlik anlayışını çox yaxşı əks etdirən bu paltarların çirkliliyi isə özlərinə ayrı bir "hava" ünsürüdür. Məsələn, universitetlərdə, diskolarda ya da məhəllə aralarında, səkilərdə, pilləkənlərdə oturmaq, yağlı buterbrod ardından əl-üzü yumamaq, çirkdən qaralmış dəri paltolarla, rəngini itirmiş kürək çantalarıyla, palçıqlı postallarla (əsgərlərin geyimi) gəzmək cahillik anlayışında moda olacaq qədər qəbul edilən bir həyat şəklidir. Şkafların təmizlənməsi, toplanması kimi bir vərdişdən söz gedə bilməz. Çirkli paltarlar, təmiz paltarların olduğu şkaflara yumalanaraq atılır və bir şey axtarıldığında, bu qarışıq yumaq içində tapılmağa çalışılar. Həftədə bir təmizliyə gələn yardım xaricində evdə hər hansı bir iş edilməz. Yeməklər belə qab-qacaq çıxmasının qarşısını almaq üçün "fast food" adıyla ifadə etdikləri hazır qidalardan və asanlıqla zibilə atıla biləcək qutu içkilərdən ibarətdir.

"Müasirlik" adı altında təqlid edilmək istənən bu pis anlayış və həyat forması, özünü "aydın-intellektual" olaraq təqdim etməyə çalışan cəmiyyət seqmenti içindəki bəzi kəslərdə də olduqca geniş yayılmışdır. Bəhsi keçən kəslər, aydın olmanın sirrini çirkli saqqallarda, baxımsız yağlı saçlarda, yırtıq paltarlar, olduqca dağınıq, siqaret qoxusundan və tüstüsündən keçilməyən qarışıq mühitlərdə gizləndiyinə inanırlar. Havalı və təmiz mühitlərdə, tərtibli və nizamlı məkanlarda, baxımlı bir görünüşlə, ütülü və təmiz paltarlarla yaşamanın peşələriylə uyğun gəlməyəcəyini, yaraşıqlıqlarını yox edəcəyini düşünürlər.

Belə sağlam olmayan şərtlərdə dərbədər bir həyat sürmək, bu məntiqi mənimsəyən gənc, yaşlı hər insana zərərdən başqa bir şey qazandırmaz. Sağlam olmayan qidalanmaqdan və pislikdən ötrü xəstəlikdən qurtulmazlar. Siqaret tüstüsüylə örtülü mühitlərdə yaşamaqdan rəngləri saralar, dəriləri solar, ciyərləri zərər görər. Bunlar yalnız bədənlərində gördükləri zərərlərdir. Bununla yanaşı həmişə dağınıq və pis mühitlərdə, özləri kimi baxımsız və çirkli insanlarla iç-içə yaşamaq məcburiyyətində olmaları ruh sağlamlıqlarına da mənfi istiqamətdə təsir edər. Zamanla gözəllikdən, estetikadan, təmizlikdən, incə düşüncədən zövq almayan laqeyd

və reaksiyasız bir quruluşa bürünərlər. Bu vəziyyət əlbəttə ki, bilərək və istəyərək etdikləri ağılsız seçimin nəticəsidir.

Cahil insanların yaşamadıqları Quran əxlaqı isə müsəlmanları, ən gözəl və ən təmiz mühitləri hazırlamaları üçün təşviq edər. Allah inananlara yeməklərindən, paltarlarından, yaşadıqları mühitlərə qədər hər şeylərində mütləq təmizliyi layiq görmüş və əmr etmişdir:

**Libasını təmizlə. Pislikdən qaçıb uzaqlaş. (Muddəssir surəsi, 4-5)**

**Ey insanlar, yer üzündə olan şeyləri təmiz və halal olaraq yeyin ... (Bəqərə surəsi, 168)**

**Səndən nəyin halal edildiyini soruşurlar. De ki: "Bütün pak nemətlər sizə halal edildi." ... (Maidə surəsi, 4)**

**... O (Peyğəmbər), onlara marufu (yaxşılığı) əmr edir, münkəri (pisliyi) qadağan edir, təmiz şeyləri halal, murdar (pis) şeyləri haram edir ... (Əraf surəsi, 157)**

**Biz evi (Kəbəni) insanlar üçün ziyarət və əmin-amanlıq yeri etdik. "İbrahimin dayandığı yeri namazgah edin!" Biz İbrahimə və İsmailə: "Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!" - dedik. (Bəqərə surəsi, 125)**

**... Dedilər ki: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir; indi birinizi bu gümüş pulunuzla şəhərə göndərin ki, hansı yemək təmizsə baxsın, ondan sizə ruzi gətirsin ... (Kəhf surəsi, 19)**

**Öz dərgahımızdan ona (Yəhya) bir sevgi həssaslığı və təmizlik (də verdik). O, müttəqi idi. (Məryəm surəsi, 13)**

Cahil insanların müasirlik adı altında meydana gətirdiyi dərbədər həyat tərzi, öz əlləri ilə özlərinə narahat və sağlam olmayan mühitlər hazırlayarkən, müsəlmanlar Quran əxlaqına uyaraq, dünyada da çox keyfiyyətli, nəcib, təmiz və yaxşı bir həyat yaşayarlar.

# Cahil cəmiyyətin əxlaqsızlığı

Cahil cəmiyyətində din əxlaqının yaşanmaması nəticəsində ortaya çıxan ortaq bir xarakter quruluşu vardır. Bu xarakterin xüsusiyyətləri, insanlara görə müxtəliflik göstərməklə birlikdə, təməldə eynidir. Çünki cahillik xarakterini yaşamalarının əsil səbəbi, bu insanların Allaha və axirətə həqiqi mənada iman etməmələridir.

Allaha iman etməyən, buna görə də Allahdan qorxmayan və hesab verəcəyini düşünməyən bir insanın gözəl əxlaq göstərməsini gözləmək isə mənasızdır. Çünki bu insanlar, ağıllarından keçən bir düşüncəni Allahın bilmədiyini, gizlicə etdikləri bir rəftarı Allahın görmədiyini zənn edirlər.

Bu hissədə, cahil cəmiyyətin səthi həyat tərzinin fərdlərinə qazandırdığı çirkin əxlaqı və onun təfərrüatlarını araşdıracağıq. Ancaq bu təfərrüatlara keçmədən əvvəl bunu ifadə etməkdə fayda vardır: Burada bəhs ediləcək xüsusiyyətlər, hər insanın nəfsində yaradılışdan var olan xüsusiyyətlərdir. Allah, bu pis xüsusiyyətlərin sınaq məqsədilə insanların nəfslərinə yaradılışdan verilmiş olduğunu Quranda xəbər verir:

**Ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 8-10)**

Yalnız inanan kəslər Allahın imtahanı olduğunu bildikləri üçün, nəfslərinin pis istiqamətdəki əmrlərinə tabe olmaqdan şiddətlə çəkinərlər. Nəfslərini pisliklərdən təmizləyərlər.

Cahil cəmiyyətin fərdləri isə, etdikləri rəftarların axirətdə ən kiçik incəliyinə qədər qarşılarına çıxacağını düşünmədikləri üçün, nəfslərinin xoş göstərdiyi pis rəftar və xüsusiyyətlərdən çəkinmək, bunun yerinə Allah Qatında məqbul olan gözəl rəftarları sərgiləmək üçün öz zəif ağıllarına görə bir səbəb görməzlər.

İfadə edilməli olan ikinci nöqtə isə budur; aşağıda sayılan xüsusiyyətlərdən müxtəlif səbəblərlə özlərini təmizləmiş cahil cəmiyyətin insanları da ola bilər. Bu insanların bir qismi ətrafda olduqca müsbət xüsusiyyətlər də daşıya bilərlər. Müxtəlif mənfəətlər və ya başqa səbəblərlə bəhsi keçən kəslər cahillik əxlaqının hər rəftarını tətbiq etməyə bilərlər. Ancaq burada əhəmiyyətli olan bunu etmələrinə maneə törədənin, Allah qorxusu olmadığıdır. Çünki Allah qorxusu olmayan bir insan, maraqlarına zidd düşdüyü anda və ya özünə daha yaxşı bir mənfəət əldə edəcəyini düşündüyündə anidən rəftarını dəyişdirə bilər. İncə düşüncəli, əliaçıq bir insan birdən-birə son dərəcə kobud və xəsis bir quruluş göstərə bilər. Allah qorxusu olmadığı və Onun sərhədlərini tanımadığı üçün, nəfsinin əmr etdiyi hər cür əxlaqsızlığı tətbiq edə bilər.

Xülasə, cahiliyyə cəmiyyətinin bütün üzvlərində bu hissədə sıralayacağımız xüsusiyyətlərin hamısı görülməyə bilər. Amma Allah qorxusunun güclü olmaması səbəbiylə bu kəslər Allahın razılığını deyil, əksərən nəfslərinin istəklərini yerinə yetirmək istəyirlər. Nəfsləri onlara necə bir əxlaq göstərmələrini əmr edərsə, elə davranarlar. Bu, gündən-günə dəyişiklik göstərə bildiyi kimi, təməldə cahillik əxlaq xüsusiyyətlərini ehtiva edir. İnsan bir gün asanlıqla yalan söyləyərkən, bir gün qısqanc, bir gün pessimist, bir gün də üsyankar ola bilər. Bu səbəblə, insanın əxlaqını Allah qorxusu və Onun məmnuniyyətinə görə şəkilləndirməsi lazımdır. Əgər bu şəkildə olarsa, sağlam bir xarakter və vicdanlı davranışlar sərgilənər. Quranı və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini rəhbər edən bir kimsə üçün, cahillik əxlaq xüsusiyyətlərini göstərməsi mümkün olmaz.

Bu hissədə, bəzilərində az, bəzilərində çox görülən cahil cəmiyyətə aid bu pis əxlaqın bəzi istiqamətlərini araşdıracağıq.

## Tənbəllik

Tənbəllik insanların çoxunun olduqca dar mənada qiymətləndirdikləri və bu səbəblə də çox vaxt öz üzərlərinə almadıqları bir mövzudur. Tənbəl xüsusiyyəti, yalnız, cəmiyyətin əksəriyyətinə nisbətən, üzərinə düşən məsuliyyətləri yerinə yetirməkdə daha zəif davranan insanlara yaraşdırılır. Ancaq burada nəzərdə tutduğumuz tənbəllik, cahil cəmiyyətin əksəriyyətində əks olunmuş və maddi-mənəvi mənfi nəticələrə gətirib çıxaran əhəmiyyətli bir davranış pozuqluğudur.

Bu davranış pozuqluğunun, insan üzərində meydana gətirdiyi ən böyük təxribatlardan biri əvvəlcə insanları düşüncə tənbəlliyinə sürükləməsidir. Halbuki insanı insan edən, ona insani xüsusiyyətlər qazandıran ən əsas xüsusiyyət, düşünə bilməsidir. Bu qabiliyyətin istifadə edilməməsi, bir mənada adamı mexanikləşdirər və ağlını tamamilə sıradan çıxardar. Bu nöqtədən sonra insanın tək edə bildiyi özünə öyrədilmiş qaydalar istiqamətində sabit bir həyat sürməkdir. Bir yenilik etmək ya da həyatına bir gözəllik qazandırmaq, bu kəs üçün demək olar, qeyri-mümkün kimidir. Vicdan və iradədən istifadə edib bunun üçün çalışmaqdansa, öyrəşdiyi sistemi heç düşünmədən tətbiq etmək, bəhsi keçən tənbəllik anlayışına çox daha uyğun gəlir.

Tənbəlliyin vicdan, ağıl və iradə üzərindəki bu təsiri, həyatın hər mərhələsində müxtəlif modellərlə özünü göstərir. Düşünməyə tənbəllik edən kəslər, əvvəlcə niyə və necə var olduqları və hansı məqsəd üçün yaşadıqları kimi həyati suallara heç bir zaman cavab axtarmazlar. Bunların əhəmiyyətli mövzular olduğunu qəbul etməklə birlikdə, bəzilərinin özləri üçün düşünüb qiymətləndirməsini seçərlər. Bu elə bir hal alır ki, insan bir mənada fərqində olmadan maddi-mənəvi bütün varlığını təhlükə altına atacaq qədər tənbəl ruh halı içərisinə girər.

Məsələn, mal və can təhlükəsizliyi üçün tədbir almalı olarkən, hadisələri axışına buraxar. Ya da sağlamlığını qorumaq üçün lazımlı olan diqqəti göstərməyə,

xəstələndiyində həkimə getməyə və hətta həkimin verdiyi müalicəni tətbiq etməyə belə ərinəcək hala gəlir.

Əylənməyə, gülməyə, sevinməyə ərinir, bunun yerinə yalnız əylənən insanları seyr edərək kifayətlənər. Ağlını istifadə edib özünə hüzur və rahatlıq təmin edəcək bir mühit meydana gətirmə imkanı varkən, sırf ərindiyindən çətinlik içərisində yaşamağı seçər.

Sağlam və ləzzətli yeməklərlə qidalana bilərkən, bu ruh onu hazır ya da sağlam olmayan yeməklərə yönəldər. Oxumağa, məlumatını, davranışını və mədəniyyətini artırmağa ərinər; bu səbəblə də, həyatı boyunca hər mövzuda klassik bir anlayış içərisində yaşayır. Pul qazanmaq istəyər, amma bunun üçün səy göstərməz ya da ağlını istifadə etmək yerinə qeyri-qanuni yollarla hazır pul əldə etmək daha asan gələr. Daha da ciddi bir çətinliklə qarşılaşacaq olursa, bununla mübarizə etmək yerinə intihar etməyi daha asan və zəhmətsiz üsul olaraq görür. Buna bənzər nümunələr olduqca çoxdur, ancaq burada diqqəti çəkən ən əhəmiyyətli ölçü, mövzu hər nə olursa olsun "ən az əmək ilə həyatda qalmağı bacara bilməyin" hədəflənmiş olmasıdır.

"Ən az əmək sərf etmənin" ən asan yollarından biri isə, mövcud olan sistemi ən yaxşı şəkildə "təqlid etmək" dir. Bu vəziyyət cahillik əxlaqının yaşandığı bir çox cəmiyyətdə yalnız fərdi səviyyədə deyil, eyni zamanda ictimai səviyyədə də köklü bir sistemə çevrilmişdir. Belə ki, bir ölkədə hər hansı bir şəkildə şöhrət qazanmış hər hansı bir şey digər ölkələrdə heç vaxt itirmədən təqlid edilir. Mahnılar, reklamlar, filmlər, təbliğat üsulları həmişə başqalarından görüldüyü şəkli ilə tətbiq edilir. Buradakı təməl məntiq, hər hansı bir yenilik gətirməyə olan qapalılıq, tənbəllikdir.

Göründüyü kimi, tənbəllik cahil cəmiyyəti əhatə edən köklü davranış pozğunluqlarından biridir və insanları, zərərinin özlərinə döndüyü bir sistem içərisində yaşamaq vəziyyətində buraxar. Ancaq bunu da vurğulamaq lazımdır ki, bu, cahil cəmiyyətdə qınanan ya da bilinməyən bir quruluş deyil, əksinə olduqca mənimsənmiş və həyatın təbii axışı olaraq qəbul edilmiş bir sistemdir. Bu sistemi yaşayan insanlar uğradıqları zərərin və yaşamadıqları gözəlliklərin əskikliyinin fərqində belə deyillər. Bu səbəblə də, bu vəziyyəti dəyişdirmək məqsədi ilə səy göstərmək üçün bir səbəb tapmazlar.

Quran əxlaqı tam olaraq tətbiq edildiyində cahil cəmiyyətə aid bütün bu xüsusiyyətlər ortadan qalxar. İnsanı hərəkətə keçirən, Allaha və axirətə olan inancıdır. Bu da onu həm dünyaya, həm də axirətə istiqamətli ciddi bir səy içərisinə salar. Belə bir insan üçün dünyada itiriləcək vaxt yoxdur. Keçən hər an ona Allahın razılığını və sonsuz axirət həyatını qazana bilmək üçün verilmiş bir fürsətdir. Əhəmiyyətli və böyük bir hədəfi vardır. Bu səbəblə, sabit bir quruluş deyil, əksinə hərəkətli, çalışqan və məhsuldar bir xarakter ortaya qoyar. Çünki Allah gərgin zəhmətdən məmnun olacağını Quranda xəbər vermişdir:

**Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 21)**

**Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 19)**

**İşlərini qurtaran kimi Allah yolunda çalış!" (İnşirah surəsi, 7)**

## Qısqanclıq

Cahillik əxlaqının təməl xüsusiyyətlərindən biri də qısqanclıqdır. Axirətin varlığına inanmayan bir insan, dünya həyatına böyük bir ehtirasla sarılır. Özünə görə dünyanın önünə sərdiyi imkanlardan ən yüksək səviyyədə istifadə etmək və nəfsinin sərhədsiz ehtiraslarını təmin etmək istəyər. Bu ehtiras elə şiddətlidir ki, insan dünyaya bağlı hər mövzuda həmişə ən üstün və ən müvəffəqiyyətli mövqedə olmaq istəyər. Buna görə də, ətrafındakı hər kəsi özü üçün bir rəqib olaraq görür. Bir insanın müvəffəqiyyətli olmaq istəməsi və bunun üçün səy etməsi son dərəcə təbiidir, ancaq cahilliyin müvəffəqiyyətli olma ehtirası zalımlıq, mərhəmətsizlik, eqoizm kimi çox sayda pis əxlaq xüsusiyyətini də özündə daşıyan çirkin bir ehtirasdır. Yoxsa, bir insan müvəffəqiyyətli olmaq, keyfiyyətli və gözəl bir həyat yaşamağı istəyə bilər və bunun üçün haqq və qanuni sərhədlər içində əlindən gələn səyi də göstərər. Ancaq saleh bir mömin bunu edərkən heç bir zaman, özünü zəngin edəcək olanın da, imkanlarını istədiyi təqdirdə alacaq olanın da Allah olduğunu və hər nə olursa olsun bunun özü üçün ən xeyirlisi olduğunu heç bir zaman unutmaz.

Cahillik əxlaqının çirkin istiqamətlərindən biri olan qısqanclığın təməlini meydana gətirən mərhəmətsiz rəqabət duyğusu isə demək olar ki, doğulduğu andan etibarən bir mənada insanın bütün həyatını formalaşdırır. Yaşadığı rəqabət mühitinin qaydalarını ən yaxşı şəkildə öyrənər və tətbiq etməyə başlayar. Bir müddət sonra, başqalarının özündən daha üstün olmasını qəbul edə bilmədiyi kimi, qarşısındakı insanların az da olsa bir yaxşılıq ya da gözəlliyə sahib olmasını da qəbul edə bilmir.

Bu pis anlayışa sahib cahil insanlar, ətraflarındakı insanların sahib olduğundan daha yaxşısına sahib ola bilmək üçün böyük bir səy göstərərlər. Ən zəngin, ən gözəl ya da ən yaraşıqlı yoldaş, ən gözəl ev, ən lüks mebellər, ən yaxşı avtomobil, ən müvəffəqiyyətli uşaq, ən keyfiyyətli paltarlar həmişə özlərinin olmalıdır. Ən lüks yerlərdə gəzməli və ən gözəl olan həmişə özlərinin olmalıdır. Bu vəziyyət cahil insanlar arasında həyati bir yarışa çevrilmiş, bir-birlərinə qarşı duyduqları qısqanclıq səbəbiylə, demək olar qarşılarındakı insanın pisliyini istəyər olmuşlar. Belə ki, bəzən üstünlüklərini qoruma bahasına, qarşı tərəfin lehinə olacaq bir vəziyyətə maneə törətmək üçün belə risk edə bilərlər. Halbuki, başqa bir insanın zəngin və gözəl

olması ya da rifah içində yaşaması, özünün nə gözəlliyində, nə zənginliyində, nə də həyat standartlarında bir əskiklik meydana gətirər.

Cahillik düşüncəsinin gətirdiyi yanlış məntiq bu qədərlə də bitməz. Qısqanc olmaq, cəmiyyət arasında bəzi seqmentlərdə olduqca təqdir görən bir xarakter xüsusiyyəti olaraq mənimsənmişdir. Hətta, qısqanc olmadığını söyləyən insanlar, bu dairələr tərəfindən olduqca qəribə və qeyri-adi olaraq qəbul edilərlər. Cahillik inancına görə insanlar həqiqətən dəyər verdikləri şeylərə sahiblənməli və onlara qarşı qısqanc bir rəftar göstərməlidirlər. Misal olaraq, əgər bir dostunu sevirsə, bir başqasının ona sevgi duymasına və onunla dost olmasına mane olar; onun ən yaxşı dostu yalnız özü olmalıdır. Halbuki, bir insanın duyduğu sevgi digərinin də eyni adama sevgi duymasına maneə deyil və bunun kimsəyə bir zərəri yoxdur. Əksinə, əgər qarşıdakı insan həqiqətən dost ediləcək keyfiyyətdə bir insansa, onun bu üstünlüyündən bir başqasının da faydalanması son dərəcə təbii və gözəldir.

Bu məntiqlə düşünüldüyündə qısqanclığın yersizliyi və zərəri dəqiq bir şəkildə ortaya çıxar. Özlərini bu xəstəliyə qapdıran insanlar, əllərindəkiylə kifayətlənə bilmədiklərindən, heç bir zaman həqiqi xoşbəxtliyi yaşaya bilməzlər. Özlərindən daha yaxşısının varlığını bilmək onlara narahatlıq və kədər verər.

Bu cür çətin və zəhmətli bir sistemə tabe olmaqdansa, dinin gətirdiyi əxlaqı yaşamaq insanın yaradılışına ən uyğun olanıdır. İnsanın nəfsi qısqanclığa meyilli xüsusiyyətdə ola bilər. Ancaq ağıl və vicdandan istifadə edərək bu duyğunun önünə keçmək də bir o qədər asandır. Bir ayədə bu həqiqət bildirilir:

**... Doğrusu, nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)**

Allah insanlara, nəfslərini qısqanclıqdan təmizləməyi bildirmişdir. Bunun əvəzinə də, tam əksinə, həmişə qarşı tərəfin yaxşılığını, rahatlığını, dincliyini öz istəklərindən həmişə ön planda tutan və olduqca fədakar bir quruluşu mənimsəmələrini istəmişdir. Necə ki, Quran ayələrindən bir çoxunda, möminlərin qısqanclıqdan təmizlənmiş olan bu fədakar ruhu xəbər verilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər. (İnsan surəsi, 8)**

**... Mala olan sevgisinə baxmayaraq, onu yaxınlara, yetimlərə, yoxsullara, yolda qalmışa, dilənənlərə və kölələrin verən ... (Bəqərə surəsi, 177)**

Müsəlmanlar ən sevdikləri şeyləri belə, asanlıqla ehtiyacı olan digər insanlara verə bilir və bu mövzuda ən kiçik bir ehtirasa, qısqanclığa qapılmırlar. Şübhə yoxdur ki, vicdanın səsini dinləyərək bu əxlaqı tətbiq etmək, müsəlmanları qısqanclığın səbəb olduğu bütün narahatlıqlardan uzaq tutar və ən əhəmiyyətlisi Allahın razılığını qazanmalarına kömək olar.

## Təkəbbürlü olmaları və böyüklük iddiaları

Cahil insanlar Allahın yaratdığı və özlərinə nemət olaraq təqdim etdiyi imkanlara görə şiddətli bir böyüklük duyğusuna qapılarlar. Təkəbbür adı verilən bu bəlanın bulaşdığı adam, özünü dünyanın ən ağıllı, ən qabiliyyətli və ən yenilməz insanı olaraq görür.

Ancaq insanın təkəbbürlənməsi üçün, şübhəsiz, cahil cəmiyyətdə böyük əhəmiyyət daşıyan pul, etibar ya da gözəllik kimi diqqət çəkici xüsusiyyətlərə sahib olmasına ehtiyac yoxdur. Öz ağlını başqalarından üstün görməsi belə onun böyüklük hissinə qapılması üçün kifayətdir. Ətrafındakı hər kəsdən çox daha üstün olduğunu, hamısının həm maddi, həm də mənəvi cəhətlərdən çox ciddi əskikləri olduğunu, lakin özündə bu qüsurların heç olmadığını düşünər.

Bu səhv məntiqlərə bir dəfə inandıqdan sonra qürur və təkəbbür onun həyat fəlsəfəsi halına gələr. Artıq ətrafındakı insanlardan gələcək olan bütün tövsiyələrə və ya tənqidlərə qapalıdır. Onun, özündən əskik gördüyü digər insanlardan ala biləcəyi bir fikir ya da tövsiyələrin olması mümkün deyil. Özü də mümkün qədər bu insanları bəyənmədiyini vurğulamağa və hər fürsətdə qüsurlarını dilə gətirməyə çalışar. Onların qüsurları üzə çıxdıqca, öz böyüklüyü ilə onların kiçikliyi arasındakı təzadın daha da ortaya çıxacağına inanır.

Bu pis anlayış əslində insana çox ciddi itkilər gətirər, ancaq insan bunları fərq edə bilməyəcək qədər təkəbbürlüdür. Hər kəs ona demək olar ki, acıyan gözlərlə baxarkən o, özünün bu rəftarı səbəbiylə son dərəcə şəxsiyyətli və güclü bir xarakter sərgilədiyinə və bundan ötrü də ətrafında dərin bir hörmət oyandırdığına inanır. Halbuki, daha böyük və daha üstün olmaq məqsədiylə təkmilləşdirdiyi bu çirkin rəftar, insanı sandığının əksinə ən alçaldılan, ən az sevilən və yanında ən rahat edilə bilməyən insan mövqeyinə gətirər.

Təkəbbürlü insan, böyüklük arzusundan ötrü kimsəylə həqiqi mənada dost ola bilməz, kimsəyə sevgi-hörmət duymaz, səmimi və ya təvazökar bir rəftar göstərə bilməz. Bu da ətrafındakıların özündən ciddi şəkildə narahatlıq duymalarına səbəb olar.

Bununla yanaşı təkəbbür, yalnız ətrafdakı insanlarda deyil, insanın özündə də ciddi sıxıntılara yol açar. Əvvəlcə böyüklük iddiasında olan bir insan heç bir yanlışa yol verməməli və heç bir zaman səhv etməməlidir ki, özünə görə əldə etdiyini zənn etdiyi etibarı zədələnməsin. Belə bir şeyi bacarmaq üçün çox yüksək bir güc sərf etməlidir.

İçindən gələn bir şeyi həyata keçirməz, onu əvvəl öz imicinin süzgəcindən keçirər. Əgər nüfuzuna uyğun bir davranışdırsa edər, əgər xoşuna gələn bir şey belə olsa öz aləmində insanların gözündən düşməmək üçün bunu etməz. Nə içindən gəldiyi kimi gülə və əylənə bilər, nə də sərbəst və təbii bir söhbətdə iştirak edə bilər. Sərf etdiyi güclü diqqət insanın üzündə və bədənində ciddi bir sıxılmayla özünü göstərir ki, bu da gözəl bir insanın belə üz ifadəsini son dərəcə çirkinləşdirir və mənasızlaşdırır. Bununla yanaşı, səhv etməkdən qorxduğu üçün ətrafındakı insanlara mümkün qədər uzaq və məsafəli davranır; bu da kimsəylə həqiqi bir səmimiyyət yaşaya bilməməsinə səbəb olur.

İnsanın özünü saldığı bu qəlib zərərli olduğu kimi bir o qədər də mənasızdır əslində. Çünki insan nə qədər üstün xüsusiyyətlərə sahib olursa olsun, ən kiçik təfərrüatına qədər Allahın köməyinə möhtac son dərəcə aciz bir varlıqdır. Nə doğularkən bədəninin alacağı şəkli, nə qabiliyyətlərini, nə də ağlının həcmini özü təyin etməmişdir. Bütün bunlar tamamilə Allahın özü üçün yaratdığı şəkliylə reallaşmışdır.

Ancaq təkəbbür adındakı bu böyüklənmə arzusu insanın, Allahın ucalığını və böyüklüyünü qavraya bilməyəcək qədər ağılsız bir rəftar sərgiləməsinə səbəb olur. Təkəbbürlənən insan, Allahın yaratdığı trilyonlarca varlıqdan yalnız hər hansı biri olduğunu düşünə bilməz. Və özünün bunlardan hər hansı birinin bənzərini belə yaratmaqda aciz olduğunu heç ağlına gətirməz. Minlərcə növ virus və mikrobun səbəb ola biləcəyi xəstəliklərə mane ola bilməyəcəyini də düşünməz.

Təkkəbürün cahil insanı içinə saldığı vəziyyət bu qədər açıq ikən, insanın bu rəftarı davam etdirməsi dünyada olduğu kimi axirətdə də qarşılıq görəcəkdir. Quranda, Allahın böyüklüyünü təqdir edə bilməyən və hər mövzuda yalnız özünü nüfuzlü hesab edən kəslər üçün cəhənnəm əzabı olduğu xəbər verilmişdir:

**Elə isə içində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin! Təkəbbürlülərin qalacağı yer necə də pisdir!". (Nəhl surəsi, 29)**

**Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

## Kinli olmaları

Allaha və hesab gününə səmimi və dərin imanı olmayan bir insanın, bağışlayıcı və xoşxasiyyətli olması da mümkün deyil. Cahil cəmiyyətin yanlış məntiqinə görə, ömrü qısa olduğu üçün bu fürsəti ən yaxşı şəkildə qiymətləndirməlidir. Ancaq bu səmimi bir möminin anladığı mənada gözəl və əxlaqlı rəftarlar göstərərək, yaxşı bir qiymətləndirmə deyil əlbəttə. Dünya ehtirası ilə dolu, Allahdan və axirətdən qafil,

insanda həm maddi, həm də mənəvi olaraq böyük təxribat meydana gətirən bir anlayışdır. Cahil cəmiyyətə görə, həyatı yaxşı qiymətləndirmənin mənası olduqca eqoist olmaq, bütün acizliklərini və əskikliklərini heç düşünməyərək dünyaya ehtirasla bağlanmaq, ruhsuz, sevgisiz bir həyat içində əyləndiyini iddia edərək özünü aldatmaqdan ibarətdir. Bu vəziyyətdə insan həmişə öz mənfəətlərini düşünməli və bunlara zərər verməyə çalışanlara da çox kəskin bir cavab verməlidir. Buna görə də, özünə qarşı edilən bir səhvi qətiyyən unutmamalı, hər kəs haqqındakı xatirələrini yaddaşında toplamalı və ilk fürsətdə "qisas almaq" üzrə kin saxlamalıdır.

Bu yanlış məntiq insanda elə bir vəsvəsə halına çevrilər ki, bəzən iyirmi il, otuz il keçdiyi halda edilən kiçik bir səhvi unutmaya bilər. Həmçinin çox vaxt zehnini məşğul edən mövzular son dərəcə əhəmiyyətsizdir. Qarşı tərəf mövzunun fərqində olmasa belə, kinli insan hər şeyin altında bir qəsd olduğuna inanır. Belə ki, cahil cəmiyyətlərdə bu batil inanc, bəzən cinayətə ya da yaralamağa qədər çatan bir intiqam ilə nəticələnər.

Ancaq bu pis rəftarından ötrü həmişə itirən insanın özü olur. Öz-özünə müxtəlif xülyalara qapılar; hər kəsin ona düşmən olduğuna, ondan istifadə etməyə çalışdığına inanar. Hər hadisəni bu mənasız xəyallar əsasında qiymətləndirər. Ağlını və enerjisini həmişə bu istiqamətdə sərf edən bir insanın məhsuldarlığı, yaradıcılığı, çalışqanlığı, sevinci bir-bir azalar; bunun əvəzinə psixologiyası tamamilə hüzn, kədər və nifrətə meyilli hala gələr.

Halbuki, bağışlamağın və tolerantlığın ləzzəti, kin saxlayıb xülyalara qapılmanın verdiyi nifrət və sıxıntıyla müqayisə edilməyəcək qədər yüksəkdir. Bağışlamaq, cahillik mühitində zənn edildiyi kimi alçalmaq ya da məğlub olmaq deyil, əksinə nəcibliyin və yüksək bir əxlaqın göstəricisidir. Quran ayələrində bağışlayıcılığın üstünlüyü belə vurğulanır:

**Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir. (Şura surəsi, 40)**

Cahillik sisteminin gətirdiyi bu qorxunc dünyaya qarşılıq, din əxlaqının yaşanması ilə ortaya çıxan səmimi mühit, Quranda cənnət xalqının bir xüsusiyyəti olaraq izah edilmişdir ki, bu da bizə bu əxlaqın üstünlüyünü bir daha xatırladır:

**Biz onların köksləri̇ndəki kin-küdurəti çıxaracağıq. Onların ayaqları altından çaylar axacaq. Onlar deyəcəklər: “Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah**

**bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Əlbəttə, Rəbbimizin elçiləri haqqı gətirmişdilər". Onlara belə xitab ediləcəkdir: "Əməlləriniz sayəsində varis olduğunuz Cənnət budur!" (Əraf surəsi, 43)**

## Narazı və cansıxıcı bir ruh halında olmaları

Cahillik əxlaqında gözə çarpan xarakter xüsusiyyətlərindən biri də, insanların həyatlarının hər anını narazı, bezgin və şikayətçi bir ruh içərisində keçirmələridir. Hətta bu əxlaqı mənimsəyən insanlar narazı olacaqları bir mövzu olduqda belə bu rəftarı göstərər və hər şey haqqında daima "deyinərlər". Bu çirkin rəftar, onlar üçün yemək-içmək kimi təbii bir vərdiş halına gəlmişdir. Həmçinin, cəmiyyətin hər təbəqəsində tətbiq edildiyi üçün kimsə tərəfindən qəribə də qarşılanmaz.

Adam səhər oyandığı andan etibarən şikayət edəcək bir şeylər axtarmağa başlayar. Əvvəl gecə heç rahat yata bilmədiyindən bəhs edər, ardından hava istisə istiliyindən, soyuqdursa soyuqluğundan şikayət etməyə başlayar. Naharda yeməklərin pis olduğu, avtomobilin əskiklikləri, tıxacın sıxıcılığı, iş yerinin səs-küyü, insanların anlayışsızlığı, yuxusuzluq, yorğunluq, axşam evdəki mühit, qonşuların dolanışıqsızlıqları, həyatın cansıxıcılığına, kimsənin onu anlamaması və bunun kimi ard-arda sayılıb şikayətlənən mövzular bir-birini təqib edər. Belə də olmazsa sırf şikayət edən olsun deyə şikayət etməyə başlayar; qadınsa qadın olduğu üçün, uşaqdırsa uşaq olduğu üçün, əsmərsə sarışın olmadığı, boz gözlü isə mavi gözlü olmadığı üçün narazılığını dilə gətirər. Ancaq bu mövzuların heç bir zaman sonu gəlməz, çünki bu pis ruh halıdır və insan buna baxmayaraq bu vəziyyətdən çıxmaq istəməz.

Bu yanlış məntiq yürütmələri cahil insanların, heç bir zaman heç bir şeydən xoşbəxt ola bilməmələrinə səbəb olar. Çünki hər şeyin ən mükəmməlini əldə etmiş olsalar belə, yaxşı və gözəl istiqamətləri bilmədikləri üçün bir müddət sonra sahib olduqlarından yenə sıxılarlar.

Allah, insanların saymaqla bitirə bilməyəcəkləri qədər çox nemət içərisində olduqları halda yenə də narazı və nankor bir əxlaq sərgilədiklərini belə xəbər vermişdir:

**Sizə hər istədiyiniz şeyi verdi. Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqət budur ki, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

Budur, cahilliyin bu səthi məntiqi, onları dünyanın bu qədər gözəlliyi varkən heç birindən ləzzət ala bilməyəcək hala gətirər.

İnsanın həm ruh, həm də bədən cəhətdən fitrətinə ən uyğun həyat olan İslam əxlaqı isə bunun tam əksini yaşadar. Bütün kainatın və içərisindəki hər cür təfərrüatın özü üçün bir bəzək və bir ikram olaraq yaradıldığını bilən mömin, davamlı olaraq Allaha şükür edən bir ruh halı içindədir. Qarşılaşdığı hər hadisənin ardında gizlənən gözəllikləri və hikmətləri tapıb çıxarır. Öz ətrafını özü gözəlləşdirməyə və nemətə çevirməyə çalışır. Quranda, Allahın bu əxlaqı göstərən kəslərə nemətlərini və ikramlarını artıracağı, davamlı narazı və şikayətçi olaraq nankorluq edən insanlardan da bu gözəllikləri alacağı bildirilmişdir:

**Rəbbiniz belə buyurmuşdu: "And olsun ki, əgər şükür etsəniz sizə artıracağam və and olsun, əgər nankorluq etsəniz, şübhəsiz ki, Mənim əzabım şiddətlidir". (İbrahim surəsi, 7)**

## Ümidsizlik

Din əxlaqından uzaq yaşayan bir insan, həyatı boyunca ətrafında olub bitən bütün hadisələrin təsadüfən baş verdiyi kimi ağıl və məntiq xarici bir düşüncəyə malikdir. Əgər işləri yolunda getmişdirsə, bunun "işlərinin yağ kimi getməsindən", əksinin də "çatışmazlıq olmasından" qaynaqlandığı yanılmasına inanır. Bu azğın görüşün gətirdiyi ən təhlükəli və pis nəticələrdən biri isə, ümidsiz ruh halıdır. Çünki bu səthi məntiqdə, güvəniləcək ya da ümid bəslənəcək heç bir dayaq yoxdur.

Bu qaranlıq ruh halı, Allahın gücünü və hər şeyin bir qədərə görə baş verdiyini qavraya bilmənin cahil insanlara gətirdiyi bir bəladır. Halbuki, Allaha iman edən bir insanın hər an, hər mövzuda ümidi vardır. Çünki hər hadisə və hər varlıq Allahın idarəsi altındadır. Bütün güc Allahındır və Onun izni olmadan heç bir hadisənin olması mümkün deyil. Bunu qavrayan bir insan hər şeyin Allahın diləməsi və yaratmasıyla anında dəyişə və heç bir şeyin qeyri-mümkün olmadığını çox yaxşı bilir. Allaha inanmayan və hər şeyi təsadüflərin idarə etdiyini düşünən bir insanın isə ümidsiz olması təbiidir, çünki bu onun öz inanc pozuqluğundan qaynaqlanan bir ruh halıdır.

Bu inanc pozuqluğuyla yaşayan insanlar -öz aralarında "həyata küskün" deyimiylə ifadə etdikləri kimi- daha ən əvvəldən pessimist bir ruh halına sahibdirlər. Həyata bezgin və məğlub düşmüş bir ruh halıyla yaxınlaşarlar. İnanclarındakı yanlışlıq, onlarda heç bir şeyin yolunda getməyəcəyi, həyatın həmişə tərsliklərlə dolu olacağı kimi bir narahatlıq yaradır. Necə ki, bunu gözlədiklərindən, hadisələri həmişə belə görmək istəyərlər. Misal olaraq, universitetdə istədikləri sahəni qazanmayacaqlarını, qazansalar belə məktəbi bitirə bilməyəcəklərini, məzun olsalar belə bu həyat şərtlərində iş tapa bilməyəcəklərini, tapsalar belə müvəffəqiyyətli olmaq üçün illərin keçməli olduğunu, istədikləri kimi bir evlilik edə bilməyəcəklərini, etsələr belə xoşbəxt ola bilməyəcəklərini, zəngin və lüks bir həyat yaşaya bilməyəcəklərini, uşaqlarını istədikləri kimi böyüdə bilməyəcəklərini, onların "mürvətlərini görmədən"

öləcəklərini, məzarlarına kimsənin gəlməyəcəyini, dərhal unudulacaqlarını düşünür və buna bənzər bitmək bilməyən bir sıra ümidsizlik sayıqlamaları edərlər. Quranda bu insanların içində olduqları ümidsiz ruh halı belə ifadə edilmişdir:

**İnsana nemət verdiyimiz zaman anlamayaraq üz çevirib uzaq durar. Ona bir zərər toxunduqda isə məyus olar. (İsra surəsi, 83)**

**İnsan özünə xeyir diləməkdən usanmaz. Lakin ona bir pislik dəysə, məyus olub ümidini itirər. (Fussilət surəsi, 49)**

Bu pis əxlaqı yaşayan insanlar cahil cəmiyyətdə "bəd ağızlı" olaraq da adlandırılırlar. Hər mövzuda həmişə mənfi təlqinlər etmələri və ətraflarını çaxnaşmaya salacaq şəkildə pis və ümidsiz təxminlərdə olmaları, ətraflarındakı insanların da əsəblərini pozar. Misal olaraq, təyyarəyə minmək üzrə olan dostlarına "ya təyyarəniz düşsə, ya sağ-salamat gələ bilməsəz" kimi ümidsizcə söhbətlər edərək, narahatlıq verərlər. Bir dəfə öskürən birinə "çox xəstədir yəqin" kimi fəlakət təxminləri edərlər. Böyük investisiyalar yatırılaraq qurulan bir iş yerinin, ortada heç bir ehtimal olmadığı halda, davamlı olaraq iflas edə biləcəyindən narahatlıq duyar və müvəffəqiyyətli ola bilməyəcəyi haqqında fikir bəyan edərlər.

Şübhəsiz ki, bu sayılanlar gündəlik həyatda rast gəlinən məhdud bir neçə nümunədir. Amma burada diqqət çəkən xüsus, bu əxlaqı daşıyan cahil insanın, yalnız özünü deyil, ətrafını da narahat edən bir sistem yaratdığıdır. Məhz bu sistem, cahil cəmiyyətin səthi məntiqinin bir məhsuludur. Bu səthi məntiqin əsas xüsusiyyəti isə, insanların bilərəkdən özlərinə həm dünyada, həm də axirətdə heç bir şey qazandırmayan, hətta sıxıntı və narahatlıq yaradan bir sistemi qəbul etmələridir.

İslam dininin gətirdiyi yüksək əxlaq isə, bu səthi məntiqdən çox üstün bir dünya görüşü təklif edir. Allahın sərhədsiz və sonsuz gücünü bilmənin verdiyi ümidli quruluş, möminlərə yalnız dünyada deyil, eyni zamanda axirətdə də sevinc və hüzur gətirər. Onlar daima Allahın ayədə bildirdiyi, **"... Allahın rəhmətindən ümid kəsməyin. Çünki kafirlər qövmdən başqası Allahın rəhmətindən ümid kəsməz."** (Yusif surəsi, 87) əmrinə tabe olarlar.

## Laqeydlik

"Laqeydlik" termini, cahil insanların hadisələr qarşısındakı diqqətsiz və duyğusuz rəftarlarını ifadə edər. Kiçik yaşlarından etibarən ətraflarında bu quruluşu görərək böyüyən bəzi insanlar, laqeyd davranışların təbii olduğunu düşünürlər. Halbuki, cahillik məntiqinə xaricdən baxanda görülən həqiqət, laqeydliyin, vicdanın bir növ keyidilməsi və dondurulması olduğudur.

Vicdanın açıq və güclü olması, insana həyatın hər anında müxtəlif məsuliyyətlər yükləyəcək bir xüsusiyyətdir. Bu da axirətə inanmayan insanların heç işinə gəlməz. Bundan qaçmaq üçün laqeydliyi əsas həyat fəlsəfələri halına gətirərlər. Bu vəziyyətdəki bir insan, hər şeydən əvvəl öz məsuliyyətlərini yerinə yetirməkdə son dərəcə zəifdir. Ətrafındakı insanlar onun adına hər şeyi boynuna götürmək məcburiyyətində qalarlar.

Bu çirkin əxlaqı daşıyan insan yalnız özünə deyil, ətrafına da zərər verir. Söz verir, amma vecinə almadığından ötrü sözündə durmaz. Yenə eyni şəkildə borc alır, çox vaxt geri qaytarmaq imkanı olur, amma əhəmiyyət vermədiyi üçün ödəməyi unudar. Bəzən laqeydliyi, həyati ölçülərə qədər uzanar. Müalicə məqsədiylə bir dərman alacaqkən, sırf laqeydlikdən bunu axsadar və xəstəliyinin davam etməsinə göz yumar. Üzmə bilməyən kiçik uşağını dəniz kənarında buraxar, boğulmasından yana ən kiçik bir narahatlıq belə duymaz; iş işdən keçdikdən sonra ağlı başına gələr. Bunun kimi minlərlə laqeydlik nümunəsi, cahil cəmiyyətin gündəlik həyatında davamlı yaşanar.

Məsələn, tıxacda qəza keçirən ağır yaralı bir insanla qarşılaşanda vicdanı açıq olan bir insanın edəcəyi şey, öz işi hər nə qədər əhəmiyyətli olursa olsun, təcili vəziyyətdəki bu insana bütün imkanlarıyla kömək etməkdir. Ancaq laqeydlik adı altında vicdanını donduran bir insan, bu mənzərəyə qısa bir göz atdıqdan sonra, kömək edən tək bir adam olmadığını görsə belə rahatlıqla görüşünə getmək üzrə yoluna davam edə bilər. Və ya əgər ətrafda başqa kəslər varsa "onlar maraqlanar onsuz da" deyə düşünə bilər.

Göründüyü kimi, laqeydlik əslində vicdansızlığın bir başqa dilə gətiriliş şəklidir. İnsan, ağlı və məntiqi qəbul etdiyi halda inkişaf etdirdiyi laqeydlik ilə bir çox mövzunun üzərindən rahatlıqla keçib gedər. Vicdanını dondurduğu üçün üzərindən aşdığı, laqeydlik göstərdiyi rəftarlar səbəbiylə ən kiçik bir vicdan əzabı da duymaz. Hətta özünü dünyanın ən ayıq insanı olaraq görər. Halbuki, bu adam heç bir şəkildə qazanc içində deyil. Vicdanını tərk edərək dünyada önünə çıxan bütün fürsətləri qaçırmış, axirət üçün edə biləcəyi hazırlığı bilərəkdən göz ardı etmişdir.

Hər mövzuda vicdanını isatifadə edən, ağlını və imkanlarını bunun üçün sonuna qədər istifadə mömin insan isə, Allahın razılığını və axirəti qazana biləcək ən isabətli davranışı etmişdir. Möminin bu mövzuda göstərdiyi həssaslıq onun dünya həyatında da rahat yaşamasını təmin edər. Qarşılaşdığı hər mövzuda ağlını istifadə etdiyi üçün, işləri həmişə olduqca ən yaxşı nəticələrlə sona çatar.

## Tamahkarlıq

Dünyaya olan bağlılıq və mala qarşı duyulan hərislik, cahillik əxlaqını yaşayan insanları bu uğurda hər cür əxlaq və rəftar pozuqluğunu gözə ala biləcək çirkin bir rəftar içərisinə salar. Mövzu əgər dünyadan istifadə etməkdirsə, insan bu arzusunu təmin etmək üçün tamahkar bir quruluş göstərməkdən heç bir şəkildə çəkinməz.

Həyatın qısalığını bilir və bu müddəti axirət üçün çalışaraq keçirməkdənsə, dünyaya istiqamətli olaraq qiymətləndirmənin öz zəif ağlına görə ən yaxşı yol olduğunu zənn edir. Bunun üçün də qarşısına çıxan fürsətləri həmişə bu uğurda sərf edərək dünyaya bir az da tamah salar.

Bütün məqsədi dünyanı yaşamaq olan bu insanların, Allahın onların çirkin əxlaqına verdiyi bir qarşılıq olaraq, dünyadan məmnun olmaları isə heç bir zaman mümkün olmaz. Özlərinə görə dünyadan faydalanmaq üçün Allahdan qafil bir həyat mənimsəyərlər, amma dünya onlara heç bir zaman gözəllik, hüzur və xoşbəxtlik verməz. Bir ömür boyu arxasından qaçdıqları dünya istəklərinin özlərinə buraxdığı tək şey bədbəxtlik, narahatlıq, sevgisizlik, dostsuzluq və bu cür acılardır.

Bu quruluş, cahil cəmiyyətdə insanların böyük qisminə hakim olduğu halda, yalnız müəyyən bir təbəqəyə aid edilərək örtbasdır edilmək istənilir. Yalnız bəzi acgöz insanların tamahkar bir xarakter sərgiləyən imici olduqca geniş yayılmışdır. Halbuki, tamahkarlık cahillik əxlaqının dünyaya və insanlara dünyagörüşünü ən açıq əks etdirən xüsusiyyətlərindən biridir.

Bu çirkin dünyagörüşüylə yoğrulmuş olan cahillik insanları, zəngin olsun, kasıb olsun heç bir fərqlilik göstərmədən dünyadakı hər şeyə qarşı acgöz yaxınlaşar. Misal olaraq, qonaq gedər; qarını doyduğu halda -xəstələnmə bahasına da olsa daha çox faydalanmaq üçün bir az daha yeyər. İş yerindən maksimum istifadə etmək üçün ehtiyacı olmadığı halda sağa-sola lazımsız telefon zəngləri edər; uşağının, ailəsinin bütün ehtiyaclarını iş yerinin imkanlarından qarşılamağa cəhd edər. Bu məntiq elə köklü bir xəstəlikdir ki, insan ailəsinə belə bu gözlə yaxınlaşar. Ərinin çox işləməsini, çox pul qazanmasını demək olar bir ehtiras halına gətirmişdir. Çünki işin sonunda özünə daha çox paltar aldıracaq, daha çox gəzə biləcək, daha çox yeyə biləcək və ərinin bu xüsusiyyətlərindən maksimum istifadə edə biləcək. Bu ehtiras və acgözlük elə nöqtələrə gəlir ki, bəzən insanların dünyadan daha çox mənfəət əldə edə bilmək üçün fırıldaqçılığa ya da açıq şəkildə oğurluğa əl atmaqla özünü göstərir.

Bu kimi insanları bir qab yeməyə belə tənəzzül etdirən bu çirkin əxlaq, ayıq ağılla tətbiq edilər, amma tam əksinə adamı ağlasığmaz dərəcədə alçaldar.

Səmimi və dürüst yaşamaq isə, min cür plan və saxtakarlıqla yaşamaqdan çox daha asan və çox daha zövqlüdür. Allaha iman etmiş bir insan dünya nemətlərindən ən gözəl şəkildə faydalanar. Bütün nemətin Allaha aid olduğunu, Allah Qatında olanın heç bir zaman bitib tükənməyəcəyini və Allahın dilədiyi kimsəyə sonsuz nemətindən hesabsız olaraq həm dünyada, həm də axirətdə verəcəyini bilir. Buna görə nə dünyaya tamah edər, nə də sahib olmadığına hərislik edər. Bu da ona həm nəciblik, həm möhtərəmlik, ən əhəmiyyətlisi də Allahın razılığını qazandırar.

## Eqoizm

Cahil cəmiyyətin yanlış məntiq anlayışına görə, bir insanın bir başqasını, ən az özü qədər düşünməsi, qoruması və onunla maraqlanması üçün o adamdan ciddi mənada bir mənfəətin bəhsi keçməlidir. Əks təqdirdə, cahil insanın başqaları üçün özündən nələrsə verməsi üçün heç bir səbəb yoxdur; hətta bu batil sistemə görə bu onun üçün maddi-mənəvi əhəmiyyətli bir itki deməkdir. Arada-sırada həyatın bir gərəyi olaraq məcburən başqalarına kiçik fədakarlıqlar etdiyi ola bilər, amma bunu daimi bir əxlaq anlayışı halına gətirmənin, ona görə heç bir əhəmiyyəti yoxdur.

Məhz, mənimsədiyi bu yanlış dünya görüşü səbəbiylə, insan hər mövzuda və hər kəsə qarşı xəsis və eqoist bir rəftar ortaya qoyar. Hələ ibtidai məktəb illərində ailəsinin tənbeh və təlqinləriylə kök salan bu çirkin məntiq, uşağın oyuncaqlarına, yeməklərinə, otağına, ailəsinə sahiblənməsi və kimsəylə paylaşmamasıyla özünü göstərir. Sonrakı illərdə isə, insanın malını paylaşmamasındakı bu qərarlılığına əlavə olaraq, insanlıqdan uzaq və düşüncəsiz rəftarlar əlavə olunar.

Eqoist olan bir insan yalnız öz rahatlığını düşünər. Buna görə də başqalarının ehtiyacları və problemləri ilə heç bir şəkildə maraqlanmaz. Qarşısındakının ehtiyacı olduğunu bilə-bilə, qarşısına keçib yeməyini yeyər, amma paylaşmaq ağlına belə gəlməz. Xəstə olduğunda özüylə çox ciddi məşğul olar, amma bir başqası xəstələndiyində buna heç ehtiyac duymaz. Avtomobiliylə yoldan keçərkən bir yoldaşının yağışdan islaq olduğunu görər. Eyni istiqamətə getdiyi halda sırf maşını palçıq olmasın deyə avtomobilə götürməz, görməzlikdən gəlib keçər. Yanındakı insanın düşdüyünü görsə, kömək edəcəyi halda gülüb keçər və öz işinə davam edər ...

Gündəlik həyatın hər mərhələsində ortaya çıxan bu insanlıqdan uzaq rəftarlar, müstəsna və həyati vəziyyətlərdə də eyni məntiqlə davam edər. Məsələn, ölmək üzrə olan bir insana qan verməsi tələb olunur, özünə heç bir zərəri olmadığı halda, insanlıqdan uzaq olmasından, rahatlığına və kefinə olan düşkünlüyünə görə bunu qəbul etməz.

Din əxlaqında isə eqoizmin, xəsisliyin və insanlıqdan uzaq rəftarların yeri yoxdur. Əksinə möminlər hər an vicdanlarını bütün gücləriylə istifadə etdikləri üçün, ətraflarındakı əskiklikləri və ehtiyacları görər və bunlar qarşısında ən insani rəftarları sərgiləyərlər. Bunu həyata keçirərkən də, heç vaxt qarşı tərəfi minnət altında qoymazlar. Möminlərin yaşadığı bu fədakarlıq və insanlıq anlayışının gözəl nümunələrindən biri Quranda belə bildirilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" (İnsan surəsi, 8-10)**

## Uyğunlaşmayan, tərs xarakterli olmaları

Cahil cəmiyyətlərdə, yalnız həddindən artıq dərəcədə problemli insanlara "uyğunlaşmayan " sifəti yaraşdırılır. Gün ərzində arada bir çıxan müzakirələr ya da çəkişmələr isə bu bənzətməyə daxil edilmir. Halbuki, olduqca xoşxasiyyətli və məzlum olaraq bilinən bir insan belə, müəyyən mövzularda müəyyən şəxslərə qarşı tərs bir rəftar içərisinə girə bilər. Mütləq yola getmədiyi ya da dözə bilmədiyi insanlar vardır həyatında. Ancaq cahil cəmiyyətin səthi məntiqi içərisində bütün digər əxlaq yanlışlıqları kimi, bu pis rəftar da olduqca "məqbul" və "adi" qarşılanır.

Ailə həyatları bitmək bilməyən dolanışıq problemlərinə səhnə olarkən, "ailə məsələləri" ya da "hər ailədə olur belə şeylər" kimi sözlərlə bu rəftarın çirkinliyini örtməyə çalışırlar. Yoldaşlıq əlaqələrində demək olar ki, hər gün mübahisələr, küskünlüklər və davalar yaşanır; bunu da "yoldaşlıqlarda olur belə şeylər" kimi mənasız şərhlərlə qəbul edərlər. Məktəbdə müəllimləriylə, iş yerində rəisləriylə və digər işçilərlə, tıxacda maşın sahibləri, mənzildə qonşularıyla, qohumlarıyla qısacası dialoq qurduqları hər kəslə bir çəkişmə içərisindədirlər.

Bu çəkişmələr, ümumiyyətlə böyük səbəblərdən qaynaqlanmaz. Əgər mübahisə edəcək bir mövzuları yoxsa belə, bunu bir şəkildə özləri yaradarlar. Misal olaraq, arvadının sevdiyi yeməyi bişirməməsi, ya da ərinin onu gəzməyə aparmaması, qonşunun balkonu yuyarkən su sıçratması, mənzildəki bir səs-küy, bir heyvan və ya uşaq səsi, yaşıl işıq yandığında dərhal hərəkətə keçməyən bir maşın sürücüsü, bir maşının sürətlə ötməsi, başqa bir maşının avtomobilinin qarşısında saxlaması, hətta bəzən tək bir siqnal səsi, müdirinin az mənfəət əldə etmiş olması, bələdiyyənin asfalt işlərini gecikdirməsi və bunun kimi gündəlik həyatın hər anı, onlar üçün bir dolanışıq problemləri və narahatlıq mənbəyidir. Kiçik-kiçik hadisələrdə gərgin bir atmosfer meydana gətirən bu insanlar, nə aralarındakı bu narahatlığı tərk edərlər, nə də yaşadıqları dözülməz çətin mühiti. Belə ki, bəzən iki insanın bir müddət boyunca sırf eyni mühiti paylaşmaq məcburiyyətində qalmaları belə qaçınılmaz bir narahatlıq səbəbi olar. Bir-birlərindən sıxıntı duyarlar, acizliklərinə və insani ehtiyaclarına qətiyyən dözə bilməzlər. Bu birlik zaman içində dözülməz bir hal alır. Amma insanların ya da məkanın dəyişməsinin özləri üçün heç bir şeyi dəyişdirməyəcəyinin şüurundadırlar. Kiminlə və harada olarsalar olsunlar, eyni dolanışıq problemləri yaşanır. Çünki qarşılıqlı anlayışsızlığın nəticəsində ortaya dözümsüzlük çıxar.

Yaxşı bu dözümsüzlüyün altında yatan əsas amil nədir?

Cahil cəmiyyətlərdə hər kəs mütləq özünün haqlı olduğuna inanır. Xoşxasiyyətli ola bilmədikləri üçün, altdan almağı ağıllarına belə gətirməzlər. Bunun yerinə öz bildiklərində israrçı olub yola gedilməz bir insan olmağı seçərlər.

Halbuki, Qurana görə tək doğru vardır. Qurana uyan insanlar, Quranda özləri üçün müəyyən edilmiş olan doğrunu fərq etdiklərində onu tətbiq edərlər. Nəticədə ortada "hər kəsin fikri" deyil, "yalnız Quranda bildirilən əxlaq" vardır. Aradakı olacaq anlaşılmazlıqlar isə, Qurana baş vurulduğunda həll yolu tapacaq. Beləliklə, ortada

anlaşılmazlıq deyil, daima həll yolu vardır. Quran əxlaqı ilə hərəkət edən bir insan Allahın insanlara tərifədiyi xüsusiyyətləri, ehtiramı, sevgini, hörməti yaşayan bir insandır. Quran əxlaqı, anlayışı, incə düşüncəni və qarşı tərəfin fikrinə hörmət etməyi tələb edir. Bu təslimiyyətin nəticəsində də bir anlaşılmazlıqdan bəhz edilə bilməz. Cahil cəmiyyəti heç dayanmadan mübahisə edərkən, inananlar Quran əxlaqını tətbiq etmənin rahatlığını yaşayarlar. Belə bir birlik içində narahat və ya dolanışıq problemləri olan bir mühitin ortaya çıxması mümkün deyil.

## Höcətləşən olmaları

Quran əxlaqında yer alan gözəl xüsusiyyətlərdən biri də, "boş söz danışmaqdan çəkinmək" və "boş söz danışanlarla birlikdə olmamaq"dır. Şübhəsiz ki, bu, möminlərə maddi-mənəvi çox böyük qazanc təmin edər. Boş və insana heç bir şey qazandırmayacaq bir söhbətə girməkdənsə, buradan qazanacaqları vaxt ilə çox daha faydalı və əhəmiyyətli fəaliyyətlər göstərərlər. Həmçinin boş danışıqların darıxdırıcı və uyuşdurucu təsirindən də əvvəldən xilas olarlar.

Buna qarşılıq olaraq, hikmətsiz və uzun söhbətlərlə vaxt öldürmək, cahil cəmiyyətin imtina edə bilmədiyi vərdişdir. Bu şəkildə həyatın ciddiliyindən və problemlərindən bir az olsun uzaqlaşdıqlarını düşünərlər. Ancaq hər kəsin öz ağlını bəyənməsi və iddialı bir şəxsiyyət sərgiləməsi səbəbiylə bu söhbətlər qısa müddət içərisində hərarətli və nəticə verməyən müzakirələrə çevrilir. Çox vaxt haqqında heç bir şey bilmədikləri mövzularda belə bitmək bilməyən söhbətlər edərək saatlarla mübahisə edərlər. Və bu saatlarla sürən mübahisələrin sonunda da ümumiyyətlə, heç bir nəticəyə gələ bilməzlər. Bu müzakirələr əsnasında mümkün olduqca öz fikirlərini ön plana çıxarmağa və qarşı tərəfə qəbul etdirməyə çalışırlar. Elə iddialı bir şəxsiyyət sərgiləyərlər ki, qarşılarındakının danışdıqları mövzuda mütəxəssis bir adam olması belə onları narahat etməz. Onlar, öz aləmlərində həkimdən daha yaxşı həkim, vəkildən daha yaxşı vəkildirlər.

Mübahisələri əsnasında etdikləri şərhlər isə ümumiyyətlə, təxminlərə ya da ordan-burdan eşitdikləri məlumatlara əsaslanır. Ancaq bu quruluş da, cahil cəmiyyətlərdə qınanacaq bir xüsusiyyət olaraq qarşılanmaz. Höcətləşən şəxsiyyət göstərən kəslərə yalnız "bir az sabit fikirli" ya da "bir az inadçı" sifətləri yaraşdırılır. Bunun insana xas bir xüsusiyyət olduğu düşünülür.

Halbuki, insanların heç bir məlumatları olmadığı halda uzun mübahisələrə girmələrinin arxasında duran səbəb, nəfslərdəki mübahisə meyilidir. İnsanların bu xüsusiyyəti Quranda **"... insan, hər şeydən çox mübahisəçidir ..."** ayəsiylə xəbər verilmişdir. (Kəhf surəsi, 54) Məhz cahil insanlar da ağıllı hərəkət etməkdənsə, bu zəifliklərinə məğlub olmağı gözə alarlar.

İnsanlar bəzən haqlı olduqları mövzuları müdafiə etmək üçün də mübahisə edə bilərlər. Ancaq cahil cəmiyyət üzvlərinin münasibətlərində diqqət çəkən istiqamət, bu

mübahisə əsnasında göstərdikləri rəftar pozuqluqlarıdır. Bu rəftar pozuqluqlarının ən başında, mübahisə zamanı istifadə olunan səs tonu gəlir. Nə qədər qışqırarlarsa və qarşı tərəfin səsini nə qədər basdırarlarsa, o qədər haqlı çıxa biləcəklərini zənn edərlər və buna görə də son dərəcə yüksək səslə danışarlar. Bu cür mühitlərdə, şəxslər üzərində fiziki olaraq da diqqətə çarpan təsir meydana gələr; iddialaşmanın təsiri ilə üzləri qıpqırmızı olar, boyun damarları şişər, mübahisənin və qışqırmağın təsiriylə son dərəcə çirkin bir görünüşə bürünürlər. Oturduqları yerdə sakitliklərini qoruya bilməz, artıq əl-qol hərəkətləri ilə qarşı tərəfin susdurulmasına çalışarlar. Şübhəsiz, bir-birlərinin sözünü kəsərlər, daha doğrusu hər iki tərəf də eyni anda danışar və bir-birlərini qətiyyən dinləməyə çalışmazlar. Əgər tərəflərdən biri sakit davranacaqsa, digər tərəf onu əsəbləşdirmək və mübahisə havasına sala bilmək üçün əlindən gələni edər. Qarşılarındakı adama haqlı olduqlarını qəbul etdirmədikləri müddətcə də heç cür rahatlamaz və bu gərgin havadan xilas ola bilməzlər.

Möminlərdə isə belə bir anlayışın heç bir əlaməti görülməz. Hər biləndən daha yaxşı bir bilən olduğunu ən əvvəldən qəbul edər və heç bir zaman sabit fikirli bir quruluş göstərməzlər. Hər duyduqları məlumatı ağıllarının və vicdanlarının süzgəcindən keçirər və beləcə ən məqsədəuyğun nəticələri əldə edərlər. Bu gözəl əxlaqlı insanlar, məlumatları olmayan bir mövzuda isə heç vaxt fikirlərini irəli sürməz, əsli olmayan görüşlərə qəti olaraq dəyər verməzlər. Belə bir dünyagörüşü da mübahisə ruhunu tamamilə ortadan qaldırar və həll yolu gətirər. Əgər mövzuyla əlaqədar məlumatları yoxdursa, fikir irəli sürmək ya da mübahisə etmək yerinə, mövzu haqqında araşdırmalar aparıb sağlam məlumat əldə etməyə çalışarlar. Möminlərə Quranda tövsiyə edilən də budur:

**... Və hər biləndən üstün bir bilən vardır. (Yusif surəsi, 76)**

**... De ki: "Heç bilənlərlə bilməyənlər bir olarmı? Şübhəsiz ki, ağıl sahibləri düşünüb ibrət alsınlar." (Zumər surəsi, 9)**

## İkiüzlülük və sünilik

Cahil cəmiyyətin ən çox şikayətləndiyi mövzuların başında insanların ikiüzlü və səmimiyyətsiz olmaları gəlir. Buna baxmayaraq insanların ikiüzlülüyündən şikayətlənərlər. Bu vəziyyət, öz əlləri ilə yaratdıqları əxlaq pozuqluğunun necə özlərinə geri dönən mərhəmətsiz bir sistemə çevrildiyinin ən açıq əlamətlərindəndir.

İkiüzlülük insanın, biri xaricə qarşı göstərdiyi, biri də içində saxladığı olmaq üzrə iki ayrı xarakter göstərməsdir. Xaricə qarşı göstərilən hər zaman insanın saxta istiqamətlərini, daxildə gizlənən isə həqiqi düşüncələrini əks etdirən xarakteridir. Bu mövzunun əsil maraqlı yanı da, cahil cəmiyyətə daxil olan hər kəsin bu həqiqəti

bilməsi və qəbul etməsidir. Allah əhəmiyyətli bir ikiüzlülük nümunəsi olan münafiqləri Quranda belə xəbər verir:

**Onlar ürəklərində olmayanı dilləri ilə deyirlər ... (Fəth surəsi, 11)**

Cahil cəmiyyətin "arxadan danışmaq" olaraq adlandırdığı mühit, bu xarakterin ən diqqətə çarpan şəkildə yaşandığı anlardır. İnsan, bir hadisə və ya bir şəxs haqqındakı həqiqi dünyagörüşünü, ən açıq şəkildə bir başqası ilə etdiyi dedi-qodular əsnasında ortaya qoyar. Amma bu da tam olaraq həqiqi xarakteri deyil, çünki o anda birlikdə olduğu adam haqqındakı həqiqi fikirlərini də ondan gizlədir. Və bir başqasının yanında da o adam haqqındakı səmimi fikirlərini açıqlayacaq.

Eyni şəkildə adamın həqiqi xarakterini ortaya qoyduğu mühitlərdən digəri də mənfəətləriylə üz-üzə qaldığı anlardır. Məsələn, bir insan çox istədiyi bir şeyi etmədikdə və ya bir şəxs ilə fikir ayrılığı yaşayarkən həqiqi düşüncələrini saxlaya bilməz.

İkiüzlü xarakterin bir başqa xüsusiyyəti isə insanın əsil üzünü və həqiqi düşüncələrini gizləyə bilmək üçün qarşısındakı insanları həmişə aldatması və heç bir zaman səmimi davranmamasıdır. Bunun üçün özünə görə inkişaf etdirdiyi silah isə sünilikdir. Səmimiyyəti yaşamaq və həqiqi halını göstərmək yerinə, səmimiyyətin təqlidini etməyə çalışar. Bunu da bacara bilmədiyi üçün ortaya tamamilə süni davranışlar çıxar.

Hər kəsin səmimiyyətsiz, ikiüzlü və süni davrandığı mühitlərdə həqiqi dostluğun, sevginin və hörmətin mümkün olmayacağı isə açıqdır. Bunu gördükləri və narahatlığını hiss etdikləri halda cahil cəmiyyətin hələ də bu sistemi davam etdirməsi isə, səthi məntiq anlayışından qaynaqlanır. İnsanın həyatı boyunca heç bezmədən inanmadığı və yaşamadığı şeylərin təqlidini edərək, iki xarakteri bir arada davam etdirməyə çalışması həqiqətən də çox çətin və ağır bir işdir.

Səmimi olmanın, daxildə və xaricdə tək və sabit bir xarakter yaşamanın isə böyük bir rahatlığı və gözəlliyi vardır. Bu formadakı bir insan əmin və etibarlıdır; dürüst və səmimi olduğu üçün hər kəs tərəfindən sevilir və hörmət görür. Düzgünlük və səmimiyyət, islam əxlaqının insana təqdim etdiyi bir rahatlıqdır. Quranın hökmlərinə tabe olan insanın üzərinə özünü sıxacaq, davamlı rol oynamasına səbəb olacaq heç bir yük düşməz. Əksinə Quran, cahil cəmiyyətin batil inanclarını ortadan qaldırar və inananlara asanlıq təmin edər. Cahillik əxlaqının gətirdiyi qaranlıq mühitlər əvəzinə səmimi və isti bir mühit hazırlayar.

## Lağ etmək

Lağ etmək cahillik sistemində rəftar pozuqluğu olaraq deyil, daha çox sevinməyə ya da əyləncə şəkli olaraq qəbul edilir və bu səbəblə də, həyata keçirilməsində çox zaman problem görülməz. Bu cəmiyyətin fərdləri, başqalarını alçaldaraq özlərini böyütdüklərinə inanarlar.

Lağ etmək, yalnız sözlə deyil, bəzi hallarda üstüörtülü rəftarlarla da tətbiq olunar. Xüsusilə baxışlar, mimikalar, gülüşlər və dolayı yolla edilən "tənəli toxundurmalar" cahillik sistemində tətbiq olunan lağ etmənin "incəlikləri" olaraq qəbul edilir.

Bu "incəliklərin" nəsildən-nəsilə, cəmiyyətlərdən-cəmiyyətlərə necə ötürüldüyü və bu çirkin dili hər kəsin necə bildiyi isə cahillik sisteminin ən qaranlıq istiqamətlərindən biridir. Bu mövzunun incəliklərini və sirrlərini izah edən nə bir kitab vardır, nə də bunları öyrədən bir məktəb. Amma hər kəs bu mövzuda edilən ən kiçik bir rəftarın belə nə anlama gəldiyini bilir. Lağ etmək, açıq şəkildə deyilməyən, amma hər kəs tərəfindən bilinən və tətbiq olunan gizli bir dil kimidir.

Cahillik sistemində nələrin lağ edildiyinə gəldikdə, əvvəlcə bu mövzuda heç bir məhdudiyyət olmadığını qeyd etmək lazımdır. Aksent qüsurları, şikəstliklər ya da fiziki qüsurlar kimi insani nöqsanlarla yanaşı, dil dolaşması, asqırmaq ya da hıçqırmaq kimi həyatın hər hansı bir parçası da lağ etmək üçün mövzu edilə bilər. Birinin ayağının ilişib yıxılması qəhqəhələrlə gülünəcək bir hadisədir bu cəmiyyətə görə. Belə bir rəftarı hər kəs məqbul qarşılayar. Bu şərtlərdə dili dolaşan və ya bir yerə ilişib yıxılan adam da alçaldıldığını və lağ edildiyini fərq edərək bunun altında qalmamağa çalışar. Məsələn, canı şiddətlə ağrısa da, daha çox lağ edilməməsi üçün bunu gizlədər və bir şey olmadığını söyləyər. Hətta onunla lağ etmələrinə əhəmiyyət vermədiyini ifadə etmək məqsədiylə ətrafındakıların gülüşlərinə özü də qatılar.

Ancaq əlbəttə ki, göstərdikləri bu cahil rəftarlar, üzərlərində böyük bir çətinlik yaradır. Misal olaraq, kəkələyən bir insan ən yaxınım dediyi yoldaşlarının yanında belə rahat ola bilməz. Hətta lağ edilməsindən qorxduğu üçün çox vaxt danışmayıb, susmağı üstün tutar. Hər kəs bir-birinin yanında son dərəcə təmkinlidir.

Bu sistemdə baş verən lağ etmək mədəniyyəti, müəyyən bir seqmentə məxsus deyil. Kübar cəmiyyətlərində, gecəqondularda, iş mühitində, məktəblərdə yəni qısacası, cahillik əxlaqının hakim olduğu hər seqmentdə tətbiq olunur. Mədəniyyətə ya da müasirlik anlayışına görə dəyişənlik göstərməz. Nəticə olaraq ortaya çıxan mənzərə isə, həddindən artıq diqqət və güc sərf edilən, çətinlik verən bir mühitdir.

Halbuki, Quran əxlaqının yaşandığı mühitlərdə belə bir çətinlik yoxdur. Kimsə kimsəylə lağ etməz və qüsur axtarışı gözüylə baxmaz. Acizliklərin bütün insanlara xas xüsusiyyətlər olduğu bilinir, bunlardan ötrü kimsə alçaldılmaz. Əksinə, bunlar istəməyərək inkişaf edən və insanın əskikliklərini ifadə edən istiqamətlər olduğu üçün

şəfqət və mərhəmət gözüylə baxılar. Allah Quranda möminlərə bu əxlaqı əmr etmişdir:

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. (Hucurat surəsi, 11)**

Bununla yanaşı, ən əhəmiyyətlisi, bu lağ edən ruh insanları Allahı, haqq dini və axirəti də qavraya bilməyən bir mövqeyə gətirir. Həyata baxışı lağ etmək və "təlxək" olan adam, ölüm və axirət kimi ciddi mövzulara belə öz kiçik beyninə görə istehza ilə yaxınlaşaraq çox çirkin bir əxlaq göstərə bilər. Ayədə cahil cəmiyyətin insanlarına bu mövzu xatırlandığında necə istehzalı bir üslubla cavab verdikləri belə izah edilir:

**... "Bizi həyata kim qaytaracaq?" De: "İlk dəfə sizi yaradan!" Onlar istehza ilə başlarını yırğalayıb: "Bəs bu nə vaxt olacaqdır?" - deyəcəklər. De: "Bəlkə də, yaxın zamanda oldu!" (İsra surəsi, 51)**

Ancaq lağ edən adamın unutmamalı olduğu əhəmiyyətli bir mövzu vardır: Əgər tövbə edib bu rəftarını düzəltməzsə, bu rəftarları ona dünyada ağır və sıxıntılı bir mühit meydana gətirdiyi kimi, sonsuza qədər davam edəcək axirət həyatında da özünü düzəltməsi qeyri-mümkün olan hüsranla qarşılaşacaq:

**Sonra pislik edənlərin aqibəti, Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla çox pis oldu. (Rum surəsi, 10)**

## Emosionallıq və romantizm

Emosionallıq və romantizm, cahil cəmiyyətdə insanlığın bir gərəyi və həyatın bir həqiqəti olaraq qiymətləndirilər. Emosional olmamaq, cahillik əxlaqını mənimsəyən cəmiyyətlərdə pis bir xüsusiyyət olaraq qəbul edilir və qınanılır. Romantizmin isə özünə xas bir cadusu və gözəlliyi olduğu imici verilməyə çalışılır. Halbuki, emosionallıq "ağılın həddindən artıq dərəcədə bağlanması və insanın instinktlərinə təslim olub, onların istiqamətləndirməsi ilə hərəkət etməsi" deməkdir. Belə bir insan sağlam mühakimə edə bilməz, doğru qərarlar ala bilməz. Bir mərhələdən sonra da duyğularının özünü necə istiqamətləndirəcəyini özü də bilməz. Həmişə iş işdən keçdikdən sonra, olub-bitənləri qavrayıb, nə qədər səhv qərarlar aldığını görər. Qəfil və düşüncəsiz şəkildə çıxışları olar. Məsələn, romantizm ilə şəxs bir anda pessimizm,

ağlama ya da qısqanclıq böhranına qapıla ya da bir anda küsəyən olub səbəbsiz yerə ətrafından küsə bilər.

Dostluqlarında ölçü olaraq romantizmi axtaran insanların canlarını ən çox yandıran şey isə yenə bu davranışdır. Qarşılarındakı insanın nə zaman nə edəcəyini heç cür təxmin edə bilməzlər, əlaqə qura bilmək üçün yaxşı bir anı axtararlar. Həyatları bu insanların emosional gözləmələrini təmin etməklə keçər. Bir tərəfdən özləri də ətraflarından eyni rəftarı görmək istəyərlər. Bunu da "acı, amma digər tərəfdən də zövqlü" şəklində ifadə edərlər. Çünki cahil cəmiyyətin insanları, hər nə qədər çətinlik yaşasalar da, romantizmin gətirdiyi ağlamanın, pessimizmin ya da qısqanclığın özünə görə bir zövqü olduğunu düşünürlər. "Bunlar da olmasa həyat çox yavan olardı" kimi səthi yanaşmalarla ağılsızlıqlarını örtməyə, bu rəftarlarını normal göstərməyə çalışırlar.

Bu emosional ruh halı, insanda qaçınılmaz olaraq bir balanssızlıq yaradar. Daim melanxolik bir hava içində olduqlarından, heç bir şey onlara həqiqi mənada zövq verməz. Hər kəsin əyləndiyi, sevindiyi bir mühitdə, bu insanların kədərlənəcək və emosionallaşacağı mövzuları mütləq vardır. Hətta üzüldükləri mövzunu başlarında xəyali ssenarilərlə genişlədərək, daha da kədərli şəklə salmağa çalışarlar. Bu səbəblə də, xaricdə gülməyə çalışsalar belə, içində narahatlığın acısını çəkərlər. Rahat və hüzur içində yaşamaq varkən, çətinlik və əzab içində yaşamağı məqbul görərlər.

Romantik bir dünya içərisində yaşadıqları üçün qarşılaşdıqları hadisələrin təsirindən asan xilas ola bilməzlər. Məsələn, başlarına gələn pis bir hadisənin təsirini dərhal üzərlərindən atıb, ağıllı bir qiymətləndirməylə düzəltmək yolu varkən, bunu bir fürsət bilir və illərlə bu hadisəni emosionallaşmaq üçün bir səbəb olaraq istifadə edərlər.

Halbuki, insanların həyatdan zövq almalarını, müvəffəqiyyətli olmalarını, vicdan rahatlığı içində yaşamalarını təmin edən tək üsul ağıllı olmaqdır. Bu anlayışı isə yalnız Quran əxlaqı qazandırar. Quran hökmləri əsas götürüldüyündə, ağılı tamamilə örtən emosionallıq, yerini həll yolu tapmağa və müsbət bir dünyagörüşünə buraxar.

# AĞILLI İNSAN SÜNİLİKDƏN ŞİDDƏTLƏ ÇƏKİNƏR

**ADNAN OKTAR:** İlk olaraq, romantiklikdə hadisənin özü gülməlidir onsuz da. Bir insanın teatr sənətçisi kimi oynaması, oyun oynaması, həqiqi üzünü gizləyib, tamamilə süni mimikalar və üz ifadəsiylə, üslubla və danışmaqla, bir teatr səhnəsində bir oyun sərgiləyir kimi yaşaması, həm gülməli, həm çox çətin, həm də əzabdır. Belə bir insanla danışmaq da çox çətindir. Ki, insanların demək olar ki, bir qisminin mən süni olduğunu görürəm. Yəni ağıllı bir insan sünilikdən şiddətlə çəkinər, süni bir insanı seyr etmək, onunla danışmaq çox narahat edici bir şeydir.

Məsələn, qadınlarda da bəzən kişilərə qarşı elə hərəkətlər olur, kişilərdə də qadınlara qarşı süni davranışlar olur. Məsələn, böyük gənc oğlan qadın kimi ağlayır, yəni anormal hərəkətlər edir, emosional söhbətlər edir, bu qadını çox hirsləndirər, çox narahat edər. Qadının da süniliyi, sevmədiyi halda sevən kimi görünməsi, bəzən elə zəngin birini gördüyündə bir gənci, məhz əli-üzü də düzdürsə, avtomobili da varsa, anidən vurulduğunu, həyatda ilk dəfə belə bir şeylə qarşılaşdığını, daha əvvəl belə bir şeyi heç hiss etmədiyini söyləyərək o qəribimi elə aldadaraq yəni bir müddət sonra tam istədiyi xəttə qədər gətirə bilir.

Bir çiçək var, məsələn, həqiqi bir bənövşə vardır, bir də plastik bənövşə vardır, satılır, plastikdən düzəldilmiş. İndi sünilərini insanlar istifadə edir bir çox yerdə. Yəni o bənövşənin təqlidini etməyə çalışır, məsələn, eşqin təqlidini etməyə çalışır, aşiq tərzində bir teatr sənətçisi kimi nəsə etməyə çalışır, amma nəzərdə tutduğu insan bunu dərhal anlayır, yəni nə üçün sevirsən dediyində maşını üçün, evi üçün və görünüşü üçün deyir. Orada onsuz da eşq deyə bir şey qalmadığı açıq şəkildə məlumdur, çünki adamın görünüşü getdiyində, görünüşünə nəsə olduğunda ondan nifrət edəcəyi və dərhal qaçacağı məlumdur. Pulunun əlindən getməsi vəziyyətində da ondan qaçacağı məlumdur, avtomobilinin əlindən getməsi vəziyyətində da ondan qaçacağı məlumdur. O zaman bu oyuna nə gərək var, amma məhz bəzi zavallı insanları belə aldadırlar, o da inanır həqiqətən. (Cənab Adnan Oktarın 30 yanvar 2009 tarixli Kral Karadeniz TV reportajından)

## Ağlama ruhu

Emosional və romantik bir dünya görüşünün gətirdiyi çətinliklərdən biri də, bu insanların hər an hiss etdiyi səbəbsiz ağlamaq hərəkətidir. Cahil insanlarda, xüsusilə də qadınlarda belə bir hərəkəti meydana gətirən səbəb, içlərində ağlamanın vacibliyinə qarşı duyduqları batil bir inancdır. Ağlamağın gülmək, acmaq ya da yatmaq kimi insani və təbii bir ehtiyac olduğuna inanarlar. Kədərlərini və sıxıntılarını içlərinə atarlarsa, meydana gələn gərginliyin müxtəlif xəstəliklərə səbəb olacağını, amma əgər ağlayarlarsa, sinirlərinin boşalmasıyla birlikdə rahatlayacaqlarını zənn edərlər.

Bununla yanaşı, dünyaya həmişə mənfi və ümidsiz bir dünyagörüşüylə yaxınlaşmış olmaları da onlara ağlamağı lazımlı göstərən səbəblərdən biridir. Hər zaman hər mövzuda ağlanılacaq və sızlanacaq bir istiqamət taparlar. Bundan xilas olmaq üçün, mənfilikləri ortadan qaldırma və ya problemləri həll etmə yolu ilə getməzlər. Əksinə ağlamağa qarşı duyduqları dərin maraq və istəkdən dolayı, müxtəlif üsullarla bunu daha da artırmağı üstün tutarlar.

Bu batil inanc, cahillik əxlaqını yaşayan cəmiyyətlərdə demək olar ki, hər seqment tərəfindən qəbul edilməklə yanaşı, verilən təlqinlər səbəbiylə qadınlarda daha sıx olaraq nəzərə çarpar. Kişilərə doğulduqları andan etibarən "kişilər ağlamaz" məntiqi aşılanırkən, qadınlara da ağlamanın mərhəmət və şəfqət meydana gətirəcəyi istiqamətində təlqinlər edilər. Cahillik inanclarına görə qadın, kişiyə görə bədən cəhətdən daha zərif bir quruluşa sahib olduğuna görə, ruhən də eyni xüsusiyyətləri, eyni zəifliyi göstərməlidir. Qadınların daha zəif bir şəxsiyyət, hadisələrdən daha tez və daha çox təsirlənən daha həssas bir quruluş sərgiləməsi olduqca təbii qarşılanır. Qadın da özü üçün seçilən bu modeli sorğusuz-sualsız qəbul edib yaşamağa başlayar.

Bu ağlama rəftarı, bir acizlik və iradəsizlik olaraq qəbul edilməz. Kimsə bu rəftarı mənimsəyən digər insanları qınamaz və tərgitməz. Əksinə, gündəlik həyatın hər sahəsində bu əxlaqa həvəsləndirəcək və bunu gözəl göstərəcək vəsaitlərlə təqdim edilər. Filmlərin, TV proqramlarının, jurnalların ümumiyyətlə işlədiyi əsas mövzu budur. Hər birində cəmiyyətdə böyük maraq və rəğbət oyadan "şiddətli", dramatik səhnələr və acılarını, xoşbəxtliklərini, sevgilərini dilə gətirərək ağlayan insanlar yer alır. Romantik insanlar, öz ruhlarını əks etdirdiyi üçün bir mənada "özlərini tapdıqları" bu melanxolik mühitdən çox xoşlanar və bütün həyatlarını bu təlqinləri alaraq keçirərlər.

Artıq ağlamaq o qədər həyatlarına yerləşmişdir ki, özlərini yaxından maraqlandırmayan hadisələr belə ağlamaları üçün bir səbəbdir. "Kədərli" bir səs tonu ilə izah edilən bir xəbəri dinlərkən də, dramatik bir film izlərkən də ağlamaqda problem görməzlər. Hətta sevinc və xoşbəxtlik verici hadisələr qarşısında belə ağlamaya başlayarlar. Misal olaraq, hədiyyə alan, məktəbdən məzun olan, evlənən, uşaq sahibi olan, uşaqlarının müvəffəqiyyətlərini eşidən hər romantik insan niyə etdiyini bir dəfə olsun belə sorğulamadan ağlayar.

Bu məntiqi alaraq yetişən insanlar, bir müddət sonra ağlamanın, eyni zamanda lazım olduğunda istifadə ediləcək əhəmiyyətli və güclü bir silah olduğunu da fərq edərlər. Həqiqətən də cahillik sistemində ağlamaq, normal şərtlərdə əldə edilə bilməyən bəzi şeylərin səmimiyyətsiz yollarla əldə edilməsi üçün tətbiq olunan ən təsirli üsullardan biridir. Çünki ağlama, cahil cəmiyyətdə acıma hissi oyandıran əhəmiyyətli bir vasitədir. Normal şərtlərdə tolerantlıq göstərməyəcəkləri bir çox şeyi, ağlayan birini gördüklərində acıma duyğuları dövrəyə girdiyi üçün qəbul edərlər.

Ağlayan bir uşaq müəyyən mənfəətlər qarşılığında bu hərəkətini dayandırdığı üçün, həyatının sonrakı dövrlərində də ağlamanı bir silah olaraq istifadə edər. Yalan danışdığında özünü haqlı göstərmək üçün, günahkar olduğu zaman bunu ört-basdır edib günahsız təəssüratı vermək üçün, ətrafında mərhəmət hissi oyandırıb dəstək almaq üçün, səmimiyyətsiz davrandığı bir mövzuda səmimiyyətinə inandırmaq ya da sırf diqqət çəkib maraq mərkəzi olmaq üçün artıq həmişə bu üsula müraciət edər.

Halbuki, Allah bu rəftarı bəyənmir. Allaha inanıb güvənən bir insan belə zəif xarakter göstərməz və bu hərəkətdən ötrü mənfəət gözləməsi içində olmaz. Quranda bildirildiyi üzrə ağlamanın, gözəllik olmadığı **"elə isə qazandıqlarının cəzası olaraq az gülüb çox ağlasınlar" (Tövbə surəsi, 82)** ayəsiylə bildirilmişdir.

Cəhənnəm xalqının dünyada qazandıqlarına qarşılıq olmaq üzrə artıq istəsələr də sevincə, rahatlığa və hüzura qovuşa bilməyəcəkləri də Quranda bildirilmişdir. Buna baxmayaraq, insanların bilərəkdən öz iradələri ilə cəhənnəm əxlaqını yaşatmağa çalışmaları isə, cahil rəftardan başqa bir şey deyil. Kədərli və bədbəxt bir ruh halının ancaq cəhənnəm xalqının bir xüsusiyyəti olduğu Quranın bir çox ayəsində ifadə edilmişdir.

**Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar. (Əla surəsi, 10-11)**

**Mən sizi alov saçan bir odla qorxutdum. Ona ancaq ən bədbəxt kimsə girər. (Leyl surəsi, 14-15)**

**Qiyamət gəldiyi gün Allahın izni olmadan heç kəs danışa bilməz. Onlardan kimi bədbəxt, kimi də xoşbəxt olacaq. (Hud surəsi, 105)**

Məhz cahil insan da Qurandan uzaq olmalarının qarşılığını daha bu dünyadaykən görməyə başlayar.

## Küsəyənlik

Cahil cəmiyyətin, adi qarşıladığı, halbuki son dərəcə anormal olan romantikliyin səbəb olduğu rəftar pozğunluqlarından biri də küsəyənlikdir. Adından da aydın olduğu kimi emosional bir insanı istiqamətləndirən faktorlar duyğularıdır. Duyğuların ön planda olduğu bir kimsədə isə ağıl geri planda qalır. Bu səbəblə də, insan hadisələri açıq bir şüur və sağlam bir məntiqlə qiymətləndirə bilməz. Məhz küsəyənliyin çıxış nöqtəsi də budur; hadisələrin yanlış bir məntiqlə qiymətləndirilməsi ...

Bu ruh halındakı bir insan ətrafında olub bitən bütün hadisələrin həmişə öz ətrafında olduğunu zənn edər. Hər kəsin hər an ondan bəhs etdiyini, ya da ona bir şeylər eyham etmək istədiyini düşünər. Bu səbəblə ətrafında baş verən bütün hadisələrdən özünə pay çıxarar və inciyər. Cahil cəmiyyətin demək olar ki, hamısına hakim olan bu yanlış rəftar bəzi kəslərdə vəsvəsə halına çevrilmişdir. Xüsusilə yaş irəlilədikcə insanlardakı küsəyənlik da artar. Bu əxlaqı yaşayan bəzi yaşlılar yanlarında edilən əlaqəli-əlaqəsiz hər söhbəti və hər rəftarı öz üzərlərinə götürərlər. Böyük qayğı ilə baxıldıqları halda kimsənin, öz uşaqlarının belə özlərini sevmədiyini, evdən göndərmək istədiklərini, yediklərinin içdiklərinin, hər şeylərinin külfət olduğunu və qarşı tərəfin də davamlı bunu eyham etməyə çalışdığını düşünürlər.

Əslində bu əxlaq cahil cəmiyyətin yaşadığı etibarsız mühitin bir nəticəsidir. İnsanın yaşadığı mühit küsəyənliyə səbəb olan çox pis rəftarla doludur. Misal olaraq, insan inciyər, amma qarşı tərəfin mərhəmətsiz, məmnuniyyətsiz, ikiüzlü ya da kinli olduğunu açıq şəkildə görür. Bu vəziyyətdə də bir çox rəftarın əslində qəsdən edildiyini düşünür. Lakin bu, küsəyənliyin haqlı ya da məqbul olduğunu ortaya qoymaz, ancaq cahillik sisteminin kökdəki pozuqluğunu göstərməsi baxımından olduqca əhəmiyyətlidir. Məsələn, uşaqlarının yanında qalan yaşlı bir insan bəhsi keçən mövzularda küsəyənlik edər, amma düşündükləri əslində böyük ölçüdə də doğrudur. Həqiqətən də istənilmir və çox sevilmir; ancaq qarşı tərəf bu düşüncələrini ört-basdır edərək bəlli etməməyə çalışır.

Cahil insanlar, doğulduqları andan etibarən özlərinə təqdim edilən bu romantik və küsəyən xarakteri, həyatlarının sonuna qədər üzərlərindən ata bilməzlər. Ancaq ziyanını da çox dadarlar. Hər kəsin dostyana rəftar içərisində olduğu mühitlərdə belə küsəyən kəslər həqiqi sevinci və xoşbəxtliyi yaşaya bilməzlər. Hər kəs əylənərkən, bir küncdə sakit və küskün oturan, həyatları boyunca yalnız olan həmişə özləri olurlar.

Göründüyü kimi, cahillik əxlaqının hər istiqaməti bir-birindən daha qorxunc mühitlər meydana gətirər. Quran əxlaqında isə insanların içində yaşadığı əxlaq nədirsə, xaricindəki rəftar da onun güzgüsü kimidir. Bəyənmədiyi, səhv olduğuna inandığı və söyləmək istədiyi bir şey olduğunda mömin bunu baxışlarıyla, rəftarlarıyla ya da eyhamlı sözlərlə deyil, birbaşa danışıqları ilə açıq şəkildə ifadə edər. Eyni şəkildə içərisində olduğu mühit də bu ruhu yaşayan insanlardan meydana gəldiyi üçün, kimsə küsəyənlik etməz. Allah Quranda insanlara "yaxşılığın əmr edib pislikdən çəkindirməsini" gözəl əxlaqın bir zərurəti olaraq bildirmiş və beləcə də küsəyənliyin meydana gələ biləcəyi vəziyyətləri tamamilə ortadan qaldırmışdır.

## Yalançılıq

Cahil cəmiyyətlərdə tez-tez qarşılaşılan əxlaq pozğunluqlarından biri də yalançılıqdır.

Dürüst və səmimi bir insanın yalan danışması üçün heç bir səbəb yoxdur. Ancaq həyatını səmimiyyətsiz bir sistemin gətirdiyi qaydalar üzərində quran insanın, bu yanlış sistem içərisində müvəffəqiyyətli ola bilməsi üçün yenə yanlış bir üsula, yəni yalana müraciət etməsi lazımdır. Yalan isə ucu-bucağı olmayan və sərhəd tanımayan bir əxlaq pozuqluğudur. Bir dəfə bu yolun etibarlılığına inanan insan, bunu bir həyat forması halına çevirər və artıq həm dili, həm də məntiqi bu çirkin üsula alışar. Hər məcbur qaldığı nöqtədə yalana müraciət edər.

Bu, həyati mənada bir zərər gətirmədiyi müddətcə cahil insanlar tərəfindən də tərgidilməyən bir üsuldur. Müəyyən bir nöqtəyə qədər, hamısı zaman-zaman ən səmimi dostuna belə yalan danışmağın heç bir qorxusu olmadığını müdafiə edər. Amma əgər yalan birinin maddi ya da mənəvi mənada zərər görməsinə səbəb olarsa ya da daha da əhəmiyyətlisi maraqlarına toxunacaq olarsa, bu vəziyyətdə yalanın əslində çox da yaxşı bir şey olmadığı mövzusunda fikir yürütməyə başlayarlar. Nəticədə yalan, cahil cəmiyyətdə insanların həm özlərinin tətbiq etdiyi, həm də narahatlığını duyduqları bir davranış pozuqluğudur. Amma dünyadakı zərərindən də çox axirətdə adama verəcəyi zərər əhəmiyyətlidir.

Allah **"... yalan söz söyləməkdən də çəkinin" (Həcc surəsi, 30)** ayəsi ilə insanları yalan söyləməkdən çəkindirmişdir. Həmçinin, **"Yalanı, ancaq Allahın ayələrinə inanmayanlar uydururlar ..." (Nəhl surəsi, 105)** ayəsi ilə də yalan söyləyən insanların necə bir inancı olduğunu da xəbər vermişdir.

Necə ki, Allaha qəti olaraq iman edən, Quran əxlaqını tətbiq edən kəslərdən meydana gələn bir cəmiyyətdə yalan danışmağa ehtiyac olmaz. Məsələn, cahillik əxlaqında, kimsə səhv etdiyində bunun bilinməsini istəməz və ört-basdır etmək üçün yalan söyləyər. Və ya həqiqi dost olmadığı insanlara özünü dost kimi göstərmək üçün yalan söyləyər, mənfəət və gəlir əldə etmək üçün insanları aldatmaq məqsədiylə yalan söyləyər. Mömin isə səhv etdiyində bunu gizlətmək yerinə o səhvdən imtina edər ya da meydana gətirdiyi təxribatı düzəltməyə çalışar. Həqiqətən dost olmadığı, fikirlərini, həyat tərzlərini mənimsəmədiyi insanlarla səmimi dostluqlar qurmaz, yalnız Allahın razı olacağı insanlarla birlikdə olar. İnsanlara mənfəət və qazanc əldə etmək üçün yaxınlaşmaz. Görünənin və bilinənin xaricində gizli bir istiqaməti ya da gizli bir həyatı yoxdur; bu səbəblə bu mövzuda yalan söyləyəcək bir şeyi olmaz. Bu əxlaq sayəsində də mömin həyatı boyunca öz həqiqi xarakterini yaşamanın rahatlığını dadar.

## Ötərilik

Cahillik mədəniyyətində yaşanan ötərilik, cəmiyyətin yalnız müəyyən bir seqmentinə xas bir vəziyyət deyil, əksinə çox sıx rast gəlinən bir rəftar pozuqluğudur. Lakin çox insan bu vəziyyəti üzərin götürməz və ötəriliyi yalnız, aşağı mədəniyyət, mədəniyyətsiz və cahil insanlara aid etməyə çalışar. Halbuki bu rəftar hər mədəniyyətdə fərqli nümunələrlə yaşanmaqla yanaşı, təməldə eyni məntiqin bir

məhsuludur; zəkası, mədəniyyəti və təhsili hər nə olursa olsun cahillik əxlaqını üzərində saxlayan hər insanda görülən bir davranışdır.

Ötərilik əslində cahillik əxlaqı olaraq təsvir etdiyimiz bütün rəftarları əhatə edən pis bir həyat şəklidir. Ötəriliyi bir dəfə qəbul edən insan, yeri gəldiyində cahillik əxlaqının hər cür səthiliyini yaşaya biləcək meyillilik göstərər. Məsələn, qazancları və mənfəətləri istiqamətində zaman-zaman yalan söyləyə bilər, tamahkar bir rəftar göstərə bilər, qısqanc, əsəbi ya da eqoist bir quruluş sərgiləyə bilər. Burada ötəriliyə əsil təməl təşkil edən, insanın dünyaya olan ehtirası və mənfəətləri istiqamətində nəcib və gözəl bir əxlaqdan asanlıqla güzəştə getməsi və cahillik rəftarlarını tərəddüdsüz qəbul etməsidir.

Bu nöqteyi-nəzərdən ötəriliyin ilk çıxış nöqtəsinə döndüyümüzdə bunun, bütün digər rəftarlar kimi uşaqlıq illərinə əsaslandığını görərik. Ailəsindən "müəlliminə hədiyyə apar, aranı yaxşı elə", "yemək sıranı kimsəyə vermə, dərhal ən önə keç", "başqa uşaqlara əsla yeməyindən vermə", "olur-olmaz hər kəsə kömək etmə, aciz mövqeyinə düşərsən", "pulunu ac olan olsa belə kimsəyə borc vermə, hər kəsin ailəsi var, onlar versin","atana belə güvənmə" kimi təlqinləri alaraq yetişən insanlar, həyatın belə ötəri bir məntiq üzərində qurulduğuna inanmağa başlayarlar. Bundan sonrakı bütün həyatları, təməlini aldıqları bu ruhun inkişaf etmiş nümunələriylə doludur. Məsələn, iş həyatına atıldıqlarında aşağı səviyyələrdə işləyənlərə əmrlər yağdıran şirkət müdirləri, şirkətin sahibi gəldiyində bir anda əzik, şəxsiyyətsiz və fağır bir görünüşə bürünərlər. O şəxsiyyətli insan getmiş, yerinə müdirin gözünə girə bilmək üçün olduqca "yaltaqlıq" edən bir insan gəlmişdir. Belə insanlar, danlanmağı, alçaldılmağı gözə alarlar və bundan heç bir şəkildə "inciməzlər".

Halbuki, bəhsi keçən kəslərin çoxu universitet məzunu, mədəni insanlardan ibarətdir. Amma onlar da yüksələ bilmək üçün bunları etmək məcburiyyətində olduqlarına, bunların həyatın bir həqiqəti olduğuna inanarlar. Bunun ötərilik olduğunu bilir, amma soruşanlara da "bu zamanda işlər belə gedir" deyə cavab verirlər. "Günün birində çətində olsaq ya da tapşırıq etdirməyimiz lazım olsa bizə kömək edəcək, arxamızı söykəyə biləcəyimiz biri olsun" düşüncəsiylə bu insanlara illərlə "yaltaqlıq" edərlər. Bununla yanaşı, burada əsil hörmət göstərdikləri, müdirlərinin özü ya da şəxsiyyəti deyil, pulu, vəzifəsi və etibarıdır.

Eyni əxlaqı ev həyatlarına da daşıyarlar. Misal olaraq, istəmədikləri bir dostları qonaq gəlmək istədiyində, telefonda tələm-tələsik bir yalan uydurur və gəlməmələri üçün evdə olmayacaqlarını söyləyərlər. Bəzən də qapıları döyüldüyündə evdə yoxmuş kimi səs çıxarmadan qonağın getməsini gözləyərlər. Qonaq qarşılamağı əzab olaraq görər və qonaq daha gəlmədən "dayandıq yerə iş çıxdı başımıza" kimi bir məntiqlə sözlər deyərlər. Bütün bunlara baxmayaraq, bir qonaq qarşılayarlarsa da, mümkün qədər ucuz başa gələcək yolla etməyə çalışar və ara-sıra "nə zaman gedəcəklər" deyə arxa otaqlarda deyinərlər. Gedər-getməz də onların arxasınca onları "çəkişdirməyə" başlayarlar. Üzlərinə qarşı fərqli, arxalarından fərqli bir rəftar göstərmənin ötərilik

olduğunu çox yaxşı bilir, amma buna baxmayaraq bunu tətbiq etməkdən heç çəkinməzlər.

Bu çirkin əxlaq həyatın hər mərhələsində özünü göstərir. Məsələn, avtobusda daha yaxşı bir yer tuta bilmək üçün, kiçik-böyük saymadan hər kəsi itələyərək avtobusa hücum etməkdə heç bir problem görməzlər. Ya da özləri çox sağlam və gənc olduqları halda, yaşlı və ya xəstə birinin ayaq üstə qalmasına əhəmiyyət verməz "üzsüz" bir rəftarla oturmağa davam edərlər. Yenə eyni şəkildə pulsuz yemək paylayan bir yer gördüklərində, ehtiyac içində olmadıqları, istəsələr evlərində çox daha yaxşısını tapa biləcəkləri halda bu ötərilik istəyinə məğlub olar və görməmiş kimi oraya hücum edərək "acgözlüklə" yeyərlər. Getdikləri alış-veriş mərkəzlərində hədiyyə olaraq paylanan vəsaitlərdən bol-bol ala bilmək üçün dəfələrlə sıraya girər, uşaqlarını da ayrıca sıraya salaraq bu imkandan maksimum istifadə etməyə çalışarlar. Başqalarının bu mənfəətçiliyinə şahid olmalarına da əhəmiyyət verməzlər. Çünki bu, öz ötəri məntiqləri üçün dünya həyatını daha yaxşı yaşamanın bir yoludur. Əksinə özlərini "ayıq", ötəri həyata tənəzzül etməyən insanları "saf" olaraq xarakterizə edərlər.

Halbuki, "ayıqlıq" deyə ifadə etdikləri şey, mənfəətçilik və eqoizmdən başqa bir şey deyil. Yenə eyni şəkildə "saf" kimi təyin etdikləri kəslər də bu əxlaqa tənəzzül etməyən şərəfli insanlardır.

Quranın təqdim etdiyi əxlaq modelini yaşayan insan isə ən üstün və ən nəcib rəftarı ortaya qoyar. Bu əxlaqı üzərinə alan bir insan ruhunda alçaqlığa heç bir zaman icazə verməz. Şərtlər nə olursa olsun, dünya həyatının mənfəətləri üçün əxlaqından güzəştə getməyə əsla tənəzzül etməz.

## Təqlid ruhu

Cahil cəmiyyətdə tez-tez rast gəlinən bir xüsusiyyət də "təqlid ruhu" dur. Cahil insanların özlərinə yaraşdırmayıb başqalarına aid edərək, bəzən qınayaraq, bəzən də alçaldaraq bəhs etdikləri bu xüsusiyyətə bir çox insanda rast gəlinə bilər.

İdeal modelin nə olduğunu isə, hər mövzuda olduğu kimi özləri deyil, cahil cəmiyyəti müəyyən edər. Din əxlaqından uzaq olan bir cəmiyyətdə "keyfiyyətli" ola bilmək üçün sahib olunmalı xüsusiyyətlər hər kəs tərəfindən bilinir; yaxşı bir təhsil almaq, xarici dil bilmək, tez-tez xarici ölkələrə səyahət etmək, keyfiyyətli əyləncə yerlərinə getmək, marka paltarlar geymək, son model avtomobillərə sahib olmaq, limitsiz pul xərcləmək və bütün bunları tez-tez dilə gətirmək ... Məhz cahil cəmiyyətinin təqlid etdiyi model budur. (Bu arada qeyd etmək lazımdır ki, yaxşı bir təhsil almaq, xarici dil bilmək təbii ki, gözəl xüsusiyyətlərdir, amma bu insanların səhvi bu xüsusiyyətlərini özlərinə görə "təkəbbürlənmə" ünsürü olaraq istifadə etmələridir)

Ancaq çox insan üçün bu standartlarda bir həyat davam etdirmək mümkün olmaz. Məhz "təqlid ruhu" da bu nöqtədə ortaya çıxar. Bu həyatı əldə edə bilməyən insanlar, heç olmazsa bunun təqlidini edərək bu anlayışa sahib insanlar arasında etibar əldə etmək istəyərlər.

Təqlid ruhunun gündəlik həyatda görünüşlərinə baxdığımızda, çox geniş bir fərqliliklə qarşılaşarıq. Misal olaraq, ən azı bir, mümkünsə bir neçə xarici dil bilmək, cahil cəmiyyətin səthi "keyfiyyət" anlayışında ilk sıralarda yer alır. Ancaq bunu ifadə etmək lazımdır ki, saxta peşəkarlıq da, ən az xarici dil bilmək qədər əhəmiyyətlidir. Danışarkən ara-sıra xarici sözlər istifadə etmək, xüsusilə də azərbaycanca əvəzinə xarici dildə danışmağın daha rahat olduğu ab-havasını vermək üçün azərbaycan dilini xatırlamırmış kimi etmək ya da xarici sözləri şişirdilmiş bir aksentlə istifadə etmək cahil cəmiyyətdə "özündən razılıq" sayılan, ancaq çox alçaldıcı və ötəri bir davranışdır. Belə edilincə qarşı tərəf də bir anda bir çox imic sərgiləyir. Əvvəlcə bu adam yəqin ki, xarici dildə təhsil verən xüsusi və bahalı bir kollecdə oxumuşdur. Buna görə də, zəngin bir ailənin uşağıdır. Sözün azərbaycancasını xatırlamadığı halda, xarici dildəki qarşılığını dərhal tapması isə, onun xarici dilə daha alışqan olduğunu göstərir. Elə isə böyük ehtimalla ya təhsilini xaricdə tamamlamış, ya uzun illər xarici ölkələrdə yaşamış, ya da tez-tez xarici ölkələrə səyahətlərə çıxmışdır.

Halbuki çox vaxt, ətraflarına özlərini bu imiclə tanıtmağa çalışan insanlardan bəzilərinin doğru düzgün tək bir xarici dil belə bilmədiklərini, zəngin bir ailəyə mənsub olmadıqlarını və həyatlarında bir dəfə də olsun ölkə xaricinə çıxmadıqlarını görərik.

Təqlid ruhu yalnız xarici sözlər istifadə etməklə ortaya çıxmaz əlbəttə. Bu kəslər, keçirdikləri bir qəzanı belə təkəbbürlənmə vəsiləsi olaraq istifadə etməyə çalışarlar. Məsələn, yolda gedərkən biləklərini incidərlər, amma ətraflarına "təkəbbürlənmək" məqsədiylə, xizək sürərkən ayaqlarını qırdıqlarını söyləyərlər. Bu onlar üçün həqiqətən də inanılmaz bir fürsətdir. Belə ki, bəzən gipsə alınması zəruri olmadığı halda, sırf görənlərin "ayağına nə oldu?" sualını soruşmaları və beləcə özlərinə şöhrət qazanacaqları bir cavab verə bilmək üçün bu üsula müraciət edə bilər. Bunun xaricində, gipsli bir qol və ya ayaq, üzərinə atılan imzalar və yazılan qısa mesajlar səbəbiylə də son dərəcə əhəmiyyətlidir. Mesajların sayı artıqca ətrafa nə qədər "məşhur" bir insan olduqlarını isbatladıqlarını düşünərlər. Çox vaxt günəşdən yanmalarının arxasında da yenə bu təqlid ruhu durar. Tətildən döndüklərində hər kəsin "harada yandın belə?" deyə soruşması, özünə görə təkəbbürlənmək üçün ideal bir imkan yaradar.

Yalnız bir neçəsinə toxunduğumuz bu xüsusiyyətlər belə, cahil cəmiyyətdə məşhur olan təqlid ruhu haqqında fikir sahibi olmağımızı təmin edir. Əlbəttə, bu nümunələrdə sərgilənən rəftarların tək başına bir mənası yoxdur. Sözləri aksentlə söyləmənin, xarici terminlər istifadə etməyin heç kimsəyə bir zərər gətirməyəcəyi aydındır. Ancaq bu nöqtədə əhəmiyyətli olan, insanların içlərində daşıdıqları, dünyaya

istiqamətli "təqlid" dir. Dünyada müvəqqəti olaraq yaşadığını, ölümün yaxın olduğunu düşünən ağlı başında, şüuru açıq bir insan, bunların heç birinin axirətdə üstünlük və ya fayda verməyəcəyini anlayar. Məhz cahil cəmiyyətinin insanlarının əskikliyi bu istiqamətdədir. Bu insanlar əsassız və boş əməllərlə məşğul olur və həyatlarının əsil məqsədini unudurlar.

Üstünlüyü, cahil cəmiyyətin təyin etdiyi "keyfiyyət anlayışı" nda axtarmaq isə, insanı sonu gəlməyən yorucu bir yarış içinə salar. Təqlid etdikləri modelə çatmaq üçün müxtəlif qəliblərə girmələri və bu uğurda əxlaqi dəyərlərini bir kənara buraxmaları lazımdır. Bunun nəticəsində isə əllərinə keçən heç bir şey olmaz. Hətta çox vaxt, heyranlıqla arxasından qaçdıqları kəslər də onları "təqlidçi" deyə xarakterizə edib alçalda bilər.

Quranı və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini rəhbər edən inananlar, cahil cəmiyyətin, nə qədər boş bir məşğuliyyət içində olduğunun ən başından bəri şüurundadırlar. Bu səbəblə də, heç bir zaman Quranda tövsiyə edilənlər xaricində təqlid etdikləri bir model olmaz. Dünyanın ən zəngin, ən gözəl, ən mədəni və ya ən bilikli insanı da olsalar, bunları heç bir zaman üstünlük vəsiləsi olaraq dəyərləndirməzlər. Bütün bunların özlərinə Allahın vermiş olduğu nemətlər olduğunu bilərək, bu imkanlardan ən yaxşı şəkildə istifadə edər və Rəbbimizə şükür edərlər. Amma bunun xaricində insanlara qarşı üstünlük yarışına girməyə əsla tənəzzül etməzlər. Çünki Allah ayəsində əsil üstünlüyün insanların təqvalarında gizli olduğunu bildirir. Möminin bunun xaricində təqlid edəcəyi və yetişməyə çalışacağı heç bir ölçü və meyar yoxdur. İnsan, həyatı boyunca heç bir zaman marka geyim geyməmiş və ya bir dəfə belə xaricə çıxmamış ya da tək bir xarici dil belə öyrənməmiş ola bilər. Ancaq bunların heç bir əhəmiyyəti yoxdur, Allah Qatında ən üstün olan insan, təqvaca ən irəlidə olandır:

**... Həqiqətən, Allah yanında ən üstün olanınız, təqvaca ən irəlidə olanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

## Qoçu rəftarı

Cahil cəmiyyətin üstün ola bilmək və güclü görünə bilmək üçün ortaya çıxardığı başqa pis xüsusiyyət də "qoçu rəftarı" dır. Ancaq qoçu dedikdə ağıla yalnız xalq arasında bilinən mənasıyla küçələrdə avaralıq edən kəslər gəlməməlidir. Burada ilk olaraq vurğulanmaq istənilən, o bilinən qoçu rəftarın, cəmiyyətin müxtəlif seqmentlərinə nə şəkildə əks olunmasıdır. Çünki bu, ən zənginindən ən kasıbına, ən mədənisindən, ən təhsillisindən ən cahilinə qədər, qadın kişi ayrılmadan, Allah qorxusu olmayan hər insanda ortaya çıxa bilən çirkin bir xüsusiyyətdir.

Bu mədəniyyəti, hər nə olursa olsun altda qalmağı qəbul etməyən, həmişə haqlı çıxma iddiasında olan kəslərdə sıx olaraq görmək mümkündür. Bu insanlar kimsənin

özlərinə fikir verməsinə, hətta yalnız istiqamətləndirməsinə belə dözə bilməzlər. Olduqları mühitdə hər zaman tək söz sahibi insan olmaq istəyərlər. Bu sistemi qura bilmək üçün də, qoçu ruhunu əks etdirən bir xarakter göstərərlər. Belə bir kimsənin ətrafına verdiyi imic, əgər üzərinə gediləcək olsa hər an nəzarətdən çıxa biləcəyi və ağıla gələ biləcək hər cür şeyi edə biləcəyi şəklindədir. Bu səbəblə, bu mesajı alan ətrafı da, belə bir insandan çəkinər. Başqalarına rahatlıqla söyləyə biləcəkləri sözü ya da heç düşünmədən tədbiq edə biləcəkləri rəftarı, qoçu əxlaqını hiss etdirən bir insana asan şəkildə edə bilməzlər. Belə ki, kiçik-böyük demədən, ən zənginindən ən vəzifəli insana qədər hər kəs bu kimsədən ciddi mənada qorxar. Necə ki, bu insanın yaratmaq istədiyi təsir də budur onsuz da; insanların ondan çəkinməsi və bundan ötrü də heç bir şeyinə qarışmağa qalxmamaları. Amma təbii ki, bu insana qarşı duyulan utancaqlıq hörmətdən qaynaqlanmaz. İnsanlar bu kimsəyə sayğı göstərirmiş kimi davranırlar, amma əslində daxilən nifrət bəsləyirlər. Və əllərinə keçən ilk fürsətdə də etdiklərinin qarşılığını vermək üçün gözləyirlər.

Əvvəldə də ifadə etdiyimiz kimi bir də həqiqi mənada qoçular vardır. Bu kəslər də insanlar üzərində ciddi mənada bir çəkinmə və qorxu hissi oyandırarlar. "Yaxşı, bu insanlar belə ciddi bir təsiri necə olur da meydana gətirərlər?" deyə soruşacaq olsanız, bunun xalq arasında "gözü qara" deyə ifadə edilən rəftarla əldə edildiyini söyləyə bilərik. Əlbəttə, dünyəvi heç bir itkidən qorxmamaq və Allaha qul və dost olmaq üçün gözü qara olmaq çox gözəl və tərifəlayiq bir davranışdır. Möminlər Allah yolunda cəsur və qərarlı insanlardır və yalnız Allahdan qorxarlar. Ancaq cahillik əxlaqında qəsd edilən bu gözüqaralıq əsla müsbət mənada deyil və "dəlilik" dərəcəsindədir. Belə bir kimsə heç bir şeydən, heç kimdən qorxmadığını, bu səbəblə də heç bir qayda tanımayacağını, "ağlına hər gələni" edə biləcəyini həmişə hiss etdirər. Tanımadığı bu qaydalar arasında fərdi hüquqlardan, ictimai qaydalara, dövlətin qanunlarına qədər hər cür prinsip yer ala bilər.

Belə bir insanın əsəbləşdiyində, əsəbini məğlub etmək kimi bir xüsusiyyəti yoxdur. Əksinə əsəbiləşdiyi zamanlarda bu əxlaqını çox daha əhatəli olaraq yaşaya biləcəyi üçün, ümumiyyətlə hər şey yolunda getsə, çox hüzurlu və şən mühitlər içərisində belə olsa, o həmişə səbəbsiz bir əsəb və kin içərisindədir.

Ətrafına əsil qorxu salan şey də, onun bu səbəbsiz əsəbi və hər zaman tərs olan davranışlarıdır. Bəzən yalnız baxışlardan belə rahatlıqla aydın olan bu tərs davranışlar, qarşı tərəfin dərhal düzəlməsinə və bu kimsənin qəzəbinə hədəf olmamaq üçün həddindən artıq çox "gözə girməyə" çalışmağına səbəb olar. Bu da, qoçu mədəniyyətini yaşayan kimsənin hədəflədiyi nəticələrdən biridir. Ancaq bu şəkildə özünə hər kəsdən üstün və güclü olduğunu hiss edə bilər. Qoçu ruhunu yaşayan kimsə ətrafındakı insanlara ən yaxınları belə olsa, maddi-mənəvi şiddət tətbiq etməkdən çəkinməz. Qapıları çırpmaq, təhdidlər etmək, kin dolu baxışlarla baxmaq, tərsləmək, azğınlıq dolu əl-qol hərəkətləriylə çıxmaq, qışqırıb-çığırıb danlamaq, təhqir etmək, küfr etmək, söymək bu əxlaqın yalnız sözlərdə xaricə yansıyan əksidir.

Bununla yanaşı qorxu yaratmaqda istifadə etdikləri ən böyük silahları isə fiziki zorakılıqdır. Bu qaranlıq ruhu yaşayan insanların zorakılıq etmə mövzusunda da heç bir sərhədləri yoxdur. Çünki onlar bunu məqsədsiz olaraq, yalnız başqalarını alçaldaraq öz üstünlüklərini hiss etdirmək və güc nümayişi göstərmək üçün tətbiq edərlər. Üzərlərindəki bu düşüncəsizlik, ağır yaralamağı, hətta cinayət işləməyi də normal qarşılayacaq xüsusiyyətdədir. Bu ruhdakı insanların çoxu, hər hansı bir problemlə qarşılaşanda, qarşılarındakı insan, həyat yoldaşları, uşaqları belə olsa mövzunu danışaraq həll etməkdənsə, birbaşa olaraq hücum etməklə həll yolunu seçərlər. Çox vaxt da sürətlərini azalda bilməyərək ciddi təxribatlar meydana gətirərlər. Ancaq həm şifahi, həm də feli olaraq tətbiq olunan bu rəftarlarıyla ətraflarında "nifrət dolu" da olsa cahilcə bir hörmət meydana gətirməyi bacararlar. Əlbəttə ki, bu hörmət, qorxudan başqa heç bir məna ehtiva etməz.

Halbuki, Allah Quranda qəti olaraq ədaləti əmr etmiş, hər cür zülm və zalımlığı da qınamış və qadağan etmişdir:

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

**Biz onlardan əvvəl özlərindən daha qüvvətli neçə-neçə nəsilləri məhv etdik. Onlar diyarbədiyar gəzib dolaşırdılar. Məgər əzabdan qaçıb qurtara bildilərmi?" (Qaf surəsi, 36)**

**... Allah hər bir təkəbbürlü zülmkarın qəlbini belə möhürləyir. (Mömin surəsi,** 35)

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da başqasının adını mənimsəyən fırıldaqçıya...(Qələm surəsi , 10-13)**

Unudulmamalı olan nöqtə isə, bu əxlaqın qadın-kişi fərq etmədən Allahdan qorxmayan bir çox insanda görünə biləcəyidir. Cahil cəmiyyətdə "qoçu" deyilincə, ağıla ilk gələn kəslər "kişilər" olur. Halbuki, hər nə qədər adı qoyulmamış olsa da, bəzi qadınlar da bu çirkin əxlaqı imkanları əl verdikcə yaşayarlar. Misal olaraq, kübar cəmiyyətə mənsub bir qadının bu cəsarətinin arxasında puluna, ya da nüfuzuna olan etibarı durar. Qarşısındakı insanları hər nə bahasına olursa olsun alçaldar. Ya da saxta etibar sahibi olduğu üçün, qarşı tərəfin hörmət göstərmək məcburiyyətində olduğunu, əks halda əlində saxladığı imkanlarıyla onlara lazım olan qarşılığı verə biləcəyini düşünərək təkəbbürlənər. Bu səbəblə də, əskiklik çıxartmaqdan, tərsləməkdən və ətrafındakı insanları alçaltmaqdan heç çəkinməz.

Kənar məhəllələrdə isə vəziyyət çox daha fərqlidir. Qoçuluğu yaşayan insanlar arasında yetişdiyi və hətta bəlkə də atası, əri, oğulları da bu kəslərdən meydana gəldiyi üçün, burada yaşayan bir qadın, qoçu əxlaqını hər istiqamətiylə yaşayar. Bağıra-bağıra məhəllə aralarında gəzmək, küfrlər edərək mübahisə etmək qədər, məhəllənin digər qadınlarıyla ya da gəncləriylə "saç-saça, baş-başa" döyüşmək də bu qadınlar üçün olduqca adi bir vəziyyətdir. Bu şəkildə, ondan çəkinilməli olan insanlardan olduğunu və özünə qarşı "səhv edilməməsi" lazım olduğunu ətrafına hiss etdirməyə çalışar.

Cahil cəmiyyətdə bir də, bu ruhu yaşayan insanların öz aralarında bir "üstünlük yarışı" vardır. Qoçu ola bilmək üçün izlənilməli olan üsullar, edilməli olan proqramlar və yerinə yetirilməli olan vəzifələr vardır. Bu ünsürlərin ən əhəmiyyətlilərindən biri rəftarlarıdır. Danışma, getmə, əl-qol hərəkətləri, baxış, duruş müəyyən bir tərzdə olmalıdır. Yanakı getmə, yuxarıdan və qaş qaldıraraq baxma bunlardan bir neçəsidir. Xüsusi bir danışma tərzi mənimsənilməli, müəyyən sözlər istifadə edilməli, qəlibləşmiş xitablar seçilməlidir. Bəzən həddi aşmaq və bu tip mövzularda qorxusuz olmaq da başlıca xüsusiyyətlərindəndir. Özünü bu "mərtəbəyə yüksəldəcək" bir "cinayətinin" olması şərtdir. Cinayət törətmək, adam yaralamaq, döyüşmək, sərxoş olub hadisə çıxarmaq kimi hər cür şiddət ünsürü, bəhsi keçən bu qoçuluq yarışında, kişiləri önə keçirən incəliklərdir. Bütün bu xüsusiyyətlər kimin üzərində daha çoxdursa, aralarında "ən qoçu" olanın o adam olduğuna inanırlar. Və öz aralarında bu kimsəyə qarşı mənasız bir hörmət edərlər.

Halbuki bu insanlar, Quranda bizə öyrədilən əxlaqa görə, "yer üzündə haqsız yerə təkəbbür" içindədirlər. Bütün gücün Allaha aid olduğunu və Ondan müstəqil hərəkət edə bilməyəcəklərini qavraya bilməzlər. Ona "möhtac" olduqlarını düşünməzlər. Bu səbəblə, doğrunu səhvdən ayıra bilməzlər. Onlar doğru yol əvəzinə "azğınlıq" yolunu mənimsəyirlər:

**Haqsız olaraq yer üzündə təkəbbürlük göstərənləri ayələrimdən uzaqlaşdıracağam. Onlar bütün möcüzələri görsələr də onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bu ona görədir ki, onlar ayələrimizi inkar edir və onlara məhəl qoymurdular" (Əraf surəsi, 146)**

**... ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur... (Mömin surəsi, 56)**

Bu seçimlərindən ötrü də dünyada sanki cəhənnəmə bənzər bir mühit meydana gətirərlər. Bu mühitdə həyatlarını davam etdirərkən əslində öz əlləriylə özlərinə zülm edirdilər. Amma bu həqiqəti heç cür görə bilməzlər.

Quran əxlaqını yaşayan insanlar isə onların qaranlıq ruhundan tamamilə uzaqdırlar. Hər şeydən əvvəl Allaha qarşı acizliklərini tam olaraq bildikləri üçün, "böyüklük" iddiası içərisində deyildirlər. Həmişə mötədil və sabit bir rəftar sərgiləyər və bunun sayəsində hər zaman yanlarında olarkən rahatlıq duyulan insanlar olarlar. Həmçinin üstünlüyün "cahil rəftarlarıyla" ya da "şiddətlə" deyil, "təqva" və "gözəl əxlaq" ilə əldə edilə biləcəyini bilirlər. Heç bir zaman tək söz sahibi olma iddiasında olmazlar. Ayədə ifadə edildiyi kimi hər zaman "doğru olana" uyarlar. Allah inananlara tolerantlığı, ədaləti əmr etmişdir:

**And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik və insanlar ədalətli olsunlar, onlarla birlikdə Kitab və tərəzi nazil etdik ... (Hədid surəsi, 25)**

**Biz onların nə dediklərini daha yaxşı bilirik. Sən onların üzərində hakim deyilsən; Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver. (Qaf surəsi, 45)**

**Həqiqətən, Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Bununla Allah, sizə nə gözəl öyüd-nəsihət verir! .. Doğrusu, Allah Eşidəndir, Görəndir. (Nisa surəsi, 58)**

# Cahil cəmiyyətin qorxuları və mübtəlalığı

Cahil cəmiyyət insanları, tək mütləq gücün Allaha aid olduğu həqiqətini qavraya bilməz və bunun nəticəsində də hər şeydən ayrı-ayrı qorxarlar. Bu qorxu onlara həyat boyu davam edən bir çətinlik və sıxıntı gətirər. Qarşılaşdıqları hər hadisə onlar üçün bir narahatlıq səbəbidir. İnsanlar belə onlar üçün bir qorxu mənbəyidir; hər an hər hansı birindən özlərinə zərər gələ biləcəyini düşünərlər. Eyni şəkildə təbiət hadisələri də qorxu duyduqları bir başqa mövzudur. Zəlzələnin, selin, qasırğaların özbaşına hadisələr olduğunu zənn edərlər.

Quranda, Allaha iman gətirib yalnız Ondan qorxmaq yerinə, müxtəlif saxta ilahlar edən insanların vəziyyətləriylə əlaqədar belə bir nümunə verilmişdir:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. Əslində, sən də öləcəksən, onlar da öləcəklər! Sonra siz Qiyamət günü Rəbbinizin yanında mübahisə edəcəksiniz. (Zumər surəsi, 29-31)**

Ayədə bildirildiyi kimi, cahil cəmiyyətin bir çox saxta ilaha sahib insanları, **"sahibləri çox şərikli kölə olan bir adam"** kimi, öz meydana gətirdikləri saysız qorxu ilə yaşayarlar. Evlənə bilməmək, uşaq sahibi ola bilməmək, xəstələnmək, çirkinləşmək, yaşlanmaq, başqalarına möhtac vəziyyətə gəlmək, iflasa uğramaq, işdən çıxarılmaq, pulsuz qalmaq, ac qalmaq cahil cəmiyyətin minlərlə qorxusundan yalnız bir neçəsidir. Bunlarla yanaşı bir də mübtəla halına gətirdikləri batil inancları vardır. Misal olaraq, qaranlıqdan qorxarlar, nərdivan altından keçə bilməzlər, qara pişiyə baxa bilməzlər ...

Sonrakı səhifələrdə cahil cəmiyyətin inkişaf etdirdiyi bu qorxuların növlərini və özlərinə həm dünyada, həm də axirətdə gətirdiyi itkiləri araşdıracağıq.

## Xəyanətə məruz qalmaq qorxusu

Cahil insanlar, yoldaşları, uşaqları, anaları, ataları da daxil olmaq üzrə ətraflarındakı heç kimə güvənə bilməzlər. Hər kəsin lazım olduğunda mənfəətləri uğruna özlərinə xəyanət edəcəyini düşünərlər. Bu qorxularında əslində haqlıdırlar da. Çünki yaşadıqları sistem Quran əxlaqına uyğun olmayan batil bir sistemdir.

Quran əxlaqının tətbiq olunmadığı yerdə isə, həqiqi mənada etibarlılıq, sədaqət ya da vəfa kimi əxlaqi xüsusiyyətlər yaşanmaz. Bu xüsusiyyətlər ancaq Allah qorxusu və axirət inancı ilə ortaya çıxar. Cahil insanlar Quran əxlaqının təqdim etdiyi təhlükəsizlik mühitini yaşaya bilmədikləri üçün həyatları boyunca "xəyanətə məruz qalmaq qorxusu" ilə yaşayarlar. Xəyanətə məruz qalmalarının qarşısını almaq üçün öz

ağıllarına görə aldıqları ən yaxşı tədbir, kimsəyə güvənməməkdir. Bunu ifadə etmək üçün istifadə etdikləri deyimlərdən biri də "bu dövrdə atana belə güvənmə" sözüdür.

Bu sözə əməl edər və özlərindən başqa heç kəsə etibar etməzlər; ancaq bu onların xəyanətə məruz qalmalarına mane olmaz. Xəyanət nümunələrinə qəzetlərdə, TV kanallarında tez-tez rast gəlinir. Misal olaraq, bir iş adamı, kiçik bir rəsmi əməliyyat üçün verdiyi vəkalətnamə ilə, arvadının bütün malını, mülkünü öz üzərinə keçirərək onu tərk etdiyinə şahid olunur. Ya da iş ortağı onu aldatmış, bütün malını, mülkünü üzərinə keçirərək ölkəni tərk etmişdir. Bəzən uşaqları belə öz atalarını aldada bilir.

Bu nümunələr şübhəsiz ki, saysız deyiləcək qədər çoxdur. Cahillik insanları da cəmiyyətin hər seqmentində bunlara tez-tez rast gəldikləri üçün, hər an eyni şeylərin öz başlarına da gələ biləcəyini düşünərək böyük bir qorxu duyarlar.

# ŞÜBHƏLƏNMƏK, ALLAH SEVGİSİNDƏN UZAQLAŞMANIN GƏTİRDİYİ BİR BƏLADIR

ADNAN OKTAR: *Quran əxlaqını tam yaşamış olsalar, cənnətə çevrilər ortalıq. Niyə bir-birimizə salam vermirik çöldə? Niyə gözəl bir şey görəndə ona baxmırıq? Mən mağazalara gedirəm, baxıram məsələn, çox gözəl şeylər var, insanı çox maraqlandıran şeylər var. Bir qisim insanlara baxıram sanki bir robotdur. Çox mənasız gözlərlə gedir. Bələdiyyə çox gözəl çiçək salma işləri etmişdir, çiçək tarlaları etmişdir. Bir nəfər baxan insan görmürəm. Halbuki hamısı çox mükəmmməl varlıqlardır onların, olduqca çox gözəl şeylərdir. İnsan saatlarla baxsa doymaz onlara. Maraqlanmırlar. Xəbəri yoxdur. Onu heç maraqlandırmır çiçəyin gözəlliyi, uşağın gözəlliyi. Kiçik, çox şahanə, gözəl uşaqlar olur, göz təmasına belə keçmir, basıb keçir adamlar. Necə olur bu? Halbuki, Allaha həmd etmək lazım deyilmi? Ailəsini təbrik etmək lazımdır, "Allaha həmd olsun, Allah sizə nə gözəl uşaq vermişdir" demək lazımdır.*

*Bir mağazaya girəndə insan salamla girər, hal-əhval soruşar. Dava edər kimi gedirlər mağazalara. Mən bu yaxınlarda bir mağazaya girmişdim. Bütün hər kəs gərilmişdir. Bir nəfər adam oturmuş, belə psixopat olduğu bilinir üzündən. Müdhiş gərgindirlər. Onu bəyənmir, tərs danışır, onu gətirirlər onu da bəyənmir, onlara da tərs danışır, belə təhqir edici bir üslubu var. Adam getdikdən sonra birdən sevincləri gəldi. Birdən açıldılar, sevindilər. "Hocam" dedilər "bunlar, bu paltarlar sizə layiqdir" və s. dedilər, eyham etdilər bu tip insanlara layiq deyil kimisindən. Onsuz da o insanlar 5-6 kvadrat metrlik bir yerdə yaşayırlar. Bunların hüzurunu pozmağın mənası nədir? Yəni orada əxlaqsızlıq etməyin mənası nədir? Gələn insan oradakı insanların xoşbəxtlik dağıtmasını düşünməsi lazımdır. Çünki onlar bizlər üçün oradadırlar və əmək sərf edirlər, Allah rizası üçün deyilmi? ... Xeyr, dünyanın qanunu budur deyə bilirlər. Küfrü əxlaqda, Quran xarici əxlaqda başqa cür yaşayırlar.* ***Atana belə güvənməyəcəksən sözü var, çox böyük bir əxlaqsızlıqdır, çox qorxunc bir ifadədir. Nə deməkdir, atana belə güvənməyəcəksən? Nə üçün güvənməməliyik? Bizim güvəndiyimiz bir çox dostlarımız olsun, sevdiklərimiz olsun. "Mənə toxunmayan ilan min il yaşasın". Nə demək bu? Sənə toxunmursa çox məzluma toxunacaqdır o. O ilanı mütləq yox etməmiz lazımdır.*** *Mədəni cəhətdən, elmi cəhətdən təlqinlə mütləq yox etməmiz lazımdır. Belə çirkin, xudbinliyi, eqoizmi təşviq edən çox cəmiyyətdə söz var. Bunlarla yetişdirildikləri üçün insanlar eqoist, xudbin yaşamanın xaricində yaşana bilinməyəcəyini düşünürlər. Allah əsirgəsin ən son iddia olaraq, çox çirkin bir iddiadır bu, necə ki, "ölməmək üçün öldürəcəksən" məntiqi və hər kəsə qarşı bir qurd, bir çaqqal ruhu ilə hərəkət edirlər. Qarşına gələni belə əzmək, onları təhqir etmək sanki şərtmiş, qanunmuş kimi düşünürlər.* ***Belə xoşbəxt ola biləcəklərini, belə məqbul yaşayacaqlarını, xoşbəxt deyil də, canlı qala biləcəklərini düşünürlər. Allah heç bir şəkildə hüzur vermir o zaman. Çünki təkrar söyləyirəm, ən böyük nemət əllərindən alınır. Ehtiras və dərin sevmə gücü əllərindən alınır. Artıq bioloji varlığı qalmış olur.***

*Yəni bir mal-qara kimi, heyvan kimi bir varlıq ortalarda gəzişir. Bax, gedir buterbrod alır, onu yeyir, sonra onu yerə atır, millətə tərs söz deyir, bir şeylər edir, təhdidedici bir üslubu var, hər sözdən şübhələnir ... Birincisi, böyük bir şübhə duyğusu yayılmış, bu çox qorxunc bir şeydir. Nədir bu belə? O şəkildə yaşanarmı? Bu sübhəçilik nədir belə? Hətta necəsən desən, altında nəsə axtarır. Elə olurmu? Sevgi, maraq, əlaqə göstərdiyində şübhə; dostluq göstərəndə şübhə edir; salam verincə şübhə ... Belə şey olmaz, belə həyat olmaz. Mütləq güvənə əsaslanan, sevgiyə əsaslanan, şəfqətə əsaslanan bir quruluş olması lazımdır. Bu da ancaq Quran əxlaqıyla olur, Quranda ittifaq etməklə olur inşaAllah. Əslində təbii ki, bir təhsil problemidir bu. Əvvəl Quranı sevdirmək, Peyğəmbərimiz (s.ə.v)-i sevdirmək, peyğəmbərləri sevdirmək, din əxlaqının həqiqi olduğunu insanlara izah etmək lazımdır. (Cənab Adnan Oktarın Kanal 35 reportajından, 14 fevral 2009)*

## Kasıblıq qorxusu

Cahil cəmiyyətdə bir çox insana hakim olan qorxu da, "kasıblaşma qorxusu" dur. Onları bu qorxuya sürükləyən başlıca səbəb, cahillik sisteminə istiqamət verən ünsürlərdən birinin "pul" olduğunu bilmələridir. Pulları olduğunda öz ifadələriylə "kürəklərinin yerə gəlməyəcəyini", amma əks halda həmişə əziləcəklərini və çətinlik içərisində yaşayacaqlarını düşünərlər. İstədikləri kimi yaşaya bilməyəcək, istədikləri kimi yeyib-içə və istədikləri kimi söz sahibi ola bilməyəcəklər.

Bununla yanaşı, cahil cəmiyyətdə bu mövzuda əsil diqqət çəkən, ən zəngin olanların belə bu qorxudan özlərini qurtara bilməməsidir. Misal olaraq, özünə, ailəsinə, uşaqlarına, hətta bütün qohumlarına və dostlarına illərcə çatacaq qədər pulu olduğu halda, bəzi insanlar bu qorxularından ötrü xəsislik deyilən xəstəliyə tutularlar. Tədbirli olma adı altında bütün pullarını bir kənarda saxlamağı üstün tutarlar. Üstəlik, bunu edərkən məqsədləri dünyada rahatlıq tapmaqdır, amma hər şey tərsinə inkişaf edər və öz-özlərini heç də rahat olmayan bir mühit içinə salarlar.

İstər kasıblıq qorxusu, istərsə də bunun yol açdığı xəsislik, bu insanların Allaha güvənməmələrindən qaynaqlanır. Quranda insanlar bu qorxuya qapılmamaq mövzusunda xəbərdar edilmişlər:

**Şeytan sizi yoxsulluqla qorxudur və sizə çirkin həyasızlığa əmr edir. Allah isə sizə bağışlanmaq və bol lütf vəd edir. Allah (öz lütfü ilə) genişdir, biləndir. (Bəqərə surəsi, 268)**

Bu qorxularını məğlub etmələri isə, ancaq Quranın hökmləri əsasında düşünmələri və hərəkət etmələri ilə mümkün olar. Çünki Qurana tam olaraq əməl edildiyində, Allah qorxusu xaricindəki bütün qorxulara səd çəkilmiş olar.

Səmimi imana sahib insan, mülkün yeganə sahibinin, özünə ruzi verən Allah olduğunu bilir. Bu səbəblə də, bunu özü üçün bir qorxu halına gətirməz. Onu yaradan, ona nemət və bolluq verən Allahın fəzli genişdir və istədiyinə bu lütfündən verir. Üstəlik, inananlar sonsuz bir zənginlik yurdu olan cənnətlə müjdələnmişdir. Əgər Allah bir insana kasıblıq və ya yoxluq təqdir etmişdirsə, bunda da çox böyük xeyirlər və hikmətlər vardır. Bu vəziyyət, bəlkə də o insanın iman dərinliyini, əxlaq gözəlliyini artıracaq, axirətdə çox gözəl məqamlar əldə etməsinə vəsilə olacaq. Buna görə də, Allaha təvəkkül edən möminlər, Allahdan gələn hər şeyə razı olarlar və lazımsız qorxulara heç bir zaman düşməzlər.

## Yaşlılıq qorxusu

Gənclik və gözəllik, cahil cəmiyyətin əhəmiyyət verdiyi başlıca mövzulardandır. Cahillik əxlaqını yaşayan insanlar həyatları boyunca bu iki xüsusiyyəti mühafizə etmək üçün böyük bir həvəslə səy göstərərlər. Ancaq bunun əsla mümkün olmadığını da hər kəs bilir. Gec-tez bir gün yaşlanacağını, bədəninin əldən düşəcəyini, gözəlliyinin itəcəyini bilmək, cahillik əxlaqına sahib bir insan üçün böyük bir zərbədir. Qadınlar bu qorxularını daha açıq bir dillə ifadə edərkən, kişilər bunu bildirməməyə çalışar, amma daxildə bu qorxunu yaşayarlar. Çirkinləşmək və xüsusilə də acizliklərinin açıq şəkildə ortaya çıxması onları ciddi şəkildə narahat edər. Çünki illərcə davam etdirdikləri böyüklük iddiaları, yaşlanmaqla sona çatacaq. Hər gün aynanın qarşısına keçib, dərilərində ya da bədənlərində olan dəyişikliklərə qorxuyla baxarlar. Amma hər nə qədər çalışsalar da, bir nöqtədən sonra heç bir şəkildə qarşısını ala bilməzlər.

Yaşlılıqda davam etdirilən bir həyat, gəncliyin hökm sürdüyü illərin təqdim etdiyi mühitdən çox daha fərqlidir. Cahil insanlar çox vaxt ona baxmağın bir külfət olduğunu və narahatlıq verdiyini hiss etdirərlər yaşlı insana. Uşağı ya da həyat yoldaşı kimi ən yaxın ətrafı belə ancaq dözmə gözüylə baxmağa başlayar. Onu kimsəyə faydası olmayan, əksinə qocalıb gətirdiyi xəstəliklər səbəbiylə daim xərc çıxaran biri olaraq qiymətləndirərlər. Həm istənmədiyini, həm də möhtac olduğunu bilmək, onda bir başqa qorxu daha meydana gətirər. Hər an ortada qalma ya da kimsəsizlər evi kimi istəmədiyi yerlərə göndərilmək narahatlığını yaşayar. Əslində bu narahatlıqlara düşməkdə də haqlıdır. Çünki Allahdan uzaq insanlardan ibarət bir cəmiyyətdə bu ədalətsiz, şəfqətsiz sistem hakimdir. Qorxduqları demək olar ki, başlarına gələr.

Ancaq bunun xaricində yaşlanma qorxusunun arxasında duran bir başqa səbəb də, yaşlılığın ölümü və dünya həyatının sonunu xatırlatmış olmasıdır. Aynaya hər baxdığında müddətin daha da qısaldığını bilmək, inancsız bir insan üçün böyük əzab səbəbidir. Axirət həyatına inanmayan bir insan üçün, dünyanın sona çatması, bədənin yox olması geri dönüşü olmayan bir sondur. Bütün həyatını bunlar uğrunda sərf etmişdir; bu səbəblə bunları itirməkdən şiddətlə qorxar.

İnananlar isə nə yaşlanmaqdan, nə də acizliklərinin ortaya çıxmasından qorxarlar. Çünki onlar dünya həyatlarında nə gəncllikləriylə, nə də gözəllikləriylə yer

əldə etməyə çalışmazlar. Xarici gözəlliyin deyil, əxlaqi gözəlliyin əhəmiyyətli olduğunu bilir və dostları arasında da Allaha olan bağlılıqları və gözəl əxlaqları səbəbindən sevildiklərini unutmazlar. Bununla yanaşı, yaşlılığın ölümü xatırlatmasından da qorxmazlar. Çünki axirət onlar üçün, dünyayla müqayisə edilməyəcək gözəllikdə, sonsuza qədər davam edəcək yeni bir həyatın başlanğıcı olacaq. Dünya həyatı boyunca Allahın razılığını və cənnətini qazanmaq üçün gözəl davranışlarda olduğunu bilən və vicdanı rahat olan bir insan, yaşlılığı da sevinclə qarşılayar.

## Xəstələnmə qorxusu

Dünyaya bağlı yaşayan kəslər xəstələnməkdən də şiddətlə qorxar və həyatları boyunca bu narahatlıq içərisində olarlar. Xəstəliyə səbəb olan mikrob və virusların Allahdan müstəqil və qarşısı alınmaz güc olduğu səhvinə inanarlar. Bu səbəblə də, onları öz-özlərinə çarə tapa bilməyəcəkləri qorxu mərkəzləri olaraq görərlər.

Onlar üçün xəstəlik demək, hər şeydən əvvəl dünyadan məhrum qalmaq deməkdir. Ötəri qrip xəstəliyi belə onları bir çox fəaliyyətdən saxlayacaq və beləcə onsuz da qısa olan ömürlərindən bir qismini daha alacaqdır. Tam bir ayaq bağı olaraq xarakterizə etdikləri xəstəliklər, daha çox pul qazanmalarını, gəzmələrini, yemələrini, içmələrini qısacası, hər şeylərini məhdudlaşdıracaq. Bu da onların sistemlərini kökündən alt-üst edər.

Xəstəliyi belə bir bəla və müsibət olaraq görər və hər an xəstələnmə narahatlığı ilə yaşayarlar. Buna qarşılıq möminlərin xəstəliyə olan dünyagörüşləri cahillik məntiqinə zidd bir quruluş göstərər. Əvvəla, möminlər dünya həyatının bir gün, bir şəkildə, mütləq son tapacağını çox yaxşı bilirlər. Bu səbəblə, xəstəlikdən qaçsalar, bir qəzaya ya da ən azından yaşlılığın təbii axışına mütləq düşəcəklərini bilirlər. Bununla yanaşı, nə virusun, nə də bakteriyanın Allahın izni olmadan heç kəsə yaxınlaşmayacağını da unutmazlar. Əgər buna baxmayaraq, xəstələnərlərsə də, bu xəstəliyi Allahın bir hikmətlə verdiyini və özləri üçün bir çox xeyir ehtiva etdiyini açıq şəkildə görə bilərlər. Allaha və qədərə olan təslimiyyətlərindən ötrü də xəstəlik qorxusu kimi bir çətinliyi heç bir zaman yaşamazlar. Əlbəttə xəstələnməmək və sağlamlıqlarını qorumaq üçün ağıllarını sonuna qədər istifadə edərlər; ancaq buna baxmayaraq bir xəstəliyə tutularlarsa, ayədə də ifadə edildiyi kimi gözəl əxlaq və səbir göstərməyə davam edərlər:

**... Ayaqda, çətinlikdə və cihad zamanı səbir edənlər. Məhz bunlar, doğru olanlardır və Müttəqi olanlar da onlardır. (Bəqərə surəsi, 177)**

## Cahil cəmiyyətin ölüm qorxusu

Cahil cəmiyyətin ən böyük qorxularından biri isə ölüm qorxusudur. Ancaq ölümdən qorxarkən və heç düşünməməyə çalışarkən unutduqları bir şey var: Ölüm həqiqətini nə edərlərsə etsinlər dəyişdirə bilməzlər. Quranda ölümdən qaçış olmadığı insanlara belə xatırladılmışdır:

**Hər harada olsanız, ölüm sizi tapar; hündür yerlərdə təhkim edilmiş qalalarda olsanız belə ... (Nisa surəsi, 78)**

**De ki: "Əlbəttə sizin özündən qaçdığınız ölüm, şübhəsiz sizinlə qarşılaşıb-görüşəcək. Sonra siz gizlini də, aşkarı da bilən (Allah) a qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir." (Cümə surəsi, 8)**

Ayələrdən də aydın olacağı kimi, ölüm hər insan üçün qaçınılmaz bir sondur. Dünyanın ən zəngin, ən etibarlı və ya ən yüksək mövqe-vəzifə sahibi də, ən gözəl insanı da mütləq öləcək və sahib olduğu bu xüsusiyyətlərdən heç biri onu xilas edə bilməyəcək.

Cahil cəmiyyətin insanları da bu həqiqəti çox yaxşı bildiklərindən, ölümü mümkün olduğu qədər gecikdirmək və dünyanı bir az daha yaşamaq istəyərlər. Ölüm onları mallarından, övladlarından, bütün sevdiklərindən ayıracaq və dünya üçün xərclədikləri əməkləri boşa çıxaracaq. Bu səbəblə də, ölümdən şiddətlə qorxarlar. Belə ki, çox vaxt "ölüm" sözünü ağızlarına belə almaq istəməz, ölümü xatırladan insanlara da "düşüncəsiz" kimi sözlər deyərlər. Ölüm xatırlandığında, bu mövzunu danışmağın lazım olmadığını söyləyərək qarşı tərəfi susdurarlar.

Yaşlılıq, xəstəlik kimi ölümü xatırladan mövzularla mümkün olduğu qədər həmsöhbət olmamağa çalışarlar. Bu qorxuları elə şiddətlidir ki, bəzən həkimə getməkdən belə narahat olarlar. Əgər kiçik bir şey üçün həkimə gedəcək olsalar, həkimin daha ciddi bir xəstəlik diaqnoz etməsindən qorxarlar. Bu narahatlıq səbəbiylə bir narahatlıqları olduğunda belə, həkimə getməməyi seçə bilərlər. Keflərinin ən çox pozulduğu və qorxularının ən şiddətləndiyi vəziyyətlər isə, cənazə mərasimləridir. Ən yaxın dostlarının, qohumlarının kəfən içərisində torpağın altına endirilməsini seyr edərkən, istər-istəməz özlərinin də sonunda ölümlə qarşılaşacaqlarını xatırlayarlar. Ona görə bu cür mühitlərdən mümkün olduğu qədər uzaq durmağa çalışarlar.

Bu qorxuları onlara, gözlədiklərinin tam tərsini gətirər. Onlar dünya həyatını itirməkdən qorxarlar; ancaq uzun illər yaşasalar da bütün bir ömrü qorxu içərisində keçirərlər. Məhz bu da, onların Allahdan qorxmaq yerinə batil qorxular əldə etmələri nəticəsində içinə düşdükləri bir bəladır.

## Cahil cəmiyyətin batil inanc mübtəlası

Cahil cəmiyyətdə kor-koranə mənimsədilən bir mövzu da batil inanclardır. Adından da aydın olduğu kimi bu inancların məqbul və ağıllı düşünən bir insan üçün heç bir etibarlılığı yoxdur. Ancaq Allaha iman etməyən, buna görə də həqiqi dini tanımayan insanların, ağıldankənar bir çox mübtəla etməsi son dərəcə təbiidir.

Batil inancların ən əhəmiyyətli istiqamətlərindən biri, əsrlərdir dildən-dilə, nəsildən-nəsilə ötürülərək gəlmələridir. Nə qədər əsassız və məntiqsiz olsalar da, bir çox cəmiyyət bunlara sahiblənmiş və daha da inkişaf etdirərək özlərindən sonrakı nəsillərə öyrətmişlər.

Cahil cəmiyyətin insanları isə, həqiqi din əxlaqını tətbiq etməyə əsla yanaşmamalarına baxmayaraq, son dərəcə mənasız olan bu qaydalara tamamilə sahib çıxarlar. Belə ki, bu qaydaları bir qanun kimi qəbul edib, heç güzəştə getmədən tətbiq edərlər. Misal olaraq, nərdivan altından keçərlərsə, başlarına pis şey gələcəyinə inanar, bu səbəblə yollarını dəyişdirərlər. Ya da çox gülərlərsə ardından çox ağlayacaqlarını düşünər, bu səbəblə gülmələrinə hakim olarlar. Gecə vaxtı qəbiristanlıqdan keçə bilməzlər. Hər hansı mənfi söz eşitdikləri an taxtaya bir-iki dəfə vurarlar. Bağlı yerlərdə qala bilməz, başlarına pislik gələcəyini düşünərlər. Bu qaydalar saymaqla bitməyəcək qədər çoxdur və cahillik insanları bunların hər birinə qarşı dərin bir qorxu duyar. Əgər bu inanclarının əksini tətbiq edəcək olsalar, başlarına böyük bir fəlakət gəlməsindən narahatlıq duyarlar.

Burada düşdükləri ən əhəmiyyətli səhv isə, şahid olduqları hər hadisənin və hər varlığın Allahın nəzarəti altında olduğunu unutmalarıdır. Yoxsa nə nərdivanın, nə qəbiristanlıqdakı sümük parçalarının, nə də bağlı bir məkanın özlərinə aid müstəqil bir gücü yoxdur. Ancaq cahil cəmiyyət öz törətdiyi bu batil inanclara qarşı bəslədiyi qorxularla öz əlləriylə özlərinə çətinlik meydana gətirərlər.

Cahil cəmiyyətin batil inanclarından bir başqası da bəzən bir rəqəmin, bəzən bir rəngin, bəzən də bir insanın fəlakət gətirəcəyi mübtəlasıdır. Bunların ən məşhur olaraq bilinənlərindən biri 13 rəqəmidir. Bu rəqəmin fəlakət gətirəcəyi mübtəlası sanki ümumbəşəri bir həqiqət kimi qəbul edilmişdir. Dünyanın harasına gedirsiz gedin, Quran məntiqindən uzaq olan bir çox insan bu rəqəmdən ciddi bir narahatlıq duyar. Yenə eyni şəkildə çox insan qara rəngin xüsusilə də qara pişiyin fəlakət işarəsi olduğunu düşünür. Qarşılaşdıqlarında pişiyə baxmamağa çalışar və yollarını dəyişdirərlər. Bu mövzuda, cahil cəmiyyətin özlərinə istiqamətli qorxuları da vardır. Məsələn, başlarına pis bir şey gəldiyində üzərlərində olan paltarları həyatları boyunca bir daha geyməzlər. Ya da bir dəfə qəza etdikləri avtomobillərində bir pislik olduğuna inanır, bir daha minməz və dərhal satışa çıxararlar.

Bu batil qorxular, cahil cəmiyyətin həyatına yön verəcək qədər güclüdür. Edəcəkləri bir çox işdən bu qorxuları səbəbiylə imtina edər, bir çox insanla bu qorxuları səbəbiylə dostluqlarına son qoyarlar. Halbuki, mübtəlalarından imtina etmədikləri müddətcə qorxularından da xilas ola bilməzlər. Bu səbəblə, həll yolu

bunlardan qaçmaqda deyil, bu qorxunu kökdən yox etməkdir. Bu da ancaq insanın cahillik inanclarını tərk edib, Allahın əmr etdiyi əxlaqı yaşaması ilə mümkün olar.

## Cahil cəmiyyətin qorxuları

Hər insanın müxtəlif qorxuları olması cahillik sistemində son dərəcə adi qarşılanır. Cahillik əxlaqını yaşayan kəslərin hamısının ən az bir neçə qorxusu şübhəsiz vardır. Kimisi böcək görməkdən, kimisi göy gurultusundan, kimisi yüksəklikdən, kimisi dar və sıxılmış yerlərdə qalmaqdan, kimisi də qaranlıqdan şiddətlə qorxar.

Qorxu duyduqları bu fobilərin bir qismi həqiqətən də tədbir almağı tələb edən məsələlərdir. Ancaq cahil cəmiyyətin duyduğu qorxu, təbii bir reaksiya göstərməkdən ya da tədbir almaqdan çox uzaqdır. Çoxu, qorxduqları şeyləri televizorda, qəzetdə, hətta bir cizgi filmində də görməyə qatlana bilməz. Misal olaraq, böcək sözü keçdiyi anda, ya da bir ilan rəsmi gördüklərində tamamilə nəzarətdən çıxacaq qədər özlərini itirərlər. Bəzən qışqırıqlarla özlərini yerə atar, hətta şəklin ya da televizorun üzərinə nəsə ataraq şişirdilmiş hərəkətlər edərlər. Bəziləri bağlı yerləri, qəbiristanlıq və ya torpağın altı kimi bir məkanla əlaqələndirərlər. Ölüm və yox olma qorxuları, bu fobiyaları ilə xaricə yansıyır. Qaranlığa qarşı duyduqları qorxunun səbəbi də budur əslində. Qaranlıq ilə fəlakətləri başlarında bir tam olaraq canlandırarlar. Bu səbəblə, xüsusilə də tək başlarına olduqlarında, öz evlərində belə olsalar rahat ola bilməzlər. Qaranlığın onlara pislik edəcək müstəqil bir gücü olduğuna inanarlar. Görünməyən qüvvələrin onlara hücum edəcəyini ya da öldürməyə çalışacaqlarını xəyal edərək qorxuya qapılarlar.

Ortada heç bir həyati təhlükə yoxkən bu qədər şiddətli qorxulara qapılan insanların səhvləri, Allahı vəkil etməmələri, Ondan başqa ilahlar qəbul etmələri və Ondan gərəyi kimi qorxmamalarıdır. Quranda, qorxunun inkarçılara şeytandan gələn bir bəla olduğu və yalnız Allaha iman edən və Ondan qorxan möminlər üçün heç bir qorxu və kədər olmadığı bildirilmişdir:

**O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! (Ali İmran surəsi, 175)**

**Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 112)**

# CAHİL CƏMİYYƏTİN DİN MÖVZUSUNDAKI BATİL İNANCLARI

Cahil cəmiyyət dedikdə, bu insanların böyük əksəriyyətinin Allahın varlığını heç bilmədikləri ya da din əxlaqından xəbərsiz olduqları düşünülməməlidir. Əksinə cahillik əxlaqını yaşayan insanların böyük bir qismi özlərini və bütün kainatı yaradan, üstün güc sahibi Allahın varlığını qəbul edərlər. Ancaq öz səthi məntiqləriylə inkişaf etdirdikləri səhv bir din anlayışları vardır. Quranda bir çox ayə ilə bu insanların Allahın varlığını bildikləri halda düşünmədikləri və həqiqətləri qavraya bilmədikləri xəbər verilmişdir:

**Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?" – deyə soruşsan, onlar mütləq: "Allahdır!" – deyəcəklər. Onlar necə də haqdan döndərilirlər! (Ənkəbut surəsi, 61)**

**Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" – deyərlər. Gör necə də haqdan döndərilirlər! (Zuxruf surəsi, 87)**

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?" (Yunis surəsi, 31)**

Bəhsi keçən insanların Allahın varlığını, hər şeyin yaradıcısı olduğunu bildikləri halda azmaqlarının səbəbi isə, dünyaya qarşı duyduqları şiddətli ehtirasdır. Bu ehtiras səbəbiylə fərqinə vardıqları həqiqətləri gözardı edər və özlərini müxtəlif bəhanələrlə aldadarlar. Əgər bu mövzu haqqında səmimi bir şəkildə düşünsələr, ətraflarındakı nizamı mükəmməl bir şəkildə yaradan Allaha qulluq etmələri lazım olduğunu anlayarlar. Onlar isə belə bir məsuliyyətləri olduğunu gözardı edərək yaşamaq istəyərlər. Əgər Allaha iman etsələr, axirətin varlığını da qavrayacaqlarını və axirət üçün ciddi bir hazırlıq etmələri lazım olduğunu bilərlər. Onlar isə belə bir məsuliyyətləri olduğunu gözardı edərək yaşamaq istəyirlər. Bu da, onların dünyaya olan şiddətli bağlılıqlarından imtina etmələri deməkdir ki, belə bir şeyi də əsla qəbul edə bilməzlər. Məhz cahil cəmiyyətin bu mövzuda sığındığı ağılsız üsul, düşünməmək və guya vicdanlarını rahatlaşdıracaq bəhanələr taparaq açıq şəkildə gördükləri bu həqiqətdən qaçmağa çalışmaqdır.

Bu inkarın meydana gətirdiyi vicdan əzabından xilas olmaq üçün isə din mövzusunda müxtəlif azğın inanclar inkişaf etdirərlər. İrəli sürdükləri məntiqlər boş

aldadılmadan başqa bir şey deyil və hamısı bir-birindən olduqca fərqli olmaqla yanaşı, əsasən yalnız tək bir məqsədə istiqamətlidir; Quran əxlaqını yaşamaqdan və Allaha qulluq etməkdən qaçmaq.

Bununla yanaşı, cahil cəmiyyətin din haqqında inkişaf etdirdiyi bu azğın inancların hər biri bundan 1400 il əvvəl Allahın möminlərə rəhbər olaraq endirdiyi Quranda ətraflı izah olunmuşdur. Bu səbəblə, sonrakı səhifələrdə araşdıracağımız bu azğın inanclar, cahil insanı dünyada ikən aldatsa belə, axirətdə qurtara bilməyəcək. O gün hər kəs dünyada ikən Allahın Quranda bildirdiyi doğrulardan məsul tutulacaq və bütün işlədiklərindən sorğuya çəkiləcək. Vicdanının səsinə qulaq asan və imanı nəfsinin ehtiraslarından üstün tutan insanlar sonsuz mükafatla mükafatlandırılacaq. 60-70 illik müvəqqəti bir dünya həyatı uğrunda Allahın göstərdiyi həqiqətlərdən üz çevirib, onları yalan sayanlar isə qarşısı alınmaz peşmançılıqla qarşılaşacaqlar:

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" - dediklərini görəydin! (Ənam surəsi, 27)**

**Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. (Hicr surəsi, 2)**

## Çoxluğun doğru yolda olduğuna inanarlar

Din əxlaqından uzaq yaşayan insanların həyatlarına hakim olan azğın məntiqlərdən biri, "çoxluq tərəfindən qəbul edilən düşüncənin doğru olduğu" dur. "Bu qədər çox adam belə düşündüyünə və belə yaşadığına görə bir bildikləri vardır" ya da "səhv olsa bu qədər insan bu fikrin arxasından gedərmi?" kimi məntiqlə özlərini aldadarlar. Hələ bir də nümunə götürdükləri çoxluq içərisində özlərinə etibar qazanmış və müəyyən yerlərə gəlmiş kəslər varsa, bu çoxluğu özlərinə rəhbər etməkdən heç çəkinməzlər.

Halbuki, çoxluq tərəfindən tətbiq olunması, edilən bir şeyin qanuni olduğunu göstərməz. Əksinə, Qurana uymayan insanlar üçün bu eyni zamanda da təhlükəli bir tələdir. Ayədə bu sirr möminlərə xəbər verilmiş və çoxluğun arxasından getməmələri mövzusunda xəbardarlıq edilmişlər:

**Yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və onlar ancaq "zənn və təxminlə" yalan söyləyərlər. (Ənam surəsi, 116)**

Qurandakı bu xəbərdarlıq əsasında, möminlər çoxluğa deyil, Qurana və vicdanlarına etibar edərlər. Cahil cəmiyyətin fərdləri isə, çoxluğun arxasından gedərək, dünyada onları qoruya biləcək bir güc və axirətdə onları müdafiə edə biləcək məqbul bir bəhanə tapdıqlarını zənn edərlər. Lakin hadisələr heç də ümid etdikləri kimi baş verməz. Dünyada din əxlaqını gözardı edən çoxluq, axirətdə onları tək-tənha və köməksiz buraxacaq:

**(Belə bir gündə) Dost dostunun halını xəbər almayacaq. (Məaric surəsi, 10)**

Və insan bəhanələrini önə sürüb, "hər kəs belə idi" ya da "çoxluğun doğru yolda olduğunu sandım, çoxluğa uydum" dediyində, bunların heç bir etibarlılığı olmadığını görəcək:

**Həmin gün zalımlara bəhanələri fayda verməyəcək və onlardan tövbə etmələri tələb olunmayacaqdır. (Rum surəsi, 57)**

Məhz cahil cəmiyyətin din mövzusunda ölçü aldığı bu azğın məntiqin, nə dünyada, nə də axirətdə heç bir etibarlılığı yoxdur. **"... Ancaq insanların çoxu iman etməzlər" (Rad surəsi,** 1) ayəsiylə çoxluğun doğru yolda olmayacağı, əksinə doğru yolda olanların tarix boyunca hər dövrdə az olan birlikdən meydana gəldiyi xəbər verilmişdir.

## Öldükdən sonra yox olacaqlarına inanarlar

Cahil insanlar, böyük bir cəhalətlə, var olan hər şeyin bu dünyada gözləriylə görə bildikləri, əlləriylə tuta bildikləri və hiss edə bildikləri maddədən ibarət olduğunu zənn edərlər. Bu səbəblə də, dünyadakı həyatları sona çatdıqdan sonra bir daha yaşamayacaqlarına özlərini razı salarlar. Əslində bu onların küfrləri üçün irəli sürdükləri bəhanədən başqa bir şey deyil. Çünki düşünən hər insanın qavraya bildiyi kimi, axirətin yaradılması ilə dünyanın yaradılması arasında heç bir fərq yoxdur. Necə özləri heç ikən yoxluqdan var edildilərsə, bunlara güc yetirən Allah, şübhəsiz ki, bunun bir bənzərini yaratmağa qadirdir.

Ancaq cahillik inancında israrlı olan kəslər, son dərəcə açıq olan bu həqiqəti görmək və anlamaq istəməzlər. Quranda onların bu müqavimətləri üçün qarşıya qoyduqları bəhanələr belə ifadə edilmişdir:

**Öz yaradılışını unudaraq bizə bir nümunə verdi; dedi ki: "Çürümüş sümükləri kim dirildə bilər?" De ki: "Onları, ilk dəfə yaradıb-inşa edən dirildəcək. O, hər bir məxluqu bilir."** (Yasin surəsi, 78-79)

**Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər. (Səcdə surəsi, 10)**

Əlbəttə, belə açıq bir həqiqəti inkar etmələrinin səbəbi aydındır: Axirətin varlığını inkar edincə, dünyaya bu dərəcə ehtirasla bağlanmanın guya məqbul olduğunu özlərinə görə daha rahat müdafiə edəcəklər. Dünyaya hərisliklə bağlı, axirətdən qafil bir həyat sürəcəklər. Ölümdən sonra diriləcəklərini qəbul etmək, eyni zamanda dünyada etdikləri yaxşılıqlardan və pisliklərdən hesaba çəkiləcəkləri deməkdir ki, bu həqiqət onların qurmuş olduğu bütün batil sistemi alt-üst edər.

Axirətin varlığını təsdiq edən bir insan, axirət həyatı üçün də hazırlıq etməsinin vacib olduğunu bilir. Cahil insanlar isə, həyat mövzusunda o qədər hirslidirlər ki, belə bir həqiqəti heç vaxt qəbul etməzlər. Məhz öz səthi məntiqləriylə buna guya həll yolu olaraq, axirəti tamamilə rədd etmək cahilliyinə qapılmışlar. Ancaq bu onlara itkidən başqa heçnə verməz; üstəlik bu cahil inancları səbəbiylə həm dünyada sıxıntılı bir həyat sürərlər, həm də bu səhvlərini tövbə edib dəyişdirmədikləri təqdirdə, axirətdə sonsuz bir əzaba məhkum olarlar. Bu vəziyyətdə ölümdən sonra həyat olduğunu inkar etmənin insana sanıldığı kimi qazanc deyil, yalnız itki gətirəcəyi son dərəcə açıqdır.

## İman etmək üçün möcüzə görmələrinin lazım olduğuna inanarlar

Bəzi insanların din haqqında irəli sürdükləri azğın inanclardan biri də, iman etmək üçün fövqəltəbii bir hadisə görmələri lazım olduğudur. Cahil cəmiyyətdə çox insanın önə sürdüyü bu möcüzə axtarışı, yalnız bir qaçışdan ibarətdir və bu, tarix boyunca inkarda müqavimət göstərən hər birlik tərəfindən ortaya atılmış yalnış bir bəhanədir. Quranda bu insanların cahil şəkildə tələb etdikləri möcüzələrdən bəziləri belə sıralanmışdır:

**Bizimlə qarşılaşacaqlarını güman etməyənlər dedilər: "Nə üçün bizə mələklər göndərilmədi? Niyə biz Rəbbimizi görmürük?"... (Furqan surəsi, 21)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi. Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə; yaxud qızıldan bir**

**evin olmayınca; və ya göyə qalxmayınca biz sənə inanmayacağıq. Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi göndərilmiş bir insanam". (İsra surəsi, 89-93)**

**"Cahillər dedilər ki:" Allah bizimlə də danışaydı və ya bizə də bir ayə gələydi! "Onlardan əvvəlkilər də onların bu söylədiklərinin bənzərini söyləmişlər. Qəlbləri bir-birinə göründü. Biz, yəqinliklə inanan bir xalqa dəlillərimizi bəyan etmişik. (Bəqərə surəsi, 118)**

Göründüyü kimi, tarix boyunca Allahdan və Onun elçilərindən möcüzə tələb edənlər yalnız inkarçılar olmuşdur. Möcüzə istəyirlər, çünki qarşılarındakı elçinin özlərinə doğrunu gətirdiyini bilirlər. Amma öz axmaq ağıllarıyla inkar edə bilmək ya da başqa bir sözlə inanmamaq üçün bəhanə axtarırlar. Quranda onların bu tələblərinin səmimiyyətsiz olduğu belə xəbər verilmişdir:

**Kafirlər Allahın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: "Ayələr ancaq Allahın yanındadır. Siz haradan biləsiniz ki, o ayələr gəldikdə onlar yenə də iman gətirməyəcəklər?" (Ənam surəsi, 109)**

## Allahın hər yeri əhatə etdiyini qavraya bilməzlər

Cahil insanların din əxlaqı mövzusunda qapıldıqları azğın inanclar olduqca çoxdur. Çünki onlar doğrularını və səhvlərini Qurana görə deyil, öz səthi məntiqlərinə görə təyin edərlər. Bu da bir çox mövzuda yanılmalarına səbəb olur. Əldə etdikləri məlumatları ya özlərini yetişdirən böyüklərinin xətalarına, ya da ətraflarındakı insanların səhv məntiqlərinə görə təyin etmiş və azğın bir məntiq irəli sürmüşlər. Məhz bu yanlış məntiqlərdən biri də, Allahın varlığı haqqındakı batil inanclarıdır.

Cahillik məntiqini alan insanlardan bəziləri, Allaha qarşı səthi də olsa bir inanc bəsləyərlər. Ancaq bu inancları elə zəifdir ki, həyatları boyunca Allahın varlığını ağıllarına gətirmək istəməz və düşünməkdən çəkinərlər. Çünki əgər Allahı düşünsələr, vicdanlarının Rəbbimizin üstünlüyünü və hakimiyyətini qəbul edəcəklərini bilirlər. Məhz bu səbəblə, Allahı Quranda izah edildiyi şəkildə tanıya və qüdrətini təqdir edə bilməzlər. Bunun əvəzinə, Allahı öz məhdud ağıllarına görə qiymətləndirmə ağılsızlığına qapılar və çox sayda batil və yanlış inancı inkişaf etdirərlər. Allahın hər yeri əhatə etdiyini, hər şeyi bilən və görən olduğunu, heç bir şeyin Uca Allahdan gizli qala bilməyəcəyini, Allahın sonsuz qüdrət və güc sahibi olduğunu, ədalətli olduğunu, hər şeyin qarşılığını tam olaraq verən olduğunu qavraya bilməzlər. Bu səbəblə də, öz

aləmlərində etdiklərinin gizli qalacağını, lazım olan qarşılığı almayacaqlarını zənn edib yanılarlar.

Halbuki, Allah haqq olaraq nazil etdiyi Quranda qullarına özünü tanıtmışdır. Quranı özlərinə ölçü alan möminlər Allahın Zatı haqqında doğru və qəti məlumatlar əldə edərlər. Quranda Allahın bütün kainatı əhatə etdiyini, bütün varlıqları nəzarəti altında tutduğu açıq şəkildə bildirilmişdir. Allah gözlə görülməyən bir toz zərrəciyi qədər yaradılmış olan bütün varlıqların tək sahibi və tək hakimidir. Əzəldən əbədiyyətə qədər var olan tək varlıq Allahdır. Onun Zatı xaricində hər kəs fanidir. Allah hər varlığın qədərini təyin edər və hər birini anbaan qoruyub mühafizə edər. Bir ayədə Allah insanlara, **"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından daha yaxınıq"** deyə bildirərək, onlara, içlərindəki damarlardan daha yaxın olduğunu xəbər vermişdir. (Qaf surəsi, 16) Bu ayədən də aydın olduğu kimi insan həyatını davam etdirərkən ona ən yaxın olan varlıq yalnız Allahın Özüdür. Allah insanı əhatə etmişdir və ona "sonsuz yaxın" dır. Quranın bir çox ayəsində Allahın bizim gördüyümüz və görmədiyimiz hər yerdə olduğu, hər yeri əhatə etdiyi açıqlanmışdır:

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

**Göylərdə və yerdə nə varsa, hamısı Allahındır. Allah, hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

# ALLAH HƏR YERDƏDİR

İnsanlardan bəziləri özlərini, maddəni, ətraflarında gördükləri dünyanı mütləq varlıq zənn edərlər. Allahı isə (Allahı tənzih edirik) bu mütləq maddəni əhatə edən bir xəyal kimi düşünürlər. Və ya, Allahı gözləri ilə görə bilmədikləri üçün, "hər halda Allah bizim görə bilməyəcəyimiz bir yerdə, kosmosun və ya göylərin uzaq bir yerində var" deyirlər. (Allahı tənzih edirik) Bunların hamısı böyük bir yanılmadır.

Çünki Allah, yalnız göylərdə deyil, hər yerdədir. Allah, tək mütləq varlıq olaraq, bütün kainatı, bütün insanları, yerləri, göyləri, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli edir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v), Allahın göydə olduğunu söyləyən bir şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət, Allahın hər yerdə olduğu həqiqətiylə heç bir şəkildə ziddiyyət təşkil etmir. Çünki, dünyanın sizin olduğunuz nöqtəsindəki bir adam əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, Cənub Qütbündə bir başqa insan da eyni şəkildə Allaha yönəlsə, Şimal Qütbündə bir insan əllərini göyə qaldırsa, Yaponiyadakı bir insan, Amerikadakı bir insan, Ekvatordakı bir insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönəlsə, bu vəziyyətdə hər hansı bir sabit istiqamətdən söz etmək mümkün deyil. Eyni şəkildə kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua etsə hər hansı bir sabit göydən və ya istiqamətdən söz etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən bir vəziyyət olacaq.

Bunu da unutmamaq lazımdır ki, Allah zamandan və məkandan münəzzəhdir. Allahın Zatı başqadır. Allahın təcəlliləri isə hər yerdədir. Bir adam bir otağa girsə burada Allah yox desə, Allahı inkar etmiş olar. Allahın təcəlliləri o otaq da daxil olmaqla hər yerdədir. Siz hər harasa yönəlsəniz, Allahın təcəllisi oradadır. Allahın hər yeri əhatə etdiyi, bizə şah damarımızdan yaxın olduğu, hər harasa yönəlsək, Allahın üzünü görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Məsələn, Allah Bəqərə surəsinin 255-ci ayəsində **"... Onun kürsüsü, bütün göyləri və yeri örtüb-əhatə etmişdir ...."** deyə bildirir. Hud surəsinin 92-ci ayəsində isə, **"... Həqiqətən, Rəbbim nə etdiklərinizi biləndir."** deyilərək, Allahın insanları da, etdiklərini də əhatə etdiyi bildirilir.

## Mövzuyla əlaqədar bəzi Quran ayələri

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)

Bir zaman Biz sənə: "Rəbbin insanları əhatə etmişdir" - demişdik. Meracda sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik. Biz onları qorxuduruq, bu isə onlarda ancaq böyük bir azğınlığı daha da artırır. (İsra surəsi, 60)

Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları hesablamış və bir-bir saymışdır. (Məryəm surəsi, 93-94)

Allah onları arxadan əhatə etmişdir. (Büruc surəsi, 20)

İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)

Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)

Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)

## İbadətləri yalnız yaşlılıqda tətbiq etməyin kafi olacağı yanılmasına inanarlar

İnsanların çoxu müvəqqəti mənfəətlər əldə etmək uğruna axirət mənfəətlərini gözardı edərlər. Həqiqəti fərq etmiş olduqları halda üz çevirmənin verdiyi vicdan əzabı onları zaman-zaman da olsa, etdiklərindən sorğulamağa təhrik edər. Məhz bu mövzuda ortaya atdıqları bəhanələri isə, "hələ din əxlaqını yaşamaq üçün çox erkən olduğu, daha çox gənc olduqları" yanlmasıdır. Özlərinə görə vicdanlarını rahatlaşdırmaq üçün özlərinə "bir gün din əxlaqının əsaslarını mütləq tətbiq edəcəyi"

təlqinini edərlər. Burada bəhs etdikləri "bir gün" isə ölümün yaxınlaşdığını hiss etdikləri "yaşlılıq" dövrüdür.

Din əxlaqını yaşamağı yaşlılıq dövrünə təxirə salarlar, çünki bu insanların çoxu, özlərinə görə gənckən "həyatın dadını çıxarmaq" arzusu içindədirlər. "Həyatlarının baharında olduqlarını" düşünür və əgər o yaşlarda din əxlaqını yaşamağı qəbul etsələr, öz zəif ağıllarına görə "gəncliklərinin boşa gedəcəyinə" inanarlar. Halbuki, insanın gəncliyinin əsil boşa getməsi din əxlaqını yaşamamaqla olur. Din əxlaqını səmimi olaraq yaşayanlar isə həm gəncliklərini və sağlam dövrlərini ən səmərəli, ən hüzurlu, ən şən, ən gözəl, ən xoşbəxt şəkildə keçirərlər, həm də Allahın gözəl bir neməti olaraq gəncliklərini çox daha uzun illər mühafizə edərlər. Cahil cəmiyyətin səthi məntiqini yaşayan insanlar isə bu azğın məntiqin gətirdiyi qorxular, mübtəlalar, əxlaq pozuqluqları və stresslər səbəbiylə çox daha sürətli yaşlanıb, çox daha sürətli çöküntüyə uğrayarlar. Üstəlik, heç bir zaman da axtardıqları rahatlığı və hüzuru tapa bilməzlər. Bunlara baxmayaraq, cahil insanların böyük qisminin din əxlaqını qocalanda yaşamaq lazım olduğu şəklindəki yanılmalarının təməlində, necə olsa, müəyyən bir yaşdan sonra təbii olaraq, fiziki imkansızlıqlarından ötrü dünyadan əllərini, ətəklərini çəkəcəkləri düşüncəsi vardır. Möminlər isə Allahın razılığını qazanmaq, Ona yaxınlaşmaq, Rəbbimizə olan itaətini və təslimiyyətlərini göstərmək üçün ibadətləri böyük bir fürsət olaraq görər, gənc yaşlarından etibarən huşu içində yerinə yetirərlər. Məsələn, Allahın 5 vaxt olaraq fərz qıldığı namaz ibadətini, digər bütün işlərindən üstün görərlər. Bu mövzuda heç bir bəhanədən söz gedə bilməyəcəyini bildiklərindən, mütləq namazlarını vaxtında və bütün sünnətləriylə birlikdə əskik olmadan yerinə yetirərlər. Bunun qarşılığında da Rəbbimizin razılığını ümid edərlər. Rəsulullahımız (s.ə.v), namaz qılmamağın ya da namaz vaxtını keçirmənin nə qədər təhlükəli olduğunu bir hədisi-şərifində belə bildirmişdir:

İmam Safi ilə Beyhakiyə görə Peyğəmbərimiz (s.ə.v): "Hər hansı bir vaxt namazı qılmadan vaxtını keçirənlər yuvası dağılmış, malını mülkünü əldən qaçırmış kimidirlər." buyurur. (İmam Qəzali - Mükasefetül Kulub - Qəlblərin Kəşfi)

İman edənlər namazlarında olduğu kimi, hicab, oruc, zəkat və digər bütün ibadətlərini eyni dəqiqliklə, gənc yaşlarından etibarən yerinə yetirərlər.

Əlbəttə, hər insan həyatının hər mərhələsində tövbə edib Allaha üz tuta bilər. Doğrunu görüb, təslim olan hər insanı Allah diləsə bağışlayar və cənnətlə mükafatlandırar. Ancaq unutmamaq lazımdır ki, Allah Quranda insanın tövbəsinin hansı şərtlərdə qəbul ediləcəyini də bildirmişdir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!” - deyənlərin də, kafir kimi ölənlərin də**

**tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

Yaşlılıqda ya da ölüm yaxınlaşdığında din əxlaqını yaşamalarının kafi olacağı şəklində səhv bir inanca sahib olan insanların, bu ayələr istiqamətində bunları düşünmələri və qorxmaları lazımdır: Həqiqətən vicdanı və şüuru açıq hər insan, Allahın varlığını və gücünü təqdir edə bilirsə, doğruları yerinə yetirməkdə gecikməməlidir. Çünki uzaqda sandığı ölüm, hər an özünə gələ bilər və yaşlılığa çatmadan bir anda axirətə gedə bilər. Və o zaman insan geri dönüşü olmayan peşmanlıqla qarşılaşar. Quranda bir çox ayə ilə insanlara bu xatırlatma edilmişdir:

**Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: "Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!" - deyəndə görəydin! (Səcdə surəsi, 12)**

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" - dediklərini görəydin! (Ənam surəsi, 27)**

## "Necə olsa bağışlanarıq" yanılması

İnsanların çoxu, təməldə iman etməməklə yanaşı, axirət həyatının həqiqətən mövcud ola biləcəyinə dair bir şübhə duyarlar. Bu kimi insanlar axirətləri üçün heç bir zaman ciddi olaraq düşünməzlər, ancaq yenə də "əgər varsa" deyə düşünərək özlərinə müxtəlif bəhanələr hazırlayarlar. Çünki öldükdən sonra insanların etdikləri hər şeydən sorğuya çəkiləcəkləri bir axirətlə qarşılaşdıqlarında, çətin vəziyyətdə qalacaqlarını bilirlər. Bu vəziyyətdə ya dünyaya qarşı olan ideallarından imtina edib, Allahın bəyəndiyi qaydalar, əmr və qadağalar istiqamətində həyatlarını davam etdirəcəklər ya da öz zəif ağıllarına görə vicdanlarını rahatlaşdırmaq və qayda tanımadan yaşamanın bir yolunu tapacaqlar.

Vicdanlarını guya rahatlaşdırmaq üçün tapdıqları bəhanə isə "necə olsa bağışlanarıq" yanılmasıdır. Allahın "əsirgəyən və bağışlayan" olduğunu bildikləri üçün, hər nə qədər qüsur və səhv etsələr belə, Allahın tövbəsini qəbul edəcəyini düşünərlər. Özlərinə görə nə qədər nankorluq edirlərsə etsinlər, nə qədər inkar edirlərsə etsinlər, etdikləri unudulacaq və bağışlanacaq. Bununla yanaşı, ətraflarındakı hər kəsin eyni üsula müraciət etməsi də bu kəsləri yanıldan bir başqa ünsürdür. Qarşılarındakı kəslərin "necə olsa Allah bizi bağışlayar" sözü, cahil cəmiyyətin bu yanlış məntiqinə sahib olanların tam axtardıqları saxta dəstəyi təmin edər. Çox düşünmədən bu

yanılmanı qəbul edərək həyatlarına davam edərlər. Bəhsi keçən kəslərin bu yanılmaları Quranda belə təsvir edilmişdir:

**... Onlar bu fani dünya malını alıb: “Biz bağışlanacağıq!” – deyirdilər. Onlara buna bənzər mənfəətlər yenə də gəlsəydi, onu da alardılar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı? Halbuki onlar Kitabda olanları oxuyub öyrənmişdilər. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər anlamırsınız? (Əraf surəsi, 169)**

Halbuki, Quranda bildirildiyi kimi, cahil cəmiyyətin irəli sürdüyü bu batil fikrin Allah Qatında və hesab günündə heç bir etibarlılığı yoxdur. Allah sonsuz bağışlayıcı və sonsuz mərhəmətli olandır. Ancaq bu, qüsur işləyən və bunun şüuruna çatdığında da dərhal imtina edən insanlar üçün etibarlı bir vəziyyətdir. Yoxsa qəsdli olaraq bir plan içərisində hərəkət edən və həqiqəti bildiyi halda arxa çevirənlər üçün deyil. Allah Quranda səmimi müsəlmanların rəftarını belə xəbər verir:

**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər. Onların mükafatı, Rəbbindən bağışlanma və ağacları altından çaylar axan Cənnət bağlarıdır ki, orada əbədi qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ali İmran surəsi, 135-136)**

## Bütün əxlaq və rəftar əskikliklərinə baxmayaraq, cənnətə gedəcəklərini zənn edərək yanılarlar

Cahil cəmiyyətdə bir çox insan tərəfindən ən çox istifadə edilən guya "vicdanı rahatlaşdırmaq" bəhanələrini biri də, "ürək təmizliyinin kafi olacağı" yanılmasıdır. Cahil insanlar Quran əxlaqını tətbiq etmədikləri halda, ürəklərindəki bu saxta təmizlik səbəbiylə özlərinin cənnətə layiq olduğunu zənn edərlər. Özlərinə görə yaxşı insanlardır və kimsəyə bir zərərləri yoxdur. Bu vəziyyətdə, axirət həyatı ilə qarşılaşdıqlarında da, cənnətə gedəcəklərini sanarlar. Ancaq bu qənaətə haradan gəldikləri soruşulacaq olsa, buna Qurandan heç bir dəlil göstərə bilməzlər. Çünki bu tamamilə özlərinə aid azğın bir inancdan ibarətdir. Quranda onların bu azğın inancları belə ifadə edilmişdir:

**Başına gələn bəladan sonra Özümüzdən ona bir mərhəmət daddırsaq, mütləq deyər: “Bu mənim haqqımdır və Mən o Saatın gələcəyini güman etmirəm. Rəbbimə qaytarılsam belə, Onun yanında mənim üçün ən gözəl nemət hazırlanar!” Biz kafirlərə**

**nə etdiklərini mütləq xəbər verəcək və onlara hökmən ağır bir əzab daddıracağıq. (Fussilət surəsi, 50)**

Əlbəttə ki, özlərinə bu şəkildə təsəlli verən insanların səmimi bir imanları yoxdur. Qiyamət gününə belə qəti bir qənaətləri yoxdur. Yalnız qiyamət günüylə qarşı-qarşıya gəldikdə, özlərinə görə vicdanlarını rahatlaşdırmaq üsulu olaraq şüuraltında "cənnətlik olduqlarına inanma" kimi özlərini aldatma psixologiyası formalaşdırmışlar. Belə ikiüzlü bir psixologiya içində, etdikləri pisliklərdən ötrü hesaba çəkiləcəkləri, cəhənnəmə girə biləcəkləri ağıllarına gəldiyində qiyamətin qopmayacağını düşünür, öldükdən sonra məzarda çürüyüb sonsuza qədər yox olacaqları düşüncəsinin dəhşətinə qapılınca isə mütləq dirildilib cənnətə daxil ediləcəklər yanılmasıyla cahil şəkildə özlərini təsəlli edərlər. Allahın cənnət ilə müjdələdiyi qullarında olduğunu xəbər verdiyi müəyyən davranışlar vardır. Ancaq səmimi olan, Allahı çox sevən və Allahdan çox qorxan bir insan cənnətlə müjdələnə bilər. Allahı çox sevən və Ondan çox qorxan bir insanın rəftarı da insanın, Allahın istəklərini tətbiq etdiyindəki həssaslığı ilə özünü göstərər. Allah, Quranda bir çox ayədə ancaq namazı qılan, digər bütün fərzləri yerinə yetirən, çox şükür, çox bağışlanma diləyən, malını və canını Allah yoluna həsr edən, mömin əlamətlərini üzərində daşıyan insanların cənnətə gedəcəyini açıqlamışdır.

Göründüyü kimi, cahil cəmiyyətin nəzərdə tutduğu mənada Quranda "ürək təmizliyi" deyə bir meyar yoxdur. Əlbəttə, iman edənlər yaxşı niyyətli, təmiz əxlaqlı və səmimi insanlardır və Qurana görə möminlər səmimi olmaqla məsuldurlar. Ancaq cahil cəmiyyətin bəhs etdiyi ürək təmizliyi bu mənada bir səmimiyyət deyil. Bu kəslərin ürək təmizliyi deyərkən nəzərdə tutduqları hər cür əxlaq və rəftar pozuqluğunu yaşamasına baxmayaraq, əslində pis niyyəti olmadığı yalanını söyləyən insanların önə sürdüyü etibarsız bəhanədir. Və bu, cahil cəmiyyətin, vicdanını rahatlaşdırmaq və məsuliyyətlərindən qaçmaq üçün irəli sürdüyü boş sözdən ibarətdir. İnsanın özünü müdafiə etmək üçün istifadə etdiyi "ürək təmizliyi" mövzusunda nəyi ölçü aldığı məchuldur. Ölçüləri yenə cahillik ölçüləridir və adamdan adama də dəyişir. Misal olaraq, oğurluq edən bir insan da özünə görə günahsız ola bilər. Çünki ürəyinin son dərəcə təmiz olduğunu və etdiyi bu əxlaqsızlığı da istəyərək deyil, yalnız ehtiyacdan etdiyini düşünə bilər. Amma əlbəttə, bu adam çox səhv məntiq içindədir.

O halda bu nəticəyə gəlmək olar ki: Cahillik sistemi tamamilə saxtakar təməllərə əsaslanır və Qurana görə heç bir etibarlılığı yoxdur. Cənnətə girə bilməyin ölçüsü hər şeydən əvvəl çox səmimi olmaq, Allaha dərin bir imanla bağlanmaq, Allahdan başqa heç kəsdən qorxmamaq, Allahı çox sevmək, Ondan başqa dost və köməkçi olmadığını bilmək və Allahın əmrlərini səmimiyyətlə tətbiq etməkdir. Quranda bu ölçü belə ifadə edilmişdir:

**Cənnət müttəqilərə yaxınlaşdırılacaq, onlardan uzaqda olmayacaqdır. Budur sizə vəd edilən Cənnət! O, hər bir tövbə edib Allaha üz tutan, Onun əmrinə riayət edən, Mərhəmətli Allahdan Onu görmədən qorxan və Allaha yönəlmiş qəlblə gələn kimsələr üçündür. Ora sağ-salamat daxil olun! Bu, Əbədiyyət günüdür. (Qaf surəsi, 31-34)**

## Cəhənnəmə müəyyən sayda insanın girəcəyini zənn edərlər

Cahil insanların qarşıya qoyduqları bir başqa səthi məntiq də vardır: Cəhənnəmin dar və məhdud bir məkan olduğunu və buraya ancaq müəyyən sayda insanın sığa biləcəyini zənn edərlər. Və son dərəcə cahil və azğın məntiqlər çıxararlar. Dünya üzərində əsrlərdir gəlib keçmiş bütün insanların sayıyla müqayisə edərək, bu kütlənin cəhənnəm üçün çox olduğu qənaətinə gələrlər. Bu vəziyyətdə də özlərinə sıra gələnə qədər daha günahkar və daha azğın xarakterli insanların cəhənnəmə qoyulacağını və özlərinin də cənnətə girəcəklərinə inanarlar. Şübhəsiz ki, bu heç bir etibarlılığı olmayan azğın bir məntiqdir və cahil cəmiyyətin ortaya atdığı bu bəhanə əvvəldən axıra qədər səhvdir. Allah sonsuz qüdrət sahibi və örnəksiz yaradandır. Dilədiyi zaman dilədiyi yerdə, istədiyi genişlikdə bir məkan yarada bilər. Bu səbəblə, cəhənnəmin dolması və bəzi insanların sığmadıqları üçün cənnətə qoyulması kimi bir vəziyyət əsla mümkün deyil. Bu yalnız cahillik əxlaqını yaşayan insanların boş və batil sözləridir. Quranda cəhənnəmin məhdud bir məkan olmadığı, əksinə inkar edənlərin sayı nə qədər çox olursa olsun, hamısını alacaq və hətta daha çoxunu belə sığındıracaq qədər geniş bir yer olduğu xəbər verilmişdir:

**O gün cəhənnəmə deyəcəyik: "Doldunmu?" O da: "Daha çoxu varmı?" deyəcək. (Qaf surəsi, 30)**

**Cəhənnəm nədir, sən bilirsənmi? Nə saxlayar, nə buraxar. Bəşərə dəlicəsinə susamışdır. (Müddəssir surəsi, 27-29)**

Hər insan həyatı boyunca etdiyi yaxşı və pis bütün işlərdən məsul tutulacaq və axirətdə bu rəftarlarının qarşılığını əskiksiz olaraq görəcək. Bu, Allahın sonsuz və mütləq ədalətinin bir gərəyidir. Bu səbəblə, dünya həyatını Allahdan və Onun əmrlərini tətbiq etməkdən uzaq olaraq keçirən şəxslərin, Allahın diləməsi xaricində tövbə etmədikləri təqdirdə axirətdə hər hansı bir səbəblə cəhənnəm əzabından xilası mümkün deyil. Quranda, Allahın mütləq ədaləti belə açıqlanar:

**...onlara xurma çərdəyindəki lif qədər haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

O gün Allah onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər. (Nur surəsi, 25)

# CAHİL CƏMİYYƏTİN ƏHƏMİYYƏTLİ BİR XÜSUSIYYƏTİ: RAZI SALINA BİLİNMƏMƏLƏRİ

Normal bir ağıla və şüur açıqlığına sahib olan bir insan, ona kəskin və ağıllı dəlillər təqdim edildiyi zaman fikri hər nə olursa olsun, doğrular qarşısında boyun əyər və dərhal razı olar. Çünki bir insan olaraq hər zaman yanılma ehtimalının ola biləcəyini bilir. Bilmədiklərini öyrənmənin, yanıldığında qəbul edib fikrini dəyişdirmənin insanı hörmətdən salacağını deyil, əksinə inkişaf etdirəcəyini bilir.

Ancaq gördükləri dəlilləri və eşitdikləri həqiqətləri bu şəkildə səmimi və dürüst bir dünyagörüşüylə dəyərləndirməyən insanlar da vardır. Cahillik sisteminin yanlış məntiqiylə hərəkət edən bu kəslər, sabit fikirli və inadkar quruluşlarıyla diqqət çəkərlər. Bu insanların əsas olaraq hədəflədikləri şey, doğrunu tapmaq və ya yanıldığı nöqtələri düzəltmək deyil. Onlar mövzu hər nə olursa olsun, böyük bir səhv və ya yanılma içində olsalar da, öz bildiklərini qarşı tərəfə qəbul etdirmək və beləcə də özlərini haqlı çıxarmağa çalışırlar. Heç bir zaman yanıla biləcəklərinə ehtimal verməz, ağıllarını şiddətlə bəyənərlər. Bu, bəzi insanlarda elə bir hal alır ki, gözüylə gördüyü konkret dəlillər belə adamın razı olması üçün kafi olmaz. Lakin bu, onların doğru ilə yanlışı bir-birindən ayırd edə bilməmələrindən deyil, əksinə doğru olanı vicdanlarıyla gördükləri halda bilə-bilə anlamazlıqdan gəldiklərindən qaynaqlanır. Quranda cahil cəmiyyətin bu xüsusiyyətinə keçmişdəki qövmlərdən belə bir nümunə verilmişdir:

**Siz yəhudilərin sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər. (Bəqərə surəsi, 75)**

**Hər nə bahasına olursa olsun, inkarda dirənən bu insanlara doğruları göstərmək, onları razı etmək üçün kafi olmaz. Xüsusilə də iman etmələri mövzusunda, özlərinə göstərilən dəlillərə qarşı tamamilə laqeyd bir rəftar sərgiləyərlər. Necə ki, Quranda bu həqiqət, "Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər." ayəsiylə bildirilmişdir. (Bəqərə surəsi, 6)**

Yaxşı, necə olur ki, eyni ağıllı dəlillər bəzi insanlara təqdim edildiyində onlar həm vicdan, həm də ağılla razı olarkən, cahil insanlar bu vəziyyətdən təsirlənməzlər? Onları bu dərəcə inadkar və israrlı bir rəftara məcbur edən şey nədir?

Şübhəsiz ki, bu səbəb, kitabın əvvəlindən bəri əhəmiyyətlə üzərində durulan cahil cəmiyyətin dünyaya olan sevgiləri və ehtiras dərəcəsindəki bağlılıqlarıdır. Doğruları açıq şəkildə gördükləri halda, vicdanlarına təzyiq edərək nəfslərinin arxasınca gedərlər. Əgər vicdanlarının səsini dinləyib, gördükləri doğrular qarşısında

təslim olsalar, bunun dünya ehtiraslarını qıracağını və axirət inancını gətirəcəyini bilərlər. Bu nöqtəyə gəlməyi heç istəmədiklərindən ötrü də daha ən başından vicdanlarına təzyiq edərlər. Ardınca getdikləri nəfs isə ayələrdə də bildirildiyi kimi, Allahın diləməsi xaricində daima, var gücüylə pisliyi əmr edər. **(Yusif surəsi, 53)** Bu səbəblə nəfs, özünə sığınan və özünə təslim olan kəslərin, doğrular qarşısında razı olmamaları üçün hər cür təlqini edər.

Bununla yanaşı, dünyadan qopmaq istəməyən insanların nəfslərinə yol göstərən mənfi bir güc də şeytandır. Quranda şeytanın insanların doğrular qarşısında razı olmalarına maneə törətməyə çalışacağı belə bildirilmişdir:

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17 )**

Özlərinə şeytanı və nəfslərini rəhbər edən bu insanların razı edilə bilməməsi, tarix boyunca bütün peyğəmbərlərin qarşılaşdıqları və bu uğurda ciddi şəkildə mübarizə apardıqları bir vəziyyətdir. Hər peyğəmbər cahillik dinini yaşamaqda olan qövmlərinə haqqı və doğrunu gətirmiş, ancaq iman edən az bir birlik xaricində, qalanlar din əxlaqını yaşama mövzusunda razı olmamışlar. Bu mövzuda Quranda yer alan ən təəccüblü nümunələrdən biri Nuh peyğəmbər (ə.s.)-ın qövmünə aiddir. Hz. Nuh (ə.s) göndərildiyi cahil cəmiyyətin həqiqətləri görməsi və iman etməsi üçün hər cür yolu sınamışdır. Ancaq qövmü, qulaqlarını barmaqlarıyla tutacaq qədər irəli getmiş və razı olmamaqda israrlı olmuşdur:

**O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib (Nuh surəsi, 5-9)**

**Nuh dedi: "Ey Rəbbim! Onlar mənə asi oldular və var-dövləti, övladı özünə zərərdən başqa bir şey artırmayan bir adama tabe oldular. (Nuh surəsi, 21)**

Qurandakı bütün bu ayələrdən də aydın olduğu kimi, cahil cəmiyyətin razı salına bilinməməsi, onların nəfslərinə tabe olma, haqdan üz çevirmə və dünyanı üstün tutma mövzusundakı inadlarından qaynaqlanır. Bu səbəblə də, özlərinə təqdim edilən

dəlillər nə qədər güclü olursa olsun üz çevirərlər. Bu mövqelərini davam etdirə bilmək üçün də müxtəlif bəhanələr irəli sürərlər. Allah Quranda insanların ən çox hansı mövzularda razı salınmadıqlarını və bunlara qarşı nə cür bəhanələr irəli sürdüklərini açıqlamış və bu mövzudakı səmimiyyətsizliklərini möminlərə xəbər vermişdir.

Ancaq bu mövzunu araşdırmadan əvvəl, cahil cəmiyyətin razı olmamaq üçün müraciət etdiyi təməl üsullardan biri olan demaqoqluq mövzusuna toxunmaqda fayda vardır.

## Şeytanın cahil cəmiyyətə öyrətdiyi müqavimət metodu: "demaqoqluq"

Cahil cəmiyyətin razı olmadıqları mövzularda müraciət etdikləri ən əsas üsullardan biri "demaqoqluq" etməkdir. "Demaqoqluğu", bəzən maraqlarını, bəzən qürurlarını, bəzən də etibarlarını qorumaq məqsədiylə müraciət etdikləri dolayı və səmimiyyətsiz danışıqların və bu danışıqlarda istifadə etdiyi davranışların tamı olaraq təyin edə bilərik. Qarşı tərəfin haqlı olduğunu basdırmaq üçün daima söz kəsmək, qışqıraraq üstə çıxmaq, ardı-arxası bitməyən yalanlarla müdafiə etmək ən çox tanınan demaqoqluq üsullarından yalnız bir neçəsidir.

İnkarçılar din əxlaqını qavramaq üçün istifadə etmədikləri zəkalarını, demaqoqluq sənətlərini inkişaf etdirmək üçün var gücləriylə istifadə edərlər. Haqlı çıxa bilmək ya da mənfəət əldə edə bilmək üçün uydurulmuş məntiqlər çıxararlar. Amma bütün bunların təməlində duran əsil məqsədləri, həqiqətlərə qarşı müqavimət göstərmək, haqlı çıxmaq və beləcə də vicdanlarını rahatlaşdıracaq bir bəhanə tapmaqdır.

Bu üsul, bəhsi keçən kəslərin tək başlarına formalaşdırdıqları bir sistem deyil; bir çox mövzuda olduğu kimi bu mövzuda da onlara şeytan rəhbərlik edər. Quranda şeytanın Allaha qarşı ilk nankorluğunda yenə demaqoq söhbətlərə sığındığına, digər bir sözlə ilk demaqoqun şeytan olduğu belə xəbər verilmişdir:

**Allah dedi: “Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi? Təkəbbür göstərdin, böyüklərdənmi olmuşdun?” İblis dedi: “Mən ondan daha xeyirliyəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” Allah dedi: “Çıx oradan! Sən artıq rəhmətimdən qovulmuşsan! (Sad surəsi, 75-77)**

Şeytan, Allahın hüzurunda "Adəmə səcdə etməsi" deyildiyində qürurlanıb müqavimət göstərmiş və azğın bir məntiqlə şərhlər gətirərək demaqoqluq etməyə çalışmışdır. Bəhanə olaraq qarşıya qoyduğu şey isə, insanın palçıqdan özünün isə, özünə görə ondan daha üstün olan, atəşdən yaradılmasıdır. Halbuki ki, şeytanın əsil

məqsədi itaətsizlik etmək və baş qaldırmaqdır. Palçıq ilə atəş arasında müqayisə etməsi isə, tamamilə bir bəhanədən ibarətdir.

Məhz cahil insanın vəziyyəti də eynilə belədir. Əvvəl inkar etməyə qərar vermiş, sonra buna uyğun bəhanələr tapmağa çalışmışdır. Bu nöqtədə də etdiyi səmimiyyətsizliyi ört-basdır etmək və vicdanını rahatlaşdırmaq istəyiylə şeytanın rəftarını nümunə götürərək demaqoqluq örtüyünə sığınmışdır.

Şeytan, ona uyan bu insanlara içlərindəki "nəfslərinin səsi" yolu ilə həmişə gizli şəkildə demaqoqluq üsulları göstərir. Belə ki, insan öz içində bir yandan heç ara vermədən doğruları söyləyən vicdanı ilə, digər yandan da daima pisliyi əmr edən və saysız bəhanələr qarşıya qoyaraq vicdanını susdurmağa çalışan, şeytanı təmsil edən nəfsiylə qarşı-qarşıya qalar. Beləcə, şeytan hər an və hər vəziyyətdə insanlara yaxınlaşar və onları doğru olandan uzaqlaşdırmağa çalışar.

Məhz dünyanın hər harasında və hansı dövrdə yaşamış olursa olsunlar insanların din əxlaqını yaşamamaq üçün qarşıya qoyduqları bəhanələrin və istifadə etdikləri bütün taktikaların əsrlərdir demək olar ki, "sözbəsöz" həmişə eyni olmasının səbəbi də budur. Quranda bu həqiqət belə xəbər verilmişdir:

**Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır. (Zəriyət surəsi, 53)**

**Xeyr, onlar da əvvəlki ümmətlərin dedikləri kimi dedilər. (Muminun surəsi, 81)**

Ancaq burada bu əhəmiyyətli nöqtəni ifadə etməkdə fayda vardır. Şeytan, yaradılmış bütün insanlar, mələklər və cinlər kimi Allahın hakimiyyəti və nəzarəti altında olan bir varlıqdır. Cahil cəmiyyətlərdə sanıldığı kimi, özünə aid bir gücü yoxdur. Bir imtahan vəsiləsi olaraq fəaliyyətlərini davam etdirməsinə, Allah icazə verir. Allah bu həqiqəti ayələrdə belə açıqlayır:

**İblis dedi: "Ey Rəbbim! Onların dirildiləcəkləri günə qədər mənə möhlət ver". Allah dedi: "Sən möhlət verilənlərdənsən. Ancaq məlum vaxtın gününə qədər". İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". Allah dedi: "Bu, Mənə tərəf gətirib çıxaran düz yoldur. Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa". (Hicr surəsi, 36-42)**

Tarix boyunca bir çox birlik özlərinə Allahın əmrləri və öhdəlikləri xatırlandığında şeytanın klassik demaqoqluq üsullarına müraciət etmiş və beləcə

həqiqətlərdən öz ağıllarına görə qaça biləcəklərini düşünmüşlər, ancaq özlərini aldatmaqdan başqa bir şey əldə edə bilməmişlər. Quranda, inkar edənlərin bu psixologiyaları və nə cür demaqoq danışıqlarla özlərini qurtarmağa çalışacaqları əvvəldən bildirilmiş və insanların razı olmamaqda istifadə etdikləri bu metodlara diqqət çəkilmişdir.

## Ölümün yaxın olduğuna razı salına bilinməmələri

Cahil cəmiyyətin insanlarını, ölümlə hər an qarşılaşacağı mövzusunda razı salmaq mümkün deyil. Bu qədər qəti və açıq bir həqiqət olmasına baxmayaraq, insanların böyük bir qismi ölümün yaxınlığını unutmağa çalışarlar. Çünki ölüm, dəlicəsinə bağlı olduqları dünya həyatını məhv edər, din əxlaqının tətbiq olunmalı olduğunu xatırladar, cəhənnəm həqiqətini qarşılarına çıxarar. Qaçmaq üçün isə "düşünməmək" tək üsullarıdır.

Ölümü düşünməyən və diqqətlə bu mövzudan qaçan cahil xalq, ölümə qarşı sanki bir üsyan halı içərisindədir. Ölənlərin ardından "gənc yaşında öldü", "kaş ki, o ölməsəydi də mən ölsəydim", "həyatının baharındaydı" kimi ağılsız şərhlər edərək böyük bir səhv edərlər. Ölümün Allahın əmri olduğunu və Allahın hər şeyi xeyirlə və bir qədər üzərinə yaratdığını düşünməzlər. Həmçinin özlərini düşünməməyə o qədər çox öyrəşdiriblər ki, çox vaxt bu tərz ifadələrin Allahın təqdirinə qarşı bir üsyan olduğunun və bu rəftarlarının qarşılığının çox şiddətli ola biləcəyinin belə fərqinə varmazlar.

Cahil cəmiyyətlərdə ölüm mövzusunda daha bir çox cahil şəkildə şərh vardır. Məsələn; onlara görə yaşlı və xəstə birinin ölməsi son dərəcə məqbuldur. "Xilas oldu" deyərək ölümünü təsdiq edərlər. Bu tərz ölümlərin "sıralı" ölüm olduğunu düşünərlər. Xüsusilə yaşlı birinin heç bir acı çəkmədən yatağında yatarkən ölməsi, onlara görə adi, hətta "gözəl" bir ölümdür. Ancaq gənc birinin ani ölümündə eyni şeyi düşünmələri qeyri-mümkündür. Halbuki, onun da əcəli gənc yaşda ölməkdir; amma bunu heç vaxt anlaya bilməzlər. Üstəlik yatağında yatarkən ölən insanın hüzur içində öldüyünə dair də heç bir dəlilləri yoxdur. Allah iman edənlərin canlarının hüzur içində alınacağını bildirmiş, ancaq inkar edənlərin hələ ölüm anındaykən belə çox şiddətli acı çəkməyə başladıqlarını xəbər vermişdir. Buna görə də, yatağında ölümlə qarşılaşan bir insan əgər inkarçı isə, mələklər kürəyinə vuraraq canını almışlar və dünyadakı digər insanlar fərq edə bilməsə də onlar başlarına gələcək böyük əzabın necə şiddətli olacağını çoxdan anlamışlar.

Cahillik əxlaqına sahib insanların bir başqa cahil iddiaları da, ölümün bəzi hadisələr zəncirində reallaşdığını düşünmələridir. Məsələn; bir avtomobil qəzasında ölən biri üçün "o yola girməsəydi ölməzdi" deyə düşünərlər. Quranda Peyğəmbərimiz (s.ə.v.) dövründəki inkarçıların ölən kəslər üçün **"onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər" (Ali İmran surəsi, 156)** dedikləri xəbər verilmiş və insanlar bu azğın məntiqə qarşı xəbardar edilmişlər. Çünki heç bir ölüm əsla təsadüfi olaraq

reallaşmaz. Hələ o adam dünyaya gəlmədən əvvəl, nə zaman, harada və necə öləcəyi Allah Qatında müəyyəndir. Allah bu həqiqəti, **"Sizin aranızda ölümü Biz müəyyən etdik və heç nə Bizim qarşımızı ala bilməz"** ayəsiylə bildirmişdir. (Vaqiə surəsi, 60)

Bu insanlar üçün, yaxın ətraflarından xüsusilə də hələ gənc bir tanışlarının ölümü, ani və gözlənilməz bir vəziyyətdir. Bu adamın xüsusilə, bir qəza ya da ağır bir xəstəlik nəticəsində ölmüş olması, gənc və sağlam görünən bədəninin tanına, hətta baxıla bilməyəcək hala gəlməsi, ölümü unutmaq istəyən bu tip insanlara böyük bir zərbə olur. Daha bir-iki gün əvvəl birlikdə olduqları bir insanı, yol kənarında, keçirdiyi bir yol qəzası nəticəsində tanınmayacaq bir halda yerdə yatarkən görmələri, daha sonra da bu adamın qara bir neylon torbanın içinə qoyulub meyitxanaya aparılması, bu zehniyyətdə bir insanın unutmağa çalışdığı bir çox şeyi ağlına gətirər. Çünki ayaqlarından və başından tutularaq daşınıb meyitxanaya qaldırılan bu insan bəlkə də, bir gün əvvələ qədər işlərində necə yeni cəhdlər edəcəyi, həyatda nə cür uğurlara imza atacağı kimi mövzulardan bəhs edər və eyni özü kimi ölümü özündən çox uzaqlarda görərdi. Halbuki, indi bu kimsənin bəlkə də bir zamanlar olduqca bəyəndiyi bədəni, çürüməməsi məqsədiylə bir an əvvəl meyitxanaya qaldırılacaq və orada digər ölülərin olduğu soyuq dolabda tərk ediləcəkdir. Bir-iki gün içində də ağ bir parçanın içinə sarılaraq özü üçün açılan çuxurun içinə atılacaq. İdealları ilə, dünyagörüşüylə özünə çox bənzəyən bir insanı bu vəziyyətdə görmək insanın ürəyini bir anda qorxuyla doldurar. Çünki özü də bir gün bu vəziyyətə düşəcək, heç gözləmədiyi bir anda ölümlə qarşılaşacaqdır.

Ancaq cahil cəmiyyətdəki insanların çoxu üçün bu qorxu, çox qısa davam edər. Aradan az bir müddət keçmədən vecsiz zehniyyətlərinə yenidən geri dönər və ölümü yenə özlərindən uzaq görməyə başlayarlar. İşlərinin başına dönüb təkrar pul qazanmağa ya da öz sözləriylə "həyatın həqiqətləri üz-üzə gəlməyə" başlamalarıyla birlikdə köhnə həyatlarına geri dönərlər. Sanki bir müddət əvvəl ölümlə burun buruna gələn kəslər özləri deyilmişcəsinə, ölümü ciddiyə almayan demaqoq söhbətlər etməyə başlayarlar. "Yalan dünyadır, insanlar bir varmış, bir yoxmuş ..." ya da "ölümlü dünya, yox olub getdi!" kimi mənasız söhbətlər edər, ancaq söylədikləri sözün nə mənaya gəldiyini belə düşünməzlər. Bəziləri də "ölən insanla ölünməz, bax, həyat bütün sürətiylə davam edir", "ölən ölür, qalan sağ insanlar bizimdir" kimi sözlərlə "madam ölüm hər şeyi kəsib bitirir, elə isə biz də işimizə dönüb "iki günlük dünyanın dadını çıxarmağa çalışaq" şəklində son dərəcə yanlış şərhlər edərlər. Bu yolla, bir-birlərinə ölümlü dünyada heç bir şeyi fikirləşməmək və ölümü bir daha əsla düşünməmək kimi böyük itki gətirəcək təlqinlər edərlər.

Ölümün yaxınlığını unutmaq üçün etdikləri bir başqa çirkin rəftar da "ölən insanla ölünməz" deyib, ölümü ağıllarından uzaqlaşdıran kimi, yaxınlarından özlərinə qalan mirasın miqdarını araşdırmağa başlamalarıdır. Ölümdən belə yenə dünyaya bağlanacaq nəticələr çıxaran bu insanlara, bəlkə də o mirası xərcləməyə vaxt belə tapa bilmədən ölümlə qarşılaşa biləcəklərini izah etmək isə mümkün olmaz.

Həyatları boyunca ölümdən və ölümü düşünməkdən mümkün olduqca uzaq yaşamağa çalışan bu insanların israrla gözardı etdiyi böyük həqiqət isə, ölümün əslində hər insanla hər an birlikdə olduğu və ölümdən qaçmanın əsla mümkün olmadığıdır. Hər insan şübhəsiz Allahın təqdir etdiyi vaxt gəldiyində ölümlə qarşılaşacaq, öldükdən sonra təkrar diriləcək və dünyada etdiklərindən ötrü hesaba çəkiləcək. Buna görə, cahillik əxlaqını yaşayan bir qisim insanların özlərini aldatmaq üçün ölümü düşünməkdən çəkinmələri, heç bir şeyi dəyişdirmir. Bu həqiqət Quranda bu şəkildə bildirilmişdir:

**Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə: "Bu, Allahdandır!" – deyər, bir pislik üz verdikdə isə: "Bu, səndəndir!" – deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar? (Nisa surəsi, 78)**

## Quranın haqq kitab olduğuna razı edilə bilinməmələri

Tarix boyunca gəlib-keçmiş bütün cahil cəmiyyətlərdə diqqəti çəkən bir başqa xüsusiyyət, insanların çoxunun müqəddəs kitabların Allah tərəfindən endirildiyinə razı salınmamalarıdır. Bunun arxasında duran əsil məqsədləri, yenə din əxlaqını yaşamaqdan qaçmağa çalışmalarıdır. Çünki bu kitabların Allah tərəfindən nazil olan haqq kitablar olduğunu qəbul etmələri, haqq dini və onun gətirdiyi öhdəlikləri də sonuna qədər qəbul etmələrini tələb edir. Halbuki, onlar vicdanlarını susduraraq, nəfslərinin ardınca gedə bilmək və axirətdə hesab verəcəklərini unudaraq yaşamaq istəyərlər. Bu səbəblə, həqiqətləri görsələr də sonuna qədər müqavimət göstərərlər.

Cahil cəmiyyətlərin tarix içərisində İncilə, Tövrata və Zəbura qarşı göstərdikləri bu ənənəvi mövqeləri, Quranın haqq kitab olduğuna razı salınmamaları ilə də özünü göstərmişdir. Peyğəmbərimiz (s.ə.v), qövmünün Qurana iman etməsi üçün hər yolu sınamış, amma içlərindən bir qismi razı olmamaqda müqavimət göstəmişlər. İnkarda qərar tapmış və biganə qalmışlar. Ancaq bir tərəfdən də vicdanlarında yaranan narahatlığı aradan qaldırmaq üçün müxtəlif üsullara əl atmışlar. Quranda bu demaqoq danışıqlarından bəzilərinə belə yer verilmişdir:

**Kafirlər: "Bu, Muhəmmədin uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər" – dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər. Onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları başqasına yazdırmışdır. Bunlar səhər-axşam onun özünə oxunur" – dedilər. (Furqan surəsi, 4-5)**

**Onlar dedilər: "Bunlar qarmaqarışıq yuxulardır! Xeyr, o bunu özündən uydurmuşdur! Xeyr, o, bir şairdir! Qoy o, əvvəlki elçilərə göndərilən möcüzələr kimi bizə də bir möcüzə gətirsin". (Ənbiya surəsi, 5)**

Göründüyü kimi, Quranın üstünlüyünə şahid olduqları halda, Peyğəmbərimiz (s.ə.v)-ə öz dayaz ağıllarına görə şairlik, cadugərlik kimi böhtanlar atmış, hətta Quranı özünün yazdığı yalanını belə söyləmişlər. Allah Qatından heç bir məlumatları olmadığı halda təxminlər etmiş, Allah adına yalan söyləmiş və böhtanlar atmışlar. Şübhə yoxdur ki, əslində özləri də Quranın Allah Qatından endirilən haqq kitab olduğunu çox yaxşı bilirlər. Ya da bu mübarək insanın nə şair, nə də cadugər olmadığına, əksinə son dərəcə gözəl əxlaqlı, səmimi və dürüst bir insan olduğuna ilk əvvəl özləri şahiddirlər. Amma bu hissənin əvvəlində də ifadə etdiyimiz kimi, cahil insanlar bu şəkildə bəhanələr qarşıya qoyaraq özlərini inkarda sabit tutmaq, ətraflarına tərəfdar toplamaq və beləcə vicdanları üzərində yaranan təzyiqi öz dayaz ağıllarına görə yüngülləşdirmək istəyərlər.

Cahil cəmiyyətin bu məntiq yanlışlıqları və heç bir əsası olmayan demaqoq danışıqları isə, Quranda çox kəskin bir şəkildə cavablandırılıb və bu danışıqlar səbəbinə görə axirətdə alacaqları qarşılıq da açıq şəkildə bildirilmişdir:

**Bu, möhtərəm bir Elçinin sözüdür. O, şair sözü deyildir! Necə də az inanırsınız! O, kahin sözü də deyildir! Necə də az düşünürsünüz! O, aləmlərin Rəbbi tərəfindən vəhy edilmişdir! (Haqqə surəsi, 40-43)**

**Yoxsa onlar: "Bunu özündən uydurdun!" - deyirlər. Xeyr, onlar iman gətirmirlər. Əgər doğru söyləyirlərsə, qoy ona (Qurana) bənzər bir kəlam gətirsinlər. (Tur surəsi, 33-34)**

**Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir. Yoxsa: "Muhəmməd onu özündən uydurdu!" - deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!" Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş bir şeyi (Quranı) yalan hesab etdilər. Onlardan əvvəlkilər də yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu. (Yunis surəsi, 37-39)**

# Cahil cəmiyyətin səthi məntiqindən uzaqlaşmaq

Başdan bəri üzərində dayandığımız kimi, cahil insanların dünya ilə bağlı hesabları tutmamış və heç cür içindən çıxıb xilas ola bilmədikləri sıxıntıya düşmüşlər. Dünyada texniki olaraq mümkün ola biləcək ən mükəmməl şərtlər altında yaşasalar belə, həqiqi hüzuru, həqiqi xoşbəxtliyi əldə edə bilməməyin verdiyi narahatlıqdan xilas ola bilməmişlər. Bu səthi həyat tərzindən, cansıxıcılıqdan, boşluqdan, məqsədsizlikdən, çətinliklərdən və qorxulardan qurtula bilmələrinin tək yolu vardır. Quranda bu əhəmiyyətli sirrə belə diqqət çəkilmişdir:

**... Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

Ayədə xəbər verildiyi kimi, bir insanın həqiqi mənada hüzura və rahatlığa qovuşması, ancaq Allahı anması, Onun razı olacağı şəkildə bir həyat sürməsiylə mümkün olar. Quranın bu sirrindən xəbərsiz olan cahil cəmiyyət isə içərisinə düşdüyü vəziyyətin özlərinə görə "həyatın bir həqiqəti" olduğuna, bundan qurtuluş olmadığına inanar. Halbuki, bu onların etdiyi seçimin nəticəsidir və yanlış məntiqlərinin gətirdiyi əxlaqi pozuqluqlarının bir nəticəsidir. İman edənlərin həyatında isə bu cür sıxıntılar və acılara heç yer yoxdur. Məhz inanan və bu əhəmiyyətli sirrin şüurunda olan möminlərə düşən vəzifə də, bu kəslərə "cahil sistemin təqdim etdiyi bu səthi məntiqdən təmizlənmənin və həm dünyada, həm də axirətdə gözəl bir həyatla yaşamanın" yolunu göstərməkdir. Digər bir sözlə, Allahın bütün insanlara endirdiyi Qurana tabe olmağa dəvət etməkdir.

İlk olaraq xatırladılmalı olan çox əhəmiyyətli bir mövzu vardır: Bəhsi keçən insanlar, əvvəldə cahillik sistemini mənimsədikləri üçün sonuna qədər bu sistemi yaşamaq məcburiyyətində olduqlarını düşünərlər. Bu sistemdən qurtuluşun mümkün ola biləcəyini anlaya bilməzlər. Buna görə, bu kəslərə izah edilməli ilk mövzu budur. Əksinə, Quran əxlaqıyla tanış olmadan əvvəl hər insan cahil cəmiyyətlərin dəyər mühakimələri istiqamətində yetişdirilmiş və bu dünyagörüşüylə həyatını davam etdirmiş ola bilər. Əhəmiyyətli olan, özlərinə din əxlaqını yaşamaları lazım olduğu izah ediləndə içində olduqları vəziyyəti fərq etmələri və cahil cəmiyyətdən qoparaq, Qurana sarılmalarıdır. Necə ki, Allahın kitabları və elçiləri vasitəsiylə insanları xəbərdar etməsinin məqsədi də budur onsuz; ataları xəbərdar edilməmiş və beləcə cahil qalmış birliklərin xəbərdar edilməsi, din əxlaqına dəvət edilməsi və beləcə doğru yolu seçmələrinin təmin edilməsi. Allah peyğəmbərlərini vəzifələndirərək tarix boyunca yaşamış olan bütün cahil cəmiyyətlərin xəbərdar edilməsini təmin etmiş və onlara içində olduqları bu cahillikdən xilas olmaları üçün saysız imkanlar təqdim etmişdir.

Üzərində dayanılmalı bir başqa əhəmiyyətli nöqtə isə budur: Allah cahil cəmiyyətdə yaşayan kəslərin səmimi olaraq iman etmələri və Quran əxlaqını yaşamaları vəziyyətində keçmişdə etmiş olduqları hər cür günahı bağışlayacağını vəd edərək, cahil sistemindən qopub ayrılmalarının yolunu açmışdır.

Cahil cəmiyyətin düşüncələrini, inanclarını, həyat tərzini tərk edib iman edən bir kimsənin Allah Qatında bağışlanacağı müjdələnməsi kimi, möminlər də bu kəsləri keçmişdə etdiklərindən ötrü sorğu-sual etməzlər. Bu insanın etdiklərinin bütün qarşılığı Allaha aiddir. Möminlər bir insanı, hal-hazırdakı əxlaqına və rəftarına görə qiymətləndirərlər.

Göründüyü kimi Allah cahil cəmiyyətdən ayrılıb, din əxlaqını yaşamağı son dərəcə asan etmişdir. Bu vəziyyətdə ediləcək ən ağıllı davranış Qurana tabe olmaqdır. Bir yanda çətinlik içində keçirilən 60-70 illik bir cahillik həyatı və bunun ardından qarşılaşılacaq sonsuz cəhənnəm əzabı; digər tərəfdə isə, dünya nemətlərindən ən təmiz şəkildə istifadə olunan, ən gözəl əxlaqlı insanlarla birlikdə, ən gözəl mühitlərdə yaşanılan bir həyat və qavrayışımızın kənarındakı gözəlliklərlə dolu əbədi cənnət həyatı. Əlbəttə ki, məntiqli tək seçim, Quran əxlaqını yaşamaq və buna qarşılıq Allahın təqdim etdiyi gözəlliklərə qovuşmaqdır. Bununla yanaşı, nəfslərinə uymaqdan imtina edib, vicdanlarını istifadə edən kəslər, bunun yalnız məntiqi deyil, eyni zamanda vicdan cəhətdən də ən doğru seçim olduğunu görəcəklər. Çünki bizi yaradan, ətrafımızı sonsuz nemətlərlə təchiz edən və bu həqiqətin şüuruna çatıb Özünə şükür etdiyimiz təqdirdə, sonsuz cənnət həyatını verəcəyini vəd edən Rəbbimizə yönəlmək, şübhəsiz ki, vicdana və insan yaradılışına ən uyğun davranışdır.

Ancaq bütün bunlara baxmayaraq, Quran əxlaqını yaşamaqda tərəddüd edən kəslər də ola bilər. Quranda, **"Xeyr, siz tez keçməkdə olanı (dünyanı) sevirsiniz. Və axirəti tərk edib-buraxırsınız." (Qiyamət surəsi, 20-21)** ayələriylə, bu kəslərin, özlərinə daha yaxın gördüklərinə görə dünya həyatına bağlandıqlarından bəhs edilir.

Bu nöqtədə, hələ də qərarsızlıq içində tərəddüd edən bu insanlara Quranda tövsiyə edilən isə "**ölümü düşünmələri**" dir. Çünki bəlkə də, heç sonu olmayacaq kimi bağlandığı dünyanın bir gün mütləq geridə qalacağını düşünən adamın ağlı başına gələcəkdir. Bəhsi keçən insan düşündüyündə görəcək ki, bəlkə də ani bir qəza ya da gözlənilməz bir xəstəlik, burada bəhs edilən 60-70 illik bir ömrə belə çata bilmədən, hələ iyirmi-otuz yaşlarından ölümünə səbəb olacaq. Belə bir vəziyyətdə bu insan, diplomlarını, malını, mülkünü, fabriklərini, evini, avtomobilini, ailəsini, uşaqlarını, qısacası hər şeyini dünyada buraxaraq torpağın altına girəcək. Çox qısa bir müddət içərisində geriyə bir neçə sümük parçasından başqa bir şeyi qalmayacaq olan bu insanın, dünya həyatından, özü ilə axirətə apardığı tək şey, Allah üçün edib qazandıqları olacaq.

Bu səbəblə, cahillik sistemini yaşayan kəslərin də bu açıq həqiqəti bir an əvvəl görmələri lazımdır. Çünki ölümdən sonra hər insanın qəti olaraq qarşılaşacağı həqiqət, axirətin varlığıdır. Orada hər kəs dünya həyatında etdiklərinin əskiksiz olaraq

qarşısına çıxacağına şahid olacaq. Allahı unudanlar, **"Elə isə bu (əzab) gününüzlə qarşılaşmağı unutduğunuza görə dadın əzabı!. Biz də sizi həqiqətən unutduq; Əməllərinizə qarşılıq əbədi əzabı dadın." (Səcdə surəsi, 14)** ayəsinə görə cəhənnəmə sövq ediləcək və sonsuza qədər tək bir dostları və köməkçiləri belə olmadan orada əzab içində yaşayacaqlar.

Özlərinə Quran əxlaqı izah ediləndə Allahın dəvətinə uyub səmimi olaraq tövbə edən və Qurana tabe olanlar isə, həm dünya həyatında, həm də axirətdə qurtuluşa çatacaqlar:

**Onlar üçün Rəbbinin yanında dilədikləri hər şey vardır. Yaxşı işlər görənlərin mükafatı budur. Beləcə, Allah onların etdikləri ən pis əməlləri bağışlayacaq və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəkdir. (Zumər surəsi, 34-35)**

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

# NƏTİCƏ

Kitab boyunca cahillik əxlaqını daşıyan insanların həyata baxışlarına, yaşama məqsədlərinə, dəyər mühakimələrinə, məntiq incəliklərinə, inanclarına, qorxularına və xarakter quruluşlarına yer verdik. Bütün bundakı məqsəd, Quran əxlaqından uzaq yaşamanın, insanları necə "səthi bir məntiqə" və bundan qaynaqlanan səthi həyat və zehniyyətə apardığını ortaya qoymaq idi. Ancaq daha da önəmlisi, bu həyatı mənimsəyən insanlara, etdikləri seçimin həm dünyada, həm də axirət həyatlarında necə böyük itkilərə bədəl olacağını göstərmək idi.

**"Əgər haqq onların nəfslərinin (istək və ehtiraslarına) uyğun olsaydı, göylər, yer və bunların içində olan hər kəs (və hər şey) məhv olmağa başlayardı. Xeyr, Biz onlara öz şan və şərəf (zikr) lərini gətirmiş oluruq, lakin onlar öz zikrlərindən üz çevirirlər**"ayəsiylə Allah, cahillik sisteminin istək və ehtiraslarıyla hərəkət edənlərin qarşılaşacaqları sonun mütləq ziyan olduğunu xəbər vermişdir. (Muminun surəsi, 71) Bu ziyandan xilas olmanın isə tək bir yolu vardır: Quran əxlaqını yaşamaq. Çünki Quran əxlaqı, insanlara "əsil şan və şərəflərini" qazandırar. İnsanları içinə həbs olduqları cahillikdən, səthi məntiq uydurmalarından, sıxıntılı mühitlərdən, mənfi xarakter xüsusiyyətlərindən, əsassız qorxulardan, azğın inanclardan və bütün bunların səbəb olacağı sonsuz bir cəhənnəm əzabından qurtarar. Bunların yerinə təmiz ağıl, gözəl əxlaq, cənnət bənzəri hüzur dolu mühit, və ən əhəmiyyətlisi də sonsuz nemətlərlə dolu sonsuz cənnət həyatı qazandırar.

Məhz bu kitabın yazılış məqsədi də, həm cahil insanların içərisinə düşdüyü "**qaranlıq mühiti**", həm də Quran əxlaqı sayəsində yaşanan "**gözəl həyatı**" açıq şəkildə ortaya qoyduqdan sonra, insanları üstün bir həyat təqdim edən Quran əxlaqına dəvət etməkdir. Qurana uyan insan qurtuluş tapacaq. Allah **"Sizi zülmətdən nura çıxartmaq üçün Öz quluna açıq-aşkar ayələr nazil edən Odur ..." (Hədid surəsi, 9)** ayəsiylə, Quran əxlaqını yaşamağın insanları qurtuluşa çatdırdığını xəbər verir.

Bu kitab, cahil cəmiyyətə İslam əxlaqının bir təbliği və xatırlatmasıdır. **"Həqiqətən, bu bir ibrətdir. Artıq diləyən Rəbbinə tərəf bir yol tapa bilər" (Müzzəmmil surəsi, 19)** ayəsiylə də bildirildiyi kimi, istəyən Quran ayələri istiqamətində verilən öyüdlərə tabe olar. İnsanın bu dünyada keçirəcəyi müddət çox qısadır; istisnasız hər insan üçün "göz açıb bağlayana qədər" keçəcək. Özünü tamamilə bu qısa müddətə həsr edərək sonsuz bir əzabı gözə almaq isə şübhəsiz adamın özü üçün edə biləcəyi ən böyük ağılsızlıqdır. Əbədi qurtuluşun tək yolu bir an əvvəl cahillik əxlaqının bütün pisliklərindən xilas olub Allahın dəvət etdiyi din əxlaqına tabe olmaqdır. Bu kitabı oxuyan bütün insanlardan gözlənilən də, bu ən doğru seçimi etmələridir.

**De ki: "Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur." (İsra surəsi, 81)**

Allah, Quranda, din əxlaqından uzaq olan insanları "cahil" olaraq adlandırır. Burada istifadə edilən "cahil" sifəti, xalq arasında bilinəndən fərqli bir məna ifadə edir. Xalq arasındakı cahil sözü, ümumiyyətlə oxuma yazma bilməyən, yaxşı bir təhsili və savadı olmayan, ədəbdən məhrum insanlara edilən bir bənzətmədir.

Quranda ifadə edilən cahillik isə insanın, yaradılış məqsədindən, Yaradıcımızın xüsusiyyətlərindən, özünə göndərilən kitabdakı məlumat və hikmətdən, sonsuz həyatını maraqlandıran mövzulardan xəbərsiz olması və bu cəhalətin doğurduğu şüursuz bir həyat formasını mənimsəməsidir.

Cahil insana görə, dünya həyatı insanlar arasındakı bir yarış və mübarizədən ibarətdir. Müvəffəqiyyətli və güclü olmaq üçün, insanın hər zaman əsas olaraq özünü düşünməsi və eqoistcə hərəkət etməsi təməl prinsipdir. Bu həyat şəklinin nə cür səthi və yanlış olduğu isə ancaq Quranda bildirilən həyat forması, üstün düşüncə və əxlaq quruluşu ilə müqayisədə ortaya çıxar.

Bu kitabın məqsədi də, bu müqayisəni nəzərə alaraq, "cahil cəmiyyətlər" in din əxlaqından uzaq olmalarından ötrü necə "səthi məntiq" içərisinə düşdüklərini gözlər önünə gətirməkdir. Həmçinin bu məntiqin gətirdiyi əxlaq modelini hər istiqamətiylə ortaya qoymaq və bu quruluşdan xilas olmanın tək həllinin də ancaq Allahın insanlar üçün seçib bəyəndiyi din əxlaqına uymaqla mümkün olduğunu göstərməkdir.